**RASİM GƏNZƏLİ**

# QIZIL TÜRKLƏRDƏN BİRİ

**«VEKTOR» Nəşrlər Evi**

**Bakı/Azərbaycan – 2015**



Redaktor:

*Prof. Dr.* **Nizami CƏFƏROV**

*AMEA-nın müxbir üzvü, millət vəkili*

Bilgisayar tərtibatı:

**Qulu VASİFOĞLU**

Rasim GƏNZƏLİ "QIZIL TÜRKLƏRDƏN BİRİ" «VEKTOR» Nəşrlər Evi. Bakı, 2015............. səh.

**© «VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ, 2015.**

***Kitab Azərbaycanın ünlü simalarından olan***

***professor Elçin İsgəndərzadənin***

***əlli illik yubileyinə ithaf olunur***



## ÖN SÖZ YERİNƏ,
## YAXUD, TƏQDİMAT ÇƏTİNLİYİ

İnsan dünyaya gəlir. İnsan dünyadan gedir. Bu vaxt aralığında – bu istər otuz il olsun, istər əlli il, yüz il, fərq eləməz – Tanrı bəndəsi görür, götürür, arayıb axtarır, ya şeytanın himayəsində şeytani işlərə baş vurur, ya xeyirxah mələklərin işığında xeyir işlərlə könüllərdə qala qurur. Hər halda, insan ölümündən sonra əlli ildə, yüz ildə "əriyib" heçə dönür, yaddaşlardan silinib gedir. Amma milyonda bir, on milyonda bir insan olur ki, onlar dünyanın yaddaşında əbədilik qalır, dünya ilə yoldaşlıq edir, cahanı məhvərindən qopmağa, dağılmağa, viran olmağa qoymur. Elə bizim bu kitabımızın qəhrəmanı kimi.

Çox fikirləşdim, onu necə təqdim edim, necə təqdimatını verim. Həm texnika, həm ədəbiyyat üzrə alim kimimi? Ya bəlkə şair kimi? İctimai xadim kimi? Yoxsa naşir, xeyriyyəçi kimi? Bunlarla bitmir axı. Onu tam təqdim eləmək üçün çox, lap çox titullar sadalamaq olar. Amma bütün bunların fövqündə əsl ziyalı, əsl insan kimi təqdim etmək ona daha çox yaraşır. Ona görə ki, bu dünyanın qıtlıq çəkdiyi Böyük İnsan azlığının sübut olunmuş nümayəndələrindən biridir. Bitkilər arasında Xarıbülbül nə qədər az və nadir

görünəndirsə, onun kimi insanlar da bəşər məxluqu arasında olduqca az və nadirdirlər.

Xarıbülbül dedim, yadıma nazlı Şuşa düşdü. Xarıbülbül də, nazlı Şuşa da nə zamandı düşmən əsirliyindədi. Elə onun özü də əsir kimidi. Çox pisliklərin içərisində çarpışan az nurlulardan biri kimi. Bir günləri Şuşa da qayıdacaq, Xarıbülbül də özümüzün olacaq. Bəs yaxşı insanlar necə, böyük pisliyin əsarətindən xilas ola biləcəkmi? Bax bu suala dünya min illərdi, milyon illərdi cavab tapa bilmir. Bəlkə cavabsızdı ona görə? Bəlkə dünya belə gəlib, belə də gedəcək? Ziyanlılar çox, ziyalılar az olacaq? Və günəş sönənə qədər işıqlılar işıqsızların qolubağlı əsirliyində qalacaq? Bilmirəm. Amma o əsirlərə hər zaman qibtə etmişəm.

Adil Mirseyid öz kitabında bu insanı "Hardan baxsan görünən adam" kimi təqdim edir. Mən isə hər yandan görünən, amma özümüzün görə bilmədiyimiz bir insan kimi təqdim etmək istəyirəm onu.

Onu...

Elçin İsgəndərzadəni...

Elçin İsgəndəri...

İşığı bir planetə sığmayan böyük, dahi alimi və şairi...



## UŞAQLIĞIN ALTI İLİ

Payızın gəlməyinə hələ bir az qalırdı...

Dağlar hələ yellənməmişdi...

Bağlar barını bərk-bərk sıxıb sinəsində saxlayırdı...

Bir müddət də ötəcək, bu növraqdan əsər-əlamət belə qalmayacaqdı. Ruzigar köynəyini dəyişəcək, yay öz ömrünü könüllü olmasa da, payıza təslim edəcəkdi. Ayıq adamlar üçün isə artıq payızın küləkləri hiss olunur, gecələrin şehindən, axşamların sərin mehindən yeni bir fəslin qapıda dayandığı aydınca sezilirdi.

Barat ayıq adam olsa da, onun qəlbində hələ ilk baharın nəğməsi çalınırdı. Oğul övladı dünyaya gəlmişdi axı. Ağsaqqallardan, ağbirçəklərdən pünhan məqam tapıb oğlunun üzünə baxanda donub yerində qalmışdı: uşağın gözlərində nə qədər işıq var idi, İlahi. Elə bil, günəşin bir zərrəsini qoparıb onun gözlərinin içinə qoymuşdun. Kişi xəyala daldı. Görəsən, bütün atalar övladlarının gözlərində bu qədər işıq görürlərmi? Kimsədən soruşmağa utandı. Amma qəlbinin lap dərin guşəsində bir fikir özünə yer eləyib, çiçək açmağa başladı: yox, bu uşaqda nəsə var, nəsə olacaq, o işığın şöləsindən elimiz nura qərq olacaq!

Bu düşündüklərini bir kimsəyə demədi. Ürəyində saxladı. Nə deyəydi axı, deyəydi, oğlumun didələrinə günəş qonub? Ona gülməzdilərmi? Deməzdilərmi ay Barat, havayı-havayı danışma, onsuz da bütün uşaqların bəbəklərində Tanrının bir işığı var.

Amma uşağa adqoyma mərasimi gələndə Barat özünü saxlaya bilmədi, yoldaşlarından birini yana çəkib astaca " Mən yaşlılardan utanıram, onlara de, uşağın adını Elçin qoysunlar. Bu uşağın el üçün doğulduğunu, elə bil, mələklər mənə pıçıldayıblar " – dedi.

Gözlərində günəş yanan uşağın adını Elçin qoydular.

Uşağı anası süddən kəsməmiş, nənəsi onun əlindən aldı. Dedi, mənim yanımda qalacaq bu uşaq. Yekəlib özünü tanıyana qədər. Nə atası, nə anası day bir söz demədilər. Xəyalları dağda-daşda dolansa da, arvada etiraz eləməyə gücləri çatmadı. Axı əyyam başqa əyyam idi. Ağsaqqalın, ağbirçəyin bir çəkisi vardı. Onların dediyi Quran yazısı qədər müqəddəs sayılardı. Əgər arvad uşağı öz yanına aparmağı məqsəd qoymuşdusa, deməli, burada nəsə vardı. Nəsə hesablanmışdı, nəsə düşünülmüşdü. Hesabsız, kitabsız, qaradan-qaraya bir iş görməzdilər o qocalar. Bəlkə elə Baratın uşağın gözlərində gördüyü işığın şöləsinin yayılmağı üçün nənəsi aparmalıydı, öz yanında saxlamalıydı, yaylağa qalxanda yaylağa, qışlağa enəndə qışlağa gətirməli, onu dağlarla-daşlarla baş-başa saxlamalı, gözünün nurundan bu yerlərə nur payı eləməliydi. Ya da əksinə, təbiət öz ecazkar qüdrətindən onun qəlbini müjdələməliydi.

Malıbəyli kəndi dağların qoynunda yerləşirdi. Bu yerlərdə sirli-sehirli obalar çox idi. O sirli-sehirli məkanlardan biri də elə Malıbəylinin özüydü. Bir ağsaqqal görkəmindəydi bu kənd. Oturuşu, duruşu, baxışıyla da bir ağsaqqal qocanı andırırdı. Dağlar-dərələr Dədə Qorqud misallıydı sanki. Qızlar, gəlinlər o dağlara baxanda utanardılar, yaşmaq çəkərdilər. Bu yerlərə canlı təbiətin ən canlı parçası kimi baxardılar.

Hələ yaylaqlar...



Buralarda keçən beş-altı aylıq ömür sürəsi bir dünyaya dəyərdi.

Bir yaşından nənəsi onu yaylaq, qışlaq adamı eləmişdi. Ona keçi südündən doğramac tutar, yedizdirər, alaçığın bir küncündə düzəltdiyi nənninin içinə qoyub, işinin, gücünün dalısıyca gedərdi. Bu boyda yaylağın sağıcılıq işinə baxırdı axı arvad. Elə bil, bunları duyurdu balaca uşaq. Heç cınqırını da çıxarmırdı. Nənəsi qayıdıb onun yanına gələndə mat-məəttəl qalırdı. Uşaq olan bəndə də belə ağıllı olarmı? Heç ağlayıb, hay-haray salmırdı ki, bir mənim də yanıma gəlin, mənim də halıma qalın, susuzluğumdan, aclığımdan xəbər tutun.

Bir az böyüyüb, ayağı yer tutanda nənəsinin ətəyindən əl çəkmirdi. Onun ayağını qoyduğu yerə ayağını qoyur, gördüyü işləri maraqla müşahidə edir, hər nə varsa, beyninin ağ səhifələrinə yazırdı. Hələ onda bilmirdi, bilmirdi ki, bu yazılanlar daş kitabələrə yazılan yazılar kimi pozulub getmir, əbədilik həkk olunub, insana sirdaşlıq edir.

Bunları sonralar, lap sonralar biləcəkdi...

Hələliksə...

Qayğısız, şən, firavan, bir az da sirli haləyə bürünmüş bir yaylaq-qışlaq ömrü yaşayırdı Elçin. Bir yayı Turşsuda keçirəndə o biri yayı Buğadaşda olurdular. Bu yaylaqların ikisi də gözəl idi. Dağların əhatəsində, meşələrin, buz bulaqların yanında yay fəslini keçirmək bu dünyanın bütün gözəlliyini görməyə bərabər sayılardı.

Yaylaqlarda adətən on on-iki ailə olardılar. Bu ailələrdə olan uşaqları da bir yerə toplayanda on on-iki nəfər edərdi. Bu uşaqlar səhərin gözü açılandan axşam düşənə qədər dağda-daşda dolanar, hər bir ağacın, budağın, yarpağın yanağına sığal çəkər, alaçığa qayıdanda yorğunluqdan düşüb daş kimi yatardılar. Elçin nənəsinin yanından qopanda bu

uşaqlara da qoşulardı. Ancaq onun üçün ən maraqlısı uşaq təxəyyülü ilə müşahidələr aparmaq, bir də nənəsinin nağıllarına qulaq asmaq idi. Əlbəttə ki, nənəsinin vaxtı olanda. Belə məqamlar az olurdu. Və bu az olan məqamın çatmasını Elçin elə ürəkdən arzulayırdı ki...

Məlikməmmədin nağılını da danışmışdı ona. Cırtdanın da. Amma Elçin nənəsinin ona ən çox qurd nağıllarını danışmasını xoşlayırdı. Nə iş idi heç özü də bilmirdi, təbiətin bu canlı varlığını bütün canlı varlıqlardan daha çox sevirdi. Bu balaca yaşında qurd onun üçün məğrurluğun simvoluna çevrilmişdi. Təbii ki, bu qurd sevgisinin yaranmasında nənəsinin dedikləri əsas rol oynayırdı. Axı heç zaman nənə ona qurdun çaqqala oxşamasından danışmırdı. Heç tülküyə, dovşana, ayıya, lap meşələr sultanı şirə, pələngə də... Qurd qurd idi. Heç zaman səhv etməyən, öldürdüyünü də nəyə görə öldürdüyünü bilən, yerişiylə, duruşuyla uca görünən bir canlı varlıq...

Hərdən belə nağılların arasında Elçin xəyallara dalırdı. Və bunu duyan nənə də nağılını yarımçıq kəsib, uşağı xəyallar dünyasından geri qaytarmaq istəmirdi. Sonra da suallar verirdi nənəsinə.

-Ay nənə, qurd adamı öldürər?

-Adamı öldürməz, bala.

-Bəs uşaqlar deyir, bir adamı qurd parçalamışdı?

-Yəqin o adam deyilmiş.

Yenə xəyallara dalırdı uşaq. Öz aləmində nənəsinin dediklərini düşüncə süzgəcindən keçirirdi. Bu arvad axı elə-belə söz danışmaz. Belə deyirdisə, deməli, dediyində bir məna, bir məntiq var idi. O məntiqin, o mənanın içərilərinə varmağa isə hələ Elçinin gücü, qüvvəti çatmırdı. Bu məntiqi, bu mənanı Elçin lap sonralar anlayacaqdı.

Hələ ilk uşaqlıq çağlarını yaşayırdı...



Filosoflar, insanı öyrənən alimlər artıq sübut eləmişdilər, eləmişdilər ki, uşaq çağlarında yaddaşa həkk olunanlar əbədilik orada qalır. İnsan var ki, on beş, iyirmi, otuz yaşlarında başına gələnləri unudur, yaddaşının koduna yaza bilmir. Ancaq üç-beş yaşlarında baş verənlər hər zaman xəyalında dolanır, onu tərk etmir, ömürlük ona ya xoş xatirələr, ya da kədərli anlar yaşadır.

O yaylaqlarda, elə balaca Malıbəylinin özündə də baş verən hər bir hadisə onun üçün unudulmaz anlara çevrilirdi.

Hərdən atası, anası, qardaşları da ona baş çəkməyə gəlirdilər. Xoş dillə onun saqqızını oğurlayıb, hərdən evlərinə də aparırdılar. Lakin balaca oğlan Malıbəylidən, Turşsudan, Buğadaşdan, nənəsindən ötrü darıxırdı. Lap elə o yerlərin ağacları üçün də. O ağacları üçün ki, imkan tapan kimi budaqlara dırmaşar, yarpaqların arasında görünməz olar, beləcə, öz uşaq dünyasına dalardı. Nənəsi üçün hərdən kəklikotu yığıb gətirərdi. Nənəsi kəklikotu çayını içməyi çox xoşlayardı axı.

Elə o vaxtlardan öz yoldaşlarından seçilərdi bu uşaq. Məntiqi, ağlı, düşüncəsi ilə... Bunu təbii ki, özü bilmirdi. Arif adamlar isə hiss edirdilər. Bu uşağın işığından qaranlıqların yarılacağına qəlblərində qəribə inam hissi oyanırdı. O işıq ki, onun gözlərində birinci dəfə atası görmüşdü. Sonra qohumlar, qonşular, yaxınlar... lap uzaqlar da görməyə başladılar.

Uşaqların bir neçəsinin dediyi sözü Elçin təsdiqləmirdi. Onun üçün bu deyilənlər məntiqsiz sayılırdı. Əlbəttə, bunların çoxunu o, uşaqların üzünə vurmurdu, öz məntiqini təsdiq kimi ürəyində saxlayırdı.

Hərdən isə...

Hərdən uşaqlarla xırda mübahisələri də olurdu.

-Bu meyvəni dərəndə, budağı qırmazlar.

-Niyə ki?
-Axı gələn il o budaq yenə meyvə gətirməlidir.
-Başqa budaqlar gətirər.
-Başqa budaqlar bar verənə qədər biz meyvəsiz qalarıq...
-Heyvanları döyməzlər, günahdı.
-Niyə günah olur, heyvandı də.
-Elə heyvan olduğuna görə döyməzlər.
-Bəs adamı döyərlər?
-Yox, adamı başa salarlar.
-Birdən başa düşmədi?
-Onda... onda... birtəhər başa salarlar.
-Birtəhər də başa düşməsə?
-Onda o adam olmur ki, uşaqlar, elə heyvan kimi bir şey olur...

Qıraqdan uşaqların bu söhbətinə qulaq verən yaşlılar Elçinin özündən yekə məntiqinə mat-məəttəl qalırdılar. Əl boyda uşaq gör hansı mətləblərə, hansı məqamlara baş vururdu. Özü də elə-belə baş vurmurdu, danışığının içində əməlli-başlı düşünməli fikirlər olurdu.

Onun bu işığını yavaş-yavaş başqaları da görməyə başlayırdılar. Böyük Üzeyir Hacıbəyovun həyatından bəhs edən filmə baxanda, onun uşaqlıq çağlarını görəndə bu uşağın nə qədər duyğusal, düşüncəli, dərrakəli, iti zehinli olduğunu görürdüm. Və bu görmək məndə elə qəribə hisslər oyadırdı ki... Sanki Üzeyir dağa da başqa uşaqların baxdığı gözlə baxmırdı. Çaya da, ağaca da, budağa da... Elə bil, Üzeyir hər şeydə bir məna gəzirdi. Onun üçün bu dünyada mənasız heç nə yox idi. Bəs sonrası necə oldu? Bu uşaq böyüyüb ÜZEYİR oldu. O Üzeyir ki, musiqidə etdiyi tapıntılarla bütün dünyanı lərzəyə gətirdi. Bütün dünya onun yazdığı musiqi əsərlərinin qarşısında ehtiramla baş əydi.



Bayaq qeyd eləmişdim axı, Malıbəyli çox da böyük kənd deyildi. Amma bu balaca yurd yerinin özünəməxsus xüsusiyyətləri vardı ki, adam bu xüsusiyyətlər haqqında eşidəndə, tanış olanda qəribə xəyalların ağuşuna düşür. Kəndlər də adamlar kimidi: birisi kəntöy, yöndəmsiz, qaba, birisi həlim, yapışıqlı, zövqoxşayan... Mən tanıdığım kəndlərin görkəmini yadıma salanda hər kəndə görə bir adam yadıma düşür: bax bu kənd Məhəmmədə oxşayır, bu kənd Əliyə, o birsi isə Yastı Salmana... Malıbəylini görməmişdim. Ancaq nəyə görəsə o kəndi qətiyyən Yastı Salmana bənzədə bilmirdim. Və elə bilirəm zənnimdə qətiyyən yanılmamışam. Mənzərəsi axar-baxarlı, ağacları durna telli, bağ-bağçası nazlı gəlinə bənzər, adamları da ki... Adamları tam başqa bir aləm. Deyilənə görə bu kəndin polisi də, məhkəməsi də kəndin ağsaqqalları olublar. Bütün müşkül olan işləri bir yığnaqla həll edərdilər. Kimin nə ağzı idi ki, bu " məhkəmənin " işinə etiraz eləsin. Adamlar, sanki, bir-birini tamamlayırdılar. Hələ ağsaqqallar bir yana, ağbirçəklərin məsləhətindən, əmrindən də kimsə çıxa bilməzdi.

Uşaq müşahidəsi ilə belə şeylərə də fikir verirdi Elçin. Adi sağıcı olan nənəsi elə çözülməsi çətin olan məsələlərə baş uzadırdı və aydınlıq yaradırdı ki, bu uşaqda nənəsinə qarşı xüsusi rəğbət və ehtiram yaradırdı.

Nənəsinin yanında yaşadığı altı illik ömür sürəsi bu uşağa çox şeylər verdi. Bəlkə də gələcək ömrünün möhkəm özülünü bu yerlərdə qoydu. Onu Elçin İsgəndərzadə edən bir tərəfdən zatından, kökündən gələn irsi qabiliyyət idisə, bir tərəfdən də altı il yaşadığı ilk cocuqluq çağlarının havası, suyu, mühiti, nənəsindən aldığı tərbiyənin təsiri idi.

## MƏKTƏB İLLƏRİNİN XATİRƏLƏRİ

Yeddi yaşının tamam olmasına on alti gün qalanda orta məktəbə getmişdi. Amma artıq həriflərin hamısını tanıyırdı. Beş yaşından sonra nənəsi, sonra da anası hərifləri öyrətmişdi ona. Atası ehtiyatda olan zabit kimi Rusiyada toplanışda olanda ağlayıb, anasına demişdi ki, mən də atama məktub yazmaq istəyirəm. Ana da məcbur olmuşdu, onun cızma-qaralarını konvertə qoyub məktub adıynan atasına göndərmişdi. Bu oğul "məktubundan" qərib yurdda atası nə qədər sevinmişdi, bunu Elçin sonralar hiss elədi. Bəlkə də o "məktub" o vaxta qədər kişiyə gələn ən qiymətli məktub kimi ürəyinin bir guşəsinə yazılmışdı. Az iş deyildi, beş-altı yaşında oğul balası ona məktub yollamışdı... Barat sonralar danışacaqdı, deyəcəkdi ki, o məktubdan sonra qərib yurdda necə qaldım, heç özüm də bilmədim. Bir ayağım Azərbaycana, Şuşaya tərəf sürünürdü...

Bütün məktəb bu balaca, çəlimsiz uşağın istedadından danışırdı. Hələ bir az da şişirdib, onun haqqında qəribə söz-söhbətlər edirdilər.

-Xəbərin var Baratın oğlundan?

-Hə, eşitmişəm, deyirlər, maşallah, indidən vurma cədvəlini əzbər bilir.

-Nə vurma cədvəli, vurma cədvəlini Cahangirin oğlu da bilir də. Deyilənə görə, bu uşaq dördüncü, beşinci sinif uşaqlarının məsələ, misallarını həll edir.

-Qablarında var də...



Məktəb partasına heç də çətinliklə öyrənmədi. Uşaqlar var idi ki, ağlayırdılar, analarını, atalarını istəyirdilər, evə getmək üçün yüz bəhanə quraşdırır, hətta, xəstələndiklərini, qızdırma içində olduqlarını deyib, müəllimi aldatmaq istəyirdilər. O, belə uşaqlara gülürdü. Yeri gələndə hələ onları tənbeh də edirdi.

- Utanmırsınız, adam da yalan danışar? Məktəbdən iraq düşən uşaqların bilirsiniz sonu necə olur? Bax, o bazarda yük daşıyan qıvrımsaç hambal kimi. Oxumayan uşağın gələcəyi olmur.

Bu sözləri atasından eşidib, yadında saxlamışdı. Ümumiyyətlə, atasının hər kəlamını məlhəm kimi sinəsinə çəkir, sonra beyninə həkk edib, müdrük kəlamlar kimi yaddaşında saxlamaq istəyirdi. Bütün uşaqlar atalarını hamıdan güclü bilərlər axı. O, həm də atasını bütün kişilərdən ağıllı kişi hesab edirdi. Düzdür, bunu dilinə gətirmirdi, uşaqlara demirdi, bilirdi ki, desə, yan-yandan etirazlar gələcək, hər uşaq deyəcək, mənim atam ağıllıdır. Amma ürəyində bunu yüz dəfə, min dəfə təkrar-təkrar təsdiqləyirdi. Heç anasına da demirdi bu barədə. Düşünürdü bəlkə anası onun bu sözlərindən qısqanar. Baxmayaraq ki, söhbət atalardan gedirdi. Bir də nəyə görəsə utanırdı bu sözü dilinə gətirməyə. Ən çox da atasının özündən. Dünya dağılsaydı belə bu sözləri atasının üzünə deyə bilməzdi.

Uşaqlar arasında belə boş-boş mübahisələr olanda, o, bir qırağa çəkilib, kitablarına baxırdı. Yox, buna baxmaq demək olmazdı. Oxuyurdu. Sinifdə hamıdan yaxşı oxuyurdu. Hər oxuduğunda bir məntiq axtarırdı. Hərdən məqam düşəndə müəllimi sual atəşinə tuturdu. Bəzən elə suallar verirdi ki, müəllimin özü də çaş-baş qalırdı. Bu suallardan özünü itirməmək üçün müəllim bütün gücünü, pedoqoji qabiliyyətini işə salmalı olurdu.

-Müəllim, el üçün ağlayan göz niyə kor olur?
-O nə sözdü, Elçin?
-Bax, kitabda yazıblar.
-Bilirsən... yəni... hər halda, el üçün ağlamaq lazımdı.
-Bəs onda kitabda düz yazmayıblar?
-Yox, bala, əstafürulla, kitabda yalan şey yazmazlar. Sadəcə, bunu anlamaq üçün hələ sənin yaşın çatmır.

Day bir söz demirdi Elçin. Müəllimin bu sözündən sonra nə deyəydi? Axı atası demişdi, müəllimlər də valideynlər qədər müqəddəsdirlər. Belə deyirdisə, demək, bu sözün içində bir məna var.

Bu kəndə köçdükləri hələ yeni idi. Ağdamın bu kəndinə, Əhmədavara hələ isinişə bilmirdilər. Bu yerlər, ağaclar, bağ-bağçalar, adamların özləri də onlara qərib kimi görünürdülər. Elçinə qalsaydı, heç Malıbəylidən, nənəsinin yanından buraya gəlməzdi. Elə orda qalıb, orda da oxuyardı. Bunu bir dəfə məktəblərin açılmasına on beş, iyirmi gün qalanda kövrələ-kövrələ anasına da dedi:
-Ana, olarmı mən Malıbəylidə qalım?
-Niyə ki, bala?
-Axı nənəm mənsiz darıxar.
-Biz də burda sənsiz darıxarıq. Nənən altı il səni yanında saxlayıb, doyunca görüb, boyunu oxşayıb, qoy biz də altı il görək, sonra baxarıq.

Malıbəylinin ağacı, budağı, döngəsi, dağı-dərəsi bir yana, uşaqları üçün yaman qəribsəyirdi. Hərdən lap burnunun ucu göynəyirdi onlar üçün. Demək olar ki, o uşaqlarla yayı, qışı bir yerdə olmuşdu. Yaylaqda yaylaq, qışlaqda qışlaq yoldaşı olmuşdular. Ara-sıra yuxusuna da girirdi o uşaqlar. Yuxudan ayılıb həzincə yorğanının altında ağlayırdı. Ona ağır gələn bir də bu kənddə olan uşaqların ona qonaq, qərib kimi baxmaları idi. Hərdən istirahət günləri



anası onu Malıbəyliyə gətirəndə, uşaq quş kimi qanad açıb uçmaq istəyirdi. Bu kənddə olacağı az müddətin bir anının da fövtə vermək istəmirdi. O uşağın dalınca gedir, bu uşağı səsləyir, öyrəndikləri yerlərdə gəzib dolanır, tanış ağaca, budağa, daşa, qayaya sığal çəkməyi də yaddan çıxarmırdı. Bununla sanki uşaq onlardan üzrxahlıq diləyir, bir növ onların qarşısında "günahını" yumağa çalışırdı. Malıbəylidən aralanmağa az qalanda isə... Elçinin sifətinə qəribə, çox qəribə qəm haləsi çökərdi.

Amma zaman aramla hər şeyi yönünə qoyur. Yavaş-yavaş Əhmədavara öyrənirdi. Yavaş-yavaş Əhmədavarın uşaqlarına uyuşurdu. Yavaş-yavaş məktəb yoldaşlarına yovuşurdu. Az müddətdə nəinki Əhmədavarda, bütün Ağdamda özündən söz etdirməyə başladı. Rayonda keçirilən fənn olimpiadalarına hər dəfə Elçini göndərirdilər. O da rayon mərkəzindən üzüağ qayıdırdı. Belə anlarda müəllimlərinin üzündə qəribə bir təbəssüm, gözlərində işıq görürdü Elçin. Nəinki sinif yoldaşları, bütün məktəbin şagirdləri ona həsədlə baxırdılar. Hələ paxıllığını çəkənlər də tapılırdı. Bir dəfə öz qulağı ilə eşitmişdi, bir şagird o biri şagirdə demişdi ki, necə olur bu Malıbəylidən gələn hər şeyi bilir, biz heç nəyi bilmirik?! Məktəbin üzünü ağ elədiyinə görə müəllimlər onu çox istəyirdilər. Hər tədbirdə onu başa çəkirdilər. Ancaq bütün bunlardan qürrələnmir, öyünmür, öz işi-gücü ilə məşğul olurdu. Öz iş-gücü isə məktəb aylarında ancaq oxumaqdan ibarət olurdu. Başqa işlərə o qədər də baş qoşmurdu. Daha doğrusu, atası onun gələcəyindən nəsə gözlədiyinə görə, başqa işlərlə başını qatmaq istəmirdi. Amma canında o qədər enerji, işləmək həvəsi vardı ki, hərdən gözdən yayınıb, bəzi ev işlərinə də əl yetirirdi.

Aydan-aya, rübdən-rübə püxtələşirdi bu uşaq. Püxtələşdikcə savadı çoxalır, savadı çoxaldıqca çətin,

müəmmalı sualların sayı artırdı. Pionerə keçəndən komsomola qəbul olunana qədər onun daxili aləmində çox böyük dəyişikliklər baş vermişdi. Bu təbii ki, bütün uşaqlarda olurdu. Dünya fırlandığı kimi uşaqların da iç dünyası fırlanır, qabağa gedirdi. Amma bu uşaqda baş verən dəyişiklikər o birilərindən çox fərqlənirdi. Pionerə keçəndə müəllimlərdən çəkinsə də, atasına suallar verməkdən çəkinməmişdi.

-Ata, o biri ölkələrdə də uşaqlar pionerə keçirlər?

-Yox, ay bala, onlar keçmirlər.

-Niyə keçmirlər ki?

-Çünki onlar yaxşı uşaqlar deyillər.

Bu cavab onu qane eləməmişdi.

-Ancaq Sovet uşaqları yaxşı olurlar?

-Yox, niyə ki?

-Bəs niyə onlar pionerə keçmirlər?

-Ona görə ki, onların Lenin babaları yoxdu.

-Ölüb babaları?

-Hə, çoxdan ölüb.

-Bəs bizim Lenin babamız ölməyib?

-Lenin baba ölmür. O, daim yaşayır, bizimlə birlikdə gələcəyə gedir.

Bu cavab da Elçini razı salmamışdı. Amma daha sual verməmişdi atasına. Və bir uşaq dərrakəsi ilə belə suallar verdiyinə görə özü-özünü qınamışdı. Daxilində gizlənən pünhan bir hiss ona pıçıldamışdı, demişdi, hər sualı böyüklərə verməzlər. Bu suallarla böyükləri çətin duruma salmaq yaramaz. Elə o vaxtlardan sonra qəlbində yaranan hər sualın cavabını özü axtarmağa çalışmışdı. Başqalarını çətin durum qarşısında qoymaq istəməmişdi. Lakin illər-illəri əvəzlədikcə, fəsillər bir-birini amansızcasına tapdalayıb keçdikcə onun qəlbində də qəliz suallar artıb, çoxalırdı.



Yaşının üstünə yaş gəldikcə bu sualların mənası da dəyişirdi. Bu suallar ciddiliyini artırdıqca Elçinin xəyalı da dərinləşir, özünü bir boşluqda, havasızlıqda hiss edirdi. Ona görə daha çox tənha qalmağa çalışırdı. Ya boş bir otağa çəkilir, ya yalqız bir ağacın altına sığınır, ya da belə sualların cavabını tapmaq üçün kitabları o yandan bu yana, bu yandan o yana vərəqləyirdi. Bir də hərdən ona elə gəlirdi ki, belə tənha qalanda hardansa xeyirxah mələklər ona həqiqətin özünü danışacaqlar.

Onları komsomol sıralarına qəbul edəndə uşaqların hamısı sevinirdi. Elçinin özü də üzdən sevincək görünürdü. Əslində isə qəlbində baş qaldıran qəribə duyğular ona rahatlıq vermirdi. Nə idi o narahatlığın səbəbləri?

Nənəsi də, başqa ağsaqqal, ağbirçək qohumları da yaşadıqları bu dövlətin hansı yollardan keçib, buraya gəlib çıxdığını ona danışmışdılar. Otuz yeddinci ilin mənfur repressiya illərindən danışanda, danışanların özlərinin də, onlara qulaq asanların da tükləri ürpəşirdi. Söhbətlərdən belə məlum olurdu ki, o vaxtlar bizim ən qaymaq oğullarımızı, kişi hünərli qızlarımızı məhv eləmişdilər. Onların az bir qisminin adlarını sadalayanda, nənəsinin gözləri dolur, əlləri titrəyir, səsi avazıyırdı. Bu qeyrətli vətən övladlarının nə günahları vardı ki?.. Günahları bəlkə düşünməyi bacarmalarındaydı? Ziyalı, aydın, işıqlı, zəkalı olmalarındaydı? Niyə bu sistem, bu cəmiyyət robot insanları, daha çox qul psixologiyası olan insanlara önəm verirdi? Onları qabağa çəkir, vəzifə verir, şan-şöhrət zirvəsinə yüksəldirdi. Nəyə görə Tanrının insana bəxş elədiyi düşünmə, nəticə çıxarma, məntiqə gəlmə xoşbəxtliyindən insan imtina etməliydi? Düzləri düşünmək bu qədərmi bu dövlət üçün qorxuluydu? Qorxu üzərində yaranan dövlətin ömrü çoxmu uzun olacaqdı? Bu fikirləri köhnə kişilər

qorxularından ağızlarına belə gətirmirdilər. Elçin və onun kimi işıqlı düşünməyi bacaran yeniyetmələr isə hərdən xısın-xısın da olsa bu barədə fikir mübadiləsi aparırdılar.

Komsomola keçən günü də onların belə bir söhbəti olmuşdu. Əslində dünəndən Elçinin narahatlığı özünü büruzə verirdi. Bir istəmişdi bu barədə atası ilə söhbət eləsin, ona ürəyini açsın, desin, ata, olarmı mən komsomola keçməyim? Ancaq bunun cavabını əvvəldən bildiyinə görə, bu sözləri ona deməyə cürət eləməmişdi. Bilirdi ki, atası onu qınayacaq, deyəcək, bu nə söhbətdi edirsən? İstəyirsən bizi Sibirə sürsünlər? Ya Nargin adasına aparıb güllələsinlər?

Amma o gecə səhərə qədər düz-əməlli yata bilməmişdi. Arandan vurub, dağdan çıxmışdı. Axırda bir qənaətə gələ bilməyib, gecənin bir yarısı yuxuya getmişdi. Və qəribəydi, çox qəribəydi ki, yuxusunda da düşüncələrinin ardını görmüşdü. Görmüşdü ki, Ağrı dağının ətəklərində, Türkiyə görsənən yerdə onu edam edirlər. Özü də necə edam; başını edam kötüyünün üstünə qoyub, ondan günahlarını boynuna almağı tələb edirdilər. Bir yanda anası fəryad qoparırdı, bir yanda o biri doğmaları. Onların ah-naləsi göylərə ucalırdı.

İşin bu yerində yuxudan ayılanda özünü qan-tərin içində görmüşdü. Ürəyi də şiddətlə döyünürdü. Durub bir stəkan su içib, yenidən yatağına girmişdi. Bu yuxusunu heç kimə danışmamışdı. Ən yaxın yoldaşlarına belə...

Əvvəldən düşündüyü sualları da müəllimə verməmişdi. Bu sualların sonluğunun pis olacağından qorxmuşdu...

-Bizim komsomol sıralarına keçməyimiz bu dövlətə nə verir ki?

-Heç nə. Onsuz da ürəklə daşımırıq o nişanı.

-Biri mən, necə daşıyım, necə ağızdolusu deyim ki, bu dövlətin komsomolçusuyam? İgidlər igidi babamı öldürüb bu dövlət. Tayfamızda olan bütün işıqlı adamları məhv ediblər.

-Mənim də babam Sibirdə soyuqdan donub ölmüşdü.



-Mənim qohumlarımı Qazaxıstana sürgün eləmişdilər.

Bütün bunlar haqqında çox düşünürdü Elçin. Bu yalançı, saxta təbliğat nəyə lazım idi? İndi dilə gətirməsələr də, çoxları keçmişdə baş verənlərdən xəbərdar idilər. O qədər ölümü, itimi, qanı, qadanı itirib yaddaşlardan silmək asan iş idimi? Çox vaxt ruhlar da danışır. Əzablar içində dünyadan gedən o əzilmiş ruhlar əməlisaleh adamların yuxusuna girir, onlarla danışır, həqiqətin harda olduğunu onlara anladırdılar. Belə həqiqətlərin bəyan olmasını, üzə çıxmasını Elçin bir yeniyetmə istəyi ilə çox arzulayırdı. Amma bu istəyini heç atasına da ürəklə deməyə cürəti çatmırdı. Axı necə olsaydı, atası da bu dövlətin yetirməsi idi. Cibində kommunist bileti gəzdirirdi. Bilirdi ki, bu mövzuda danışanda, atası söhbətdən yayınır, bir bəhanə ilə aralanıb gedirdi. Heç yuxuda gördüklərini də atasına danışmırdı. Axı o, adını hərdən pıçıltı ilə eşitdiyi Türkiyə adlanan məkanı yuxularında tez-tez görürdü. Tez-tez yuxularında yol gedirdi. O yol hərdən onu çəkib, xəyal olduğu qədər uzaq, istək olduğu qədər yaxın Türkiyə sərhədlərinə gətirirdi. Bəzən sərhədləri də vurub keçirdi. O doğma yerləri qarış-qarış gəzib dolanır, elə oralarda olanda da yuxusundan ayılırdı. Yenə gözlərini bərk-bərk qapayır, yenə yatmaq, yenə yuxusunun ardını görmək istəyirdi.

Belə rəngli yuxulardan sonra Elçin bir az da duyğusallaşır, xəyallaşır, nağıllaşır, romantik duyğuların qanadlarında bir az da irəli gedib, özü üçün yeni məkan, yeni zaman qururdu. Elə bir məkan ki, o məkanda dünya türklərinin birliyi var idi. Elə bir zaman ki, o zamanda həqiqəti deyənlərin dilini kökündən çıxarıb atmırdılar. Özünü dar ağacına çəkmirdilər.

Belə qərib, üzücü düşüncələr onun qəlbini bütövlüklə çuğlasa da, o, yenə kitablarından aralı düşmürdü. Ədalət və həqiqətin bir qismini bu kitablardan tapsa da, digər

həqiqətləri öz ağıl süzgəcindən keçirib, qəlbinin, ruhunun mayasına hopdururdu.

Beləcə, səkkiz ilin nə vaxt gəlib ötdüyünü bilmədi. Bir də baxdı ki...

...Bu gün Əhmədavar kənd səkkizillik yarımorta məktəbinin buraxılış günü idi. Hamı bəzənib-düzənmiş, şax geyinmişdi. Valideynlərin də üzündən bəxtəvərlik seli süzülürdü. O valideynlərdən biri də Elçinin atası idi. Bilirdi ki, müəllimlər onun oğlunu o ki var tərifləyəcəklər, xoş sözlər deyəcəklər. Elə düşündüyü kimi də oldu. Çıxış edən müəllimlərin, demək olar, hamısı Elçinin yüksək intizamından, dərsləri qavrama qabiliyyətindən, məktəbdə xoş izlər qoymasından danışdılar. Sonra da tərifnamə ilə onu mükafatlandırdılar. Bu onun həyatında qazandığı, hələlik, ən böyük mükafatı idi. Rəsmi hissədən sonra bədii hissə də keçirdilər. Musiqi nömrələri, şeir parçaları ilə səkkiz illiyi bitirənləri yola saldılar. Onlara uğurlar dilədilər. Yollarının işıqlı olmasını arzuladılar...

Artıq yeni bir yola çıxırdı Elçin. Məsuliyyəti bir az da artırdı. Bu yeni yol onu hara aparacaqdı? Çətinliklər onu yorub, yarı yolda saxlamayacaqdı ki? Bütün bunları izləmək üçün gərək mənim bu kitabıma yol yoldaşlığı edəsiniz. Onda hər şeyi biləcək, xəbərdar olacaqsınız...



## YENİ YOLUN CIĞIRLARI

Artıq məkan dəyişmişdi. İndi də Ağdamda oxuyurdu. Altı nömrəli orta məktəbdə. Elə bil, onun taleyinə yazılmışdı bu; bir neçə ildən bir yerini, yurdunu dəyişirdi. Doğum yeri nazlı Şuşa, ilk cocuqluq çağları Malıbəyli, səkkiz illik təhsil illəri Əhmədavar, indi də Ağdam... Ancaq bura çox tez yovuşdu. Əvvala ona görə ki, daha altı-yeddi yaşında uşaq deyildi. İkincisi, onunla birlikdə orta təhsil almağa Əhmədavardan bir neçə uşaq gəlmişdi. Üçüncüsü, Ağdamı yaxşı tanıyırdı. Zamandan məqam oğurlayan kimi uşaqlara qoşulub, Ağdama gəlirdilər. Ya bir kinoya gedir, ya dükanda, bazarda dolanır, ya da gəzməli, görməli yerlərə baxır, günəş qüruba əyiləndə, bir maşına əyləşib kəndə gəlirdilər. Belə vaxtların ən xoş xatirəli anları isə qızlarla bağlı olardı. Ürəyi yenicə isinməyə başlayan bu uşaqlar rayon mərkəzində olan qızlara xüsusi maraqla yanaşırdılar. Bu qızlar kənd oğlanlarını nə qədər özlərindən aralı tutmağa çalışsalar da, gözləri həsrətlə yanan bu oğlanların qarşısında əriyirdilər. Bu qızların nazı, işvəsi onlarda xoş narahatlıq yaradırdı. Belə vaxtlarda bu oğlanlara elə gəlirdi ki, dünyanın ən əzablı cənnəti elə Ağdamın özüdür. Bir tərəfdən də qorxurdular. Qızların qohum-əqrabasından, qardaşlarından çəkinirdilər. Bilirdilər axı, bu yerlərin özünəməxsus qaydaları, kitaba, dəftərə yazılmayan qanunları var idi. Onu da bilirdilər, özləri duymuşdular, həm də, yaşlı adamlardan eşitmişdilər - bu yerlərdə hələ Sovet hakimiyyəti qurulmamışdı. Bunu camaat ironiya ilə deyirdilər. Ancaq hardasa, bu ironiyanın içərisində

hiss olunası bir həqiqət də var idi. Respublikanın heç bir bazarında olmayan, qadağan olunmuş malların hamısı Ağdam bazarında satılardı. Bu bazarda ağlına gələn nə istəsəydin tapardın.

Amma bütün dəmir qanunlara rəğmən, yenə də uşaqlar "sevgi oyunlarından" əl götürüb, "tənhalar adasına" çəkilmirdilər. İlk məhəbbətin al şöləsi onlarda bütün qorxulara üstün gəlirdi.

İndi o qaynar nöqtəyə gəlmişdi Elçin. Son iki ilini burada oxuyacaq, kamal attestatı alacaqdı...

İnsan ömrünün elə çağları olur ki, gücü-qüvvəsi hər şeyə çatır. Belə vaxtlarda ona elə gəlir, dağları da yerindən oynadıb, başqa səmtə apara bilər. Ona görə deyirlər, cavan adamlar ölümdən belə qorxmurlar. Sanki onlar ölüm deyilən mələyin onlara yaxın gələcəyini ağıllarına belə gətirmirlər. Bəzən gənc ölümlərin səbəbi də elə bu özündən razılığın nəticəsində yaranır.

Elçin də yorulmadan çalışırdı. Bu qədər işin, kitab-dəftərlə əlləşməyin müqabilində çox da yorulmadığına özü də heyrət edirdi. Saatın əqrəblərini səhər saat altıya qururdu. Saatın zənginə oyanıb, düz məktəbə gedənə qədər oxuyurdu. Dərsdən sonra uzağı bir saat özünə istirahət üçün vaxt ayırırdı. Əslində bu bir saatda da "oxuyurdu". Bu vaxtlarda kitablarda yazılmayanları öz ağıl süzgəcindən keçirirdi. Azərbaycanın ikiyə bölünmək, paralanmaq, xırdalanmaq səbəblərini axtarırdı. Niyə belə olmalıydı axı? Nədən çox az xalqlara qismət olan bu ayrılıq şərbətini bizə də içirməliydilər? Niyə bu haqda ucadan danışmağı bizə yasaq eləmişdilər? Axı niyə millətin çoxusu bilməməliydi bu həqiqəti? Bu yasaq, bu qadağa dünya xalqlarına nə verəcəkdi ki? Bəs niyə o biri parçalanan xalqlar dərdlərini ucadan bəyan edə bilirdilər, ayrılıqlarını qəzet, kitab səhifələrinə



çıxarır, hay-haray qoparırdılar? Bizlər isə... Yalnız bir az pərdəli, üstüörtülü bayatılar, ağılar qoşmaqla dərdimizi ovutmağa çalışırdıq. Bu yasaq yalnız bizəmi qoyulmalıydı? Axı nədən, nə səbəbə? Dünyanın həqiqət deyilən gözü niyə kor olmuşdu, niyə tutulmuşdu, niyə heç nəyi öz rəngində görmürdü?

Bir nəfər dostu ona gizlincə Təbrizin şəkillərini vermişdi. Demişdi bax, amma heç kimə göstərmə. Bu da Elçinin hələ çox da bərkiməmiş qəlbinə bir dərd olmuşdu. Axı doğma yurdun bir parçası olan Təbrizin şəkillərinə niyə gizlincə baxmalıydı? Axı niyə Təbrizin özünə getməməliydi? O tikanlı məftillər vətən sevgisini könüllərdən silib apara bilərdimi? Belə hüznlü vaxtlarında Elçin az qala küçəyə çıxıb qışqırmaq, haray salmaq istəyirdi. Həqiqəti insanlara çatdırmaq həvəsi qəlbinə hakim kəsilirdi. Lakin yenə də sonda dəmir qadağalar onu sustaldır, yerində oturmağa, dinməməyə məcbur edirdi. Belə məsələləri daha yoldaşları ilə də müzakirə eləməyi xoşlamırdı. Ən məhrəm bildiyi, ürək qızdırdığı ürəyindəki ikinci məni idi. Ən mübhəm məsələləri də o ikinci məni ilə müzakirə edirdi.

"-Bu ayrılıq hardan gəldi?

-Bilmirsənmi?

-Azdan-çoxdan bilirəm.

-Onda danışma. Ayrılıq salanlar güclüdürlər.

-Bəs sonu olacaqmı bu ayrılığın?

-Bütün ayrılıqların bir sonu olur.

-Bu ayrılığın sonu çatanda, biz bir-birimizi anlaya biləcəyikmi?

-Qan yaddaşı yardımçı olacaq."

Tarix kitablarında yazılanların çoxu ilə razılaşmırdı Elçin. Bu yazılanlarda qatmaqarışıqlıq, ağa qara, qaraya ağ

deyilmələr çox idi. İti məntiqlə düşünəndə bu yalan-palanlar görünürdü. Və o yalanların çoxunda zərbə yenə bizə dəyirdi.

...Bu gün müəllim nədənsə dərsə gəlməmişdi. Direktor onu yanına çağırdı. Dedi, eşitmişəm, sən hələ birinci sinifdə sinif yoldaşlarına dərs demisən? Bu günkü dərsi apara bilərsənmi? Elçin başını aşağı saldı... Bir azdan onu həmin sinifə dərs deməyə göndərdilər.

Yadına gəlirdi. Doğrudan da birinci sinifdə oxuyanda, sinif yoldaşlarına dərs demişdi. Sinif müəllimləri Həmid müəllim xəstələndiyindən məktəbə gələ bilməmişdi. Dərs hissə müdiri Rəfiqə müəllimə onu müəllim kimi sinifə yolladı...

Sonralar Rəfiqə müəllim bu mövzuya qayıdacaqdı. Deyəcəkdi, ay Elçin, onda sizin sinifinizə dərs deməyə başqa müəllim göndərə bilərdik. Amma mən səni göndərdim. Çünki artıq sən məktəbə gələndə birinci sinifin proqramını bilirdin. İndidən mən səni bir müəllim kimi sınaqdan çıxarmaq istəyirdim.

Dərsi pis aparmadı Elçin. Uşaqlar da onu yoldaşları bilib, lağa qoymadılar.

Yuxarı sinifdə dediyi dərs də onun üçün çətin keçməmişdi. Sanki bu işin səmtini bilirdi artıq. Ancaq o, çox arzulayırdı ki, belə dərslərdə öz əlavələrini də edə bilsin. Amma çəkinirdi. Bilirdi ki, proqramdan kənara çıxmaq bu dövlətdə inqilab eləməyə bərabər bir iş idi. Və o, bu inqilabı təkbaşına edə bilməzdi. Belə müəllimlər haqqında eşitmişdi. Onların aqibətindən də xəbərdardı. Ona görə proqramdan kənar uşaqlara bir söz demirdi. Amma öz ürəyində hər kitabda yazılana əlavələrini edib, sonra tək-tənha qalanda bu əlavələrlə əlləşirdi.

Zaman su kimi axıb gedirdi. Heç özləri də hiss eləmədən bığ yerləri tərləmişdi. Küncdə-bucaqda, gizlin bir yerdə



üzlərini təraş edən uşaqların sayı günü-gündən çoxalırdı. Qəribəsi orasındaydı ki, üzlərini təraş eləmələrini öz sinif yoldaşlarından da gizli saxlamağa çalışırdılar. Sinif yoldaşları olan qızlar da artıq qızlar bulağından su içirdilər. Həftədən-həftəyə, aydan-aya gözəlləşir, qəşəngləşir, dəyişirdilər. Daha o qızlar deyildilər. O qızlar ki, bir-iki il bundan əvvəl oğlanları bezdirir, onları dağa, divara dırmaşdırır, dil boğaza qoymadan danışır, dərs vaxtı da oğlanların fikrini dağıdırdılar.

Ayrılıq vaxtı çatanda üzlərindəki qəm haləsini üzaqdan sezmək olurdu. Yazın tez bitməsini, məktəbin qurtarmasını istəmirdilər sanki. Heç səkkiz illiyi bitirəndə səkkiz illik yoldaşlıqdan ayrılığın həyacanı bu qədər olmamışdı. Görünür, yaşın müəyyən həddində insanların bir-birinə bağlanma telləri daha güclü və möhkəm olur.

Amma yaz bitdi. On illik təhsil başa çatdı. Ayrılıq anları yetişdi. Yenə vida mərasimi, yenə müəllimlərin xoş sözləri, qızların göz yaşları... Yenə ən çox Elçindən danışdılar. Hər müəllim çıxışının bir bəndini Elçinə həsr edirdi. Ona məktəbə baş ucalığı gətirdiyi üçün minnətdarlıq edir, xoş arzularını çatdırır, gələcək həyatında ondan böyük uğurlar gözlədiklərini gizlətmirdilər. Bu anlarda Elçinin ürəyi quş ürəyi kimi çırpınırdı. Ayrılıq havası bir yana, müəllimlərin onun üzərinə qoyduqları məsuliyyət hissi, bir yandan da ata-anasının ümid dolu baxışları onu həyəcanlandırırdı.

On illik təhsili bitirmək işin hələ çox cüzi bir hissəsi idi. Hər şey bundan sonra başlanırdı. On illiyi müvafiq qiymətlərlə bitirib, sonra heç nəyə nail olmayan adamlar haqqında çox eşitmişdi. Hətta ali məktəbi əla qiymətlərlə bitirən adamlar vardı ki, sonda heç nəyə nail olmamış, tamam başqa bir işin qulpundan tutub yaşamağa məcbur olmuşdular. Yaşının az olmasına baxmayaraq, Elçin bunları

bilirdi. Bilirdi ki, savadlı, kəlləli olmaq heç də işin hamısı deyil. Bu savada, bu biliyə zəhmətin ətri qatılmasa çox işlər yarımçıq qala bilərdi. Bəzən filosoflar zəhmətin hər bir işdə öndə olduğunu vurğulayırdılar. Hətta bəzi filosoflar müvəffəqiyyət qazanmağın formulasını cızanda on faiz savadın müqabilində doxsan faizi zəhmətə verirdilər. Bu bir qədər mübahisəli fikir olsa da, həqiqətə oxşar şeylər də tapmaq olardı. Axı beynin bilgisayar olsa belə, zəhmət çəkib, tər axıtmağa təpərin yoxsa, uğur qazanmaq imkanların sıfır həddinə enəcək. Ərdəmli olmaq, zəhmətə qatlaşmaq, bir qara fəhlə kimi çalışmaq gələcək işıqlı həyatının əsas qayəsidir.

Bunları bilirdi Elçin. Buna görə öz çıxışında həyəcanını çətinliklə boğub, müəllimlərə (elə ata-anasına da) söz verdi. Dedi, gecə-gündüz çalışacağam, oxuyacağam, elmin sirlərinə vaqif olacağam. Sizlərin, yurdumun, elimin, vətənimin adını ucaltmaq üçün bütün gücümü, qüvvəmi səfərbər edəcəyəm. Sonda lap kövrələ-kövrələ " Elə edəcəyəm ki, mənə görə nə siz müəllimlərim, nə sinif yoldaşlarım, nə də valideynlərim utanclıq hissləri keçirməyəsiniz"-deyərək, tribunanı tərk elədi.

Alqışlardan qulaq tutulurdu. O alqışlar bir xoş Tanrı küləyi kimi onu götürüb uzaqlara, lap uzaqlara aparacaqdı. O yolun başlanğıcındaydı hələ. Müəllimlərin ona fərəhlə təqdim etdikləri qızıl medal isə bir parlaq şölə kimi onun ömür yoluna nur çiləyəcəkdi...



## TƏLƏBƏLİK İLLƏRİ VƏ YAXUD İSGƏNDƏROV DÜSTURU

Bu da yeni məkan...

Yeni dövrün başlanğıcı...

Yeni şəhər, yeni adamlar...

Sanki bir başqa planetə düşmüşdü. Əvvəl ona elə gəlirdi ki, bu şəhərə öyrənmək onun üçün çətin olacaq. Yuvasını itirmiş quş kimi çırpınır, hara gedəcəyini, hardan gələcəyini, harda dayanacağını bilmirdi. Amma... Bu Bakıdı. Onun maqnit kimi adamları özünə çəkən gücü var. O maqnit Elçini də bu şəhərə çəkdi, bağladı, qopmağa qoymadı. İlk vaxtlar ona çox balaca, darısqal, yöndəmsiz görünən tələbə yataqxanası indi elə böyük, əzəmətli görünürdü ki. Lap şah sarayı kimi. Bir də axı başı qarışıq idi, oturub nələrisə müqayisə eləməyə, nəyin yaxşı, nəyin pis olduğunu arayıb axtarmağa vaxtı-məqamı da yox idi.

Azərbaycan Politexnik İnstitutunun Mexanika fakultəsinə daxil olmuşdu. Bu elə bir sahə idi ki, bir an oxumasını zəiflətsə, xırda bir tənbəllik azarına yoluxsa, gecikə bilər, çıxdığı uzun və çətin yoldan aralı düşə bilərdi. Onun üçün gündüzünü gecəsinə qatmalıydı. Kitablarla yatıb, kitablarla qalxmalıydı. Yaxşı ki, bu ötən illər sevgili deyilən kitaba yar olmağı bacarmışdı. Elə bir gün olmurdu ki, dərslərindən savayı iki-üç kitaba sığal çəkib, boyunu oxşamasın. Hansı yöndə olursa-olsun-iqtisadiyyatdan bəhs

eləsin, ya tarixdən, ya ədəbiyyatdan, onun üçün kitab olsun. Anlayırdı, bilirdi ki, hər kitabda həyatın bir həqiqəti gizlənir. O kitab səni tam qane etməsə belə...

Elə ona görə də uğurları çox erkən başlandı. Elə birinci kursda oxuyanda Azərbaycan Ali Məktəb tələbələrinin Ümumrespublika Elmi Konfransında birinci dərəcəli diploma layiq görüldü. Və bu diplomu ali məktəbi bitirənə qədər hər il təkrar-təkrar qazandı.

1982-ci ildə Rusiyanın Omsk şəhərində keçirilən Ali riyaziyyat fənni üzrə Ümumittifaq olimpadasının diplomunu aldı.

1983-cü ildə M. Bauman adına Moskva Ali Texniki Məktəbində keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomuna layiq görüldü.

1984-cü ildə "Ən yaxşı tələbə elmi işi üçün" medalı ilə təltif olundu.

1985-ci ildə A. Sneckaus adına Vilnüs Politexnki İnstitutunda keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomantı oldu və elmi əsəri kitabda çap edildi.

Elə həmin il Tallin Politexnik İnstitututunda keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomunu aldı və yenə də elmi əsəri kitabda çap olundu.

1986-ci ildə Moskva şəhərində Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin Qızıl medalina layiq görüldü.

Elə həmin il ilk elmi ixtirası Bakı Məişət Kondisionerləri zavodunda istehsalata tətbiq olundu və bu ixtira sayəsində dövlətə 1.2 milyon manat dəyərində iqtisadi səmərə verdi.

Lakin bütün bu nailiyyətlər, uğurlar onun üçün hələ qənaətbəxş deyildi. Çünki onun lap tələbə olduğu vaxtlardan fikrində-zikrində dolanan bir ideya arzularının fövqündə



dayanırdı və o, bu arzusuna çatmaq üçün bütün gücünü, qüvvəsini səfərbər edirdi.

Tələbəliyinin ilk çağlarında oxuyub öyrənmişdi ki, Vereşaqin adında alim tələbə olarkən düstur kəşf edib. Elə o vaxtlardan bir arzu, bir istək onu rahat buraxmırdı; Vereşaqin kimi tələbəykən bir düstur, bir üsul kəşf etmək...

Aylar, fəsillər sürətlə ötüb keçirdi. Amma o, düsturunu hazırlayıb başa çatdıra bilmirdi. Vereşaqin yaşının tamam olmasını çox üzüntülü qarşılamışdı. Heç kəsə bildirməsə də, özü bu üzüntünün səbəbini aydınca bilirdi... Az müddətdə əli-qolu soyusa da, özünü ələ almağı bacardı. Bəlkə də, bir yetənəkli gənc kimi daxildə özünə təskinlik verdi, ikinci məninə dedi ki, mənim yaradacağım düstur onun düsturundan daha önəmli, daha səmərəli olacaq. Kəşf də sevgi kimi yaşa baxmır. Hansı yaşda bu kəşfi yaradırsan yarat, təki o kəşfin dünyamıza, insanlara fayda gətirsin. Bu inamla çalışaraq iyirmi bir yaşında mexanızmlərin sərbəstlik dərəcəsinin təyini üçün "İsgəndərov düsturu" nu tətbiq elədi və bu tətbiq çox böyük səmərə verdi.

Bütün institut İsgəndərovdan danışırdı. Tələbələr ona həsədlə baxırdılar. Paxıllığını çəkənlər də çox idi. Ən çox da oğlanlar. Görəndə ki, bu əl boyda "alim" qızların maraq dairəsindədir, tələbə oğlanlar ona paxıllıq edirdilər. Necə də etməyəydilər; bəziləri onun qədər oxusalar da, kitabxanalarda oturmaqdan köhnə kitab qoxusu versələr də, onun etdiklərini edə bilmir, qazandığını qazanmırdılar. Təbii ki, bu qazanmaq maddiyyatdan getmirdi. O, da kasıb bir tələbə ömrü yaşayırdı. Amma bu tərəfdən də, onun üstünlükləri var idi. Lenin təqaüdü aldığına görə qazancı o biri tələbələrdən xeyli çox idi. Ancaq o biri tələbələrdən maddi cəhətcə çox fərqlənmirdi. Çünki aldığı təqaüdün üçdə ikisini kitablar almağa sərf edirdi. Axtarıb, arayıb ən yeni

kitabları əldə edirdi. Adı çıxmış bir kitabı özününkü eləməmiş, rahatlıq tapa bilmirdi. Tələbə qızların göz obyektindən aralı düşə bilməməyinin bir səbəbi də elə bu idi. Bu gənc, çəlimsiz oğlanı institutun bir nömrəli tələbəsi kimi qəbul edirdilər. Hansı qız istəməzdi ki, belə bir tələbənin maraq dairəsinə düşsün?.. Elçin isə bütün bunlardan xəbərsiz kimi öz işindəydi. Oxuyur, yeni-yeni kitablar axtarıb tapır, vaxt tapan kimi kitabxanalara baş vurur, ara-sıra fələkdən məqam oğurlayıb kəndlərinə, doğmalarına baş çəkməyə gedirdi.

Elə bil, Əhmədavar da indi onu bir başqa gözlə qarşılayırdı. Sanki kənd öz "qollarını" açıb, onu qucaqlamaq, bağrına basmaq istəyirdi.

Kənd də canlı insan kimidi. Onun da ürəyi var. Onun da gözləri var. Onun da düşünən beyni var və o düşünən beyin heç bir zaman səhv eləmir. Yaxşı övladı ilə pis övladını bir-birindən ayıra bilir. Amma ən qəribəsi bu deyildi. Ən qəribəsi o idi ki, yaxşısı kimi pisinə də kənd öz qucağında yer verməyi bacarırdı. Müqəddəs ana kimi.

Kəndə gələndə bütün qohum-qonşular onun başına yığılardılar. Hər kəs ən urvatlı bildiyi bir şeyi Elçin üçün gətirərdi. İstəyərdilər Elçin bu urvatlı nemətdən dadsın. Və bəlkə də bunun gizli kodu o idi ki, Elçin kəndin havasını, suyunu, duzunu, çörəyini unutmasın. Bu yerlərə tez-tez gəlsin. Gəlib də tay-tuşlarını başına toplasın. Onlara elmdən danışsın. Gözü bağlı olanların bir az da olsa gözünü açsın. Qaranlıq çökən qəlblərə işıq şöləsi çiləsin. Axı bu qaranlıqlar bizləri əbədi zülmətə sürükləyə bilərdi. Bu qorxunu ağıllı, zəkalı adamlar yaxşı dərk edirdilər. Və bundan çox qorxurdular. Oxunmamış, elmsiz, təhsilsiz gələcəyin zülmətindən qorxurdular. Əslində belə gələcəkdən Elçinin özü də qorxurdu. Böyük şairin dediy "Əcnəbi seyrə



balonlarla çıxır, biz hələ avtomobil minməyiriz" dilemması qarşısında dayanan gənc oğlan belə vaxtlarında Mirzə Cəlili, Mirzə Ələkbər Sabiri, Üzeyir Hacıbəyovu və başqa dahiləri, onların yazdıqlarını xatırlayıb, dərin xəyallara qərq olurdu.

Hələ lap gənc yaşlarından bir fikir ona rahatlıq vermirdi; nəyə görə bütün unikal kəşfləri qeyri-müsəlman xalqlarının nümayəndələri edirdilər? Nə olmuşdu bu müsəlman deyilən zümrəyə? Axı vaxtı ilə şərq xalqları dünyaya böyük dühalar bəxş etmişdilər. Qərb öz ağıl mayasını şərqdən götürmüşdü. İndi nə olmuşdu bəs? Niyə belə dərin uyquya dalmışdılar müsəlmanlar? Bu dəruni yuxunun sonunda nə gözləyirdi müsəlmanı? Bəlkə dini qavramada yanlışlıqlar şərqi bu günə saldı? Ya bəlkə xüsusi ustalıqla qurulmuş tora saldılar bu zavallı zümrəni?

Bu suallar onun rahatlığını əlindən alır, düşüncəsini zəbt edir, bunun düsturunu tapmaq üçün hələ çox da bərkiməmiş beynini səfərbərliyə alırdı.

Kənd cavanları ona diqqətlə qulaq asırdılar. Hər sözünə xüsusi məna verirdilər. Onun məntiqli, qavramlı danışığından nəyisə, nələrisə əxz edir, qafalarında saxlayır, yeri gələndə ondan öyrəndiklərini başqalarına danışırdılar. Nurani qocalar belə ona heyranlıqla qulaq asırdılar.

Bir sözlə, Elçinin bir gün, gün yarım, uzağı iki gün kənddə olduğu müddətdə həm evlərində, həm də onun dolandığı çevrədə qələbəlik olurdu. Az yaşında bu hörməti, özünə qarşı bu ehtiramı necə yaratmışdı, burası çox maraqlı və düşündürücü idi.

Əhmədavarda olduğu bu qısa sürədə o, mütləq vaxt tapıb Şuşaya da baş çəkməliydi. Bu elə bil, onun üçün yazılmamış bir qanun idi. Sanki Şuşaya dəyməmiş Bakıya qayıtsaydı, hardasa bir günah işlətmiş kimi olardı.

*Xəzərdən qanadlanıb*
*atını göy qurşağına çap.*
*Bakıda didərgindi*
*Şuşalı göy qurşağı.*
*Gözləri Şuşaya sarı*
*tumurcuqlayan oğlan!*

Şuşada ilk uşaqlıq çağlarını yaşasa da, nədənsə özünü bu yurdun övladı sanırdı. Əslində vətənin hər bir qarışı onun üçün doğma və əziz idi. Ancaq Şuşada özünə qarşı qəribə bir məhrəmlik duyğuları hiss edirdi. Elə bil, bu yurdun hər daşı, hər qayası, suyu, çiçəyi, ağacı, göy qurşağı, buludu, yağışı da onun üçün bir başqa anlam daşıyırdı. Və bu anlamın hardan, nədən qaynaqlandığını heç özü də bilmirdi.

Burada olduğu üç-dörd saat ərzində hər nə görürdüsə, gözlərinin bəbəyinə yığmaq istəyirdi. Beyninin yaddaş koduna həkk eləməyə çalışırdı.

Bir haşiyə:

Zaman keçib, vaxt ötəndən Şuşasız günlərə düşəndən sonra beyninə həkk elədiyi o xatirələrin onun üçün çox faydası oldu. Ən azı tamam Şuşasız qalmadı. Xatirələrində qalmış cığırın izi ilə tez-tez oralara getdi, gəzdi, dolandı, daşa, torpağa sığal çəkdi, qayıdıb yenə Şuşanın solğun, küskün şəkilləri ilə üzbəüz qaldı...

Şuşadan qayıdıb gələndən sonra məqam tapıb qələminə güc verirdi. Üçüncü sinifdə oxuyandan həm də poetik aləmin sirli-sehrli cazibəsinə düşmüşdü axı. Şeirlər yazırdı. Bu barədə bir az sonra... Hələliksə, Şuşalı, Ağdamlı yolların işığında yol gedirdi. Qayıdıb yenə Bakıya gəlirdi. Üç gün ötməmiş yenə o yerlər üçün darıxırdı. Amma özünü tuturdu, saxlayırdı. Lap tez-tez gedib gəlmək istəmirdi. Axı o, Bakıya vacib bir missiya arxasınca gəlmişdi. Oxumaq, öyrənmək, nələrsə qazanmaq, nələrəsə nail olmaq, bir sözlə, özünü



tapmaq missiyasının arxasınca. Ona görə bir fikri o yerlərdə olsa da, başqa, ən vacib xəyalı oxumasının yanındaydı. Fikri, düşüncəsi dağılsaydı o zəhmli, tələbkar müəllimlərdən-professorlar Nadir Qasımzadədən, Niftulla Qədirovdan, Salman Qarayevdən əla qiymətlər ala bilərdimi? Xüsusilə, Salman müəllimdən beş almaq tələbələrin ən böyük arzusuydu. O, isə alırdı, ala bilirdi. Öz zəhmətinin, əziyyətinin, yuxusuz gecələrinin barını dərirdi. Uşaqlar Salman müəllimdən dad qılanda, o, gülümsəyirdi, deyirdi, vallah, Salman müəllim mənim nə qohumum, nə tanışım deyil. Sadəcə, oxuyub, əziyyət çəkib, qiymət alıram. Siz də zəhmət çəkin, oxuyun, qiymət alın. Elə bilirsiniz mənim könlümdən keçmir kinoya, teatra getmək? Keçir, özü də necə. Bir dəfə dram teatrda tamaşaya baxmağı dünyaya dəyişmərəm. Ancaq dərslər imkan vermir. Bu semestrin havası getməmiş o biri semestrin vaxtı yetişir.

Uşaqlar onun bu sözlərinin qarşısında bir söz deyə bilmir, daha Salman müəllimin arxasınca danışmaqdan da əl çəkirdilər.

Amma göyərçinin dimdiyində də olsa, idmanla məşğul olmağa vaxt tapırdı. Gündə bir saat, uzağı iki saat. İnstitutun idman zalında həm güləş, həm də ağırlıq qaldırma növləri ilə məşğul olurdu. Bu növlərdə qırx səkkiz kiloqram çəki dərəcəsində onun qolunu bükən tapılmırdı. Hərdən yoldaşları zarafat edirdilər, deyirdilər, yaxşı, beynin var oxumaqda bizi üstələyirsən, bəs bu güc səndə hardandır? Belə olanda Elçin yoldaşlarını başına yığıb, onlara babasından danışırdı...

# ƏHƏD BABANIN MƏRDLİYİ

Yoldaşlarına deyirdi, qohumlarım, babamı tanıyanların hamısı məni Əhəd babama bənzədirdilər. Atamın atası Əhəd babama.

Əhəd babam çox mərd kişi idi. Nəinki öz rayonlarında, ətraf bölgələrin hamısında qoçaqlığı, mərdliyi ilə ad qazanmışdı. Yaşlı adamlar danışırdılar onun mərdliyindən. Deyirdilər, onun qolunun gücü qarşısında dayanan az olardı. Hələ o qanlı çağlarda, erməni davası olan vaxtda onun igidliyini görmüşdülər. Elə bir döyüş olmazdı ki, Əhəd o döyüşdən erməni öldürməmiş qayıtsın. Ermənilər də onun şücaətindən xəbər tutmuşdular. Onu öldürmək, aradan götürmək üçün planlar cızır, lakin onu qurduqları pusquya sala bilmirdilər. Bir ağır döyüşdə kişini ağır yaralayırlar. Elə mövqedə imişlər ki, oradan çıxmaq, öz tərəflərinə qaçmaq da mümkün deyildi. Belə vaxtda qanının qurtaracağını görən Əhəd kişi belinin kəməri ilə yarasını bağlayır. Bir gün ərzində beləcə yaralı halda dağda-daşda ermənilərin gözündən yayınır. Evlərinə gəlib yetişəndə qanının azaldığından danışmağa da taqəti olmur. Özünü qaydaya salıb, yenə düşmənin üzərinə yürüyür. Yaralı aslan kimi bu dəfə bir neçə ermənini təkbaşına məhv edir...

Babası olduğuna görə belə danışmırdı Elçin. Həqiqətən Əhəd kişi öz igidliyi, mərdliyi ilə ad qazanmışdı. Çətin məqamlarda adamlar onun yanına gələrdilər. Ondan bir yol,



məsləhət alardılar. Əhəd kişi də aram-aram gələnləri dinləyər, çıxış yolunu onlara deyərdi.

Keçən əsrin əvvəllərində ermənilər yenə də öz havadarlarının diktəsi ilə türklərə qənim kəsilmişdilər. Bu iki millətin düşmənçiliyi çox qədim zamanlara gedib çıxırdı. Baxmayaraq ki, Tanrının bir çətirinin altında yaşayırdılar, bir havanı udurdular, bir yeməyi yeyir, bir musiqiyə köklənirdilər, hətta, qohum, kirvə olurdular, amma məqam düşən kimi hay deyilən ermənilər bütün bu münasibətləri, türklərin onlara etdikləri yaxşılıqları unudub, arxadan zərbə vururdular. Babək zamanından belə olmuşdu. Hələ ondan da qabaq.

Burada yenə bir haşiyə:

Şah İsmayıl Xətainin zamanında İrəvan hökmdarı Rəvan xan Şah İsmayıla məktub yollayır. Məktubda o, təlaşla bildirir ki, hansı qüvvələrsə erməniləri iki-iki, üç-üç bizim mahalın kəndlərində məskunlaşdırırlar. Bunun qarşısı alınmasa, gələcəkdə bizim üçün çox çətinliklər olacaq. Çünki onlar hər zaman məskunlaşdıqları yerlərdə bir az çoxalan kimi faciələr törədiblər, yerli əhalinin isti aşına soyuq su qatıblar.

Sonra Rəvan xan Şah İsmayıldan onları buralardan qovmaq üçün izn istəyir. Lakin yazılı mənbələrdə bilinmir, bilinmir ki, Şah İsmayıl Xətai Rəvan xanın məktubuna hansı münasibət bildirib.

Deməli, bu millət lap qədim zamanlardan başqa millətlər üçün baş ağrısı olublar.

Bunlardan danışırdı Əhəd kişi. Camaata ayıq-sayıq olmağı tapşırırdı. Deyirdi, evinizdə çörək yeyən erməni kirvələrinizə də inanmayın. Ona görə ki, məqam düşən kimi çörək yedikləri qaba tüpürə, xəyanət edə bilərlər.

1915-1918-ci il hadisələrində döyüşlərin ən qaynar nöqtəsində olmuşdu bu kişi. Ona görə həqiqəti yaxşı bilirdi. Sonralar ermənilərin uydurduqları yalanlara da inanmırdı. O yalanlara ki, güya türklər məzlum erməniləri öldürmüş, onların kökünü kəsməyə çalışmışdılar...

Bir ucu Türkiyənin şərqindən, ta Naxçıvan, Zəngəzur, Qarabağa qədər çox faciələr törətmişdilər bu ermənilər. Qarşılarına keçən qocanı, uşağı öldürür, qadınları zorlayır, hamilə qadınların qarnına süngü soxur və bütün bu elədikləri vəhşiliklərdən ləzzət alır, şənlənirdilər.

Canlı bir kitabə kimi çox işlərdən, iştəklərdən xəbərdar idi Əhəd kişi. Ali təhsil almamışdı. Ancaq oxuyanlardan çox bilirdi. Dünyanın gəlindən-gedindən, əməllərindən xəbəri vardı. Böyük Sovetlər Birliyi deyilən öz ölkəsini üzdə, görüntüdə sevsə də, daxilən bu dövlətin gələcəyinə inanmırdı. Hələ bir-iki dəfə lap məhrəm bildiyi adamların qulağına da pıçıldamışdı, demişdi, qan üzərində qurulan dövlətin axırı yaxşı olmaz.

Finlandiya müharibəsi başlayanda artıq əsgər çəkmələrini hazırlamağa başlamışdı. Bilmişdi ki, dünyanın bu təlatümlü çağında cahan savaşının başlamasına az qalıb.

Müharibə başlayandan bir az sonra onu hərbi komisarlığa çağırıb, davaya göndərmişdilər. O yerlərdən, odun-alovun içərisindən vaxt tapıb ailəsinə məktublar yollayırdı. Sonra o məktubların ardı kəsildi. Və daha sonra poçtalyon onun qara kağızını gətirdi.

Bitdi Əhəd kişinin ömrü. Amma deyirlər, biri öləndə mütləq onun yerinə bir başqası doğulur. Elçinin dünyaya gəlməsinə hələ xeyli illər qalırdı. Bu illər ərzində dünyada Əhəd kişinin oxşarı yarandı, yaranmadı, orasını bilmədilər. Ancaq 1964-cü ildə yeni doğulan uşaq, deyilənə görə, onun



tam oxşarı idi. Həm boy-buxunca, həm sifətcə, həm də əməllərin eyniliyi ilə...

Bunları tələbə yoldaşlarına danışanda, daxilən bir qürur hissi keçirirdi Elçin. O anlarda Əhəd baba düz gəlib gözlərinin önündə dayanırdı. Həyatda görmədiyi, səsini eşitmədiyi Əhəd baba... Elə bil, onun səsini də eşidirdi. O məğrur səs Elçinə öyüd-nəsihət verir, sabahın yollarını göstərirdi. Və babasını görmədiyinə görə müharibə salanlara, insanları isti evindən soyuq səngərlərə, sonra da ölümə aparan tiranlara nifrətini bildirir, onları xoş olmayan sözlərlə yad edirdi.

Çox qəribə idi, Elçin hər dəfə atasına, anasına hesabat verəndə bir də məqam tapıb babasının ruhuna hesabat verməyi lazım bilirdi.

“-Bu gün əla aldım, baba.

-Əhsən, oğul balam...

-Bu gün də beş aldım.

-Oy, nə yaxşı, əhsən sənə, oğlum...

-Bu gün Moskvaya gedirəm.

-Nəyə gedirsən?

-Tələbələrin konfransına.

-Eşq olsun sənə!..

-İnstitutu fərqlənmə diplomu ilə bitirdim.

-Sağ ol, oğlum, ruhumu şad elədin...”

Belə vaxtlarda babasının qəbri üstə getmək, onu yad eləmək, ruhuna dualar oxumaq həyatda ən böyük arzusu olurdu. Nə yazıqlar ki, o qəbir çox-çox uzaqlarda, bilinməyən, tanınmayan yerlərdə idi. Ancaq yenə də xəyalən babasının döyüşdüyü yerlərə gedir, oralarda bir “qardaşlıq qəbristanlığı” tapıb, babasını yad eləməklə özünə təskinlik verirdi.

Elçin xəyallar qatarının sərnişini olan vaxtı çox şeylər haqqında düşünürdü. Olanları, keçənləri, ötənləri... Bir də onu düşünürdü, düşünürdü görəsən, o, Əhəd babasını görsəydi, indidən çoxmu fərqlənən bir insan olacaqdı? Bəlkə uşaq çağlarında babası ona qəribə nağıllar danışacaqdı?! Elə nağıllar ki, o nağılların ətəyindən tutub, lap uzaqlara gedəcəkdi? Elə uzaqlara ki, o uzaqlardan vətən daha aydın görünəcəkdi. Və o uzaqdan daha aydın görünən vətənə bundan da yararlı övlad olacaqdı!..

Elçinin qoçaqlığını, zəhmətsevərliyini də babasına bənzədirdilər. Müharibə Əhəd kişinin ömrünə son qoymasaydı, bəlkə də o, özünün bənzəri, ciyərparası Elçin üçün öyünər, fəxrlə ona baxıb, sinədolusu "ot kökü üstə bitər"- deyərdi. Yaşasaydı, bəlkəsiz belə olacaqdı. Çünki Elçin yuxularında hər zaman babasının onunla öyündüyünü görmüşdü.



## POETİK DÜNYANIN İŞIĞI

Öndə qeyd olunduğu kimi, Elçinin poetik dünya ilə ilk tanışlığı çox erkən başlamışdı. İlk sevgisindən, dünyanı tanımasından da əvvəl... Onda hələ Elçin dünyanı başqa rəngdə görürdü. Cahan gözündə yeddi rəngli, min ahəngli çalarsız gözəlliyi ilə onun ruhunu oxşayırdı. Hələ qəmdən, kədərdən, dünyanın gəlişindən, gedişindən, kinindən, küdurətindən, məkrindən, hiyləsindən, yalanından, şərindən, böhtan və iyrənc işlərindən xəbərsiz bir uşaq ömrü yaşayırdı. Elə bu gördüyü gözəlliklər bu erkən çağında onu əlinə qələm götürməyə, bacardığı formada dünyanı poetik rənglərlə bəzəməyə vadar eləmişdi. İlk şerini bir müəlliməsinə həsr eləmişdi. Buna şeir demək olardı, ya olmazdı – orasını hələ bilmirdi. Yazdığını bir kimsəyə göstərməyə də cəsarəti çatmırdı. Qorxurdu birdən onun yazdığını bəyənməzlər, gülüb, lağa qoyarlar. Axı uşaq olsa da, elə uşaq fəhmi ilə dərk edirdi ki, Azərbaycan deyilən məmləkətdə şeir yazmaq asan məsələ deyil. Axı bu torpağın dahi, böyük, şedevr şairləri olub. Elə şairləri ki, yazdıqları poetik nümunələrlə bütün dünyanı mat qoyublar. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, İmadəddin Nəsimi, Məhsəti Gəncəvi, Seyid Əzim Şirvani, Hüseyn Cavid, Səməd Vurğun... Bu dahilərin ruhu önündə özündə cəsarət tapıb əlinə qələm götürmək, şeir yazmaq heç də asan iş deyildi. Uşaq ağlı ilə bunu bilirdi Elçin. Ancaq yenə də qələm, dəftər

onu özünə sarı çəkir, rahat olmağa, ancaq dərsləri ilə məşğul olmağa imkan vermirdi.

O, da götürüb yazdı. Onda hələ on yaşı da tamam olmamışdı. Öz yazdıqlarından xoşu gəlirdi. Bir tənha yer tapır, yazdıqlarını ucadan oxuyur, özü-özünə əhsən deyirdi. Sirli, gizlin heç nə qalmır bu dünyada. Elçinin də bu gizlinindən xəbər tutdular. İlk öncə məktəbin ədəbiyyat müəllimi onun bu marağına, cəsarətinə heyran qaldı və düz onların evlərinə gəldi. Yaxşı ki, evdə Elçindən başqa heç kim yox idi. Ədəbiyyat müəlliminin sözlərindən Elçin həyəcanlandı. Müəllim onu dilə tutmağa çalışdı.

-Müəllim xəstələnəndə, dərsə gəlməyəndə bir müəllim kimi onu əvəz edirsən, özündən yekə uşaqlara dərs deyirsən, onda həyəcanlanmırsan, indi nə olub, yazdığını üzə çıxarmağa cəsarətin çatmır?

-Müəllim, bilirsən...

-Heç nə bilmirəm, gətir görüm nə yazmısan.

-Yaxşı gətirərəm.

Bu sözləri çox ürəklə dedi. Elə bil, daxilən özündə yaratmaq istədiyi cəsarətlə yazdıqlarının işə yarayacağını sübut etməyə çalışdı.

Gətirdi də. Müəllim baxdı.Onu xoş bir baxışla süzüb, xırda-xırda gülümsədi. Müəllimin o xırda gülüşü Elçinin sinəsinə yağ kimi yayıldı. Deyirlər, bəzən böyük kəşflər xırda təsadüflərdən yaranır. Bəlkə o ədəbiyyat müəlliminin xırda gülüşü və xoş sözləri olmasaydı, Elçin bədii yaradıcılıq qələmini elə o gündən sındırıb, bir küncə atacaqdı. Müəllimin ona ruh verməsi, bəlkə də, onun ədəbiyyata açılan qapısını taybatay araladı. Düzdür, Elçin uşaqlıqdan texnika elmlərinə daha çox maraq göstərirdi. Texnika sahəsində kəşflər edən alimlərin həyatını izləyir, onlar haqqında yazılanları oxuyur, onlardan biri olmağı həyatının ən böyük



amalı sayırdı. Ən çox da görkəmli rus alimi Lomonosova maraq göstərirdi. Hansı sahənin bilicisi olduğunu dəqiq bilməsə də, nəyə görəsə ona daxilən həsəd aparır, bəzən onun paxıllığını da çəkirdi. İstəyirdi gələcəkdə Lomonosov qədər tanınmış alim olsun. Hələ ondan da irəli getsin. Bəzən yuxularında Lomonosovu görürdü. Yuxuda Lomonosov ona baxıb gülümsəyirdi. Yuxudan ayılandan sonra ürəyi quş ürəyi kimi çırpınır, Lomonosovon gülümsəməyinin mənasını tapmağa çalışırdı. Bəlkə Lomonosov onu lağa qoyurdu? Bəlkə bu gülümsəməyi ilə deyirdi, bala, get öz işinlə məşğul ol. Sizin millətdən Lomonosov çıxmaz. Öz ədibinizin də dediyi kimi, sizin işiniz başqadır: xoruz döyüşdürmək, hamamda yatmaq, cadu yazdırmaq, cinlə, şeytanla əlləşmək... Bunları düşündükcə daha da qeyzlənirdi Elçin. Yenə yatmaq, yenə də yuxuda Lomonosovu görmək, ona sözlərini demək istəyirdi. Yuxuda Lomonosova cavab vermək imkanı olsaydı, görəsən ona nə deyəcəkdi? Yəqin ki, Lomonosovun ruhuna onu gələcəkdə izləməyi, necə bir alim olacağını görməyi xahiş edəcəkdi...

Məqam tapdıqca yazırdı. Təbiətdən, torpaqdan, yurddan, adamlardan... Amma bacardıqca bu yazdıqlarını gizli saxlamağa çalışırdı. Axı onun əsas amalı şeir yazmaq deyildi. Özünü hamıya, elə Lomonosovun ruhuna da sübut eləmək üçün başqa sahədə tanınmış adam olmaq istəyirdi.

Yenə bir sözardı:

Ali məktəbi bitirəndə diplom işi yazırdılar. O vaxtkı dövlətin qanunları başqaydı. Əgər ali məktəbi bitirən tələbə yaxşı diplom işi yazırdısa, bu ali məktəbin elmi şurası tərəfindən dissertasiya mövzusu kimi qəbul edilə bilərdi. Belədə artıq ali məktəbi bitirən məzun qısa müddət ərzində elmlər namizədi alimlik dərəcəsi ala bilərdi. Onun da diplom işi çox maraqla qarşılanmışdı. Hətta bu iş institutun elmi

şurasının müzakirəsinə də çıxarılmış və müsbət rəy almışdı. Lakin təəssüflər ki, o zamanlar özümüz-özümüzü idarə etmək, öz müsbət işlərimizə dəyər vermək iqtidarında deyildik. Çünki başımızın üstündə Moskva, rəy verənlərimiz ruslar idi. Onlar isə ya pənah, ya xuda, istədiklərini edirdilər. Hətta çox vaxt bir zəif erməni elmi işini çox güclü azərbaycanlı (əslində türk) elmi işindən daha üstün tuturdular. Ona görə ki, bu erməni idi, xristian idi. Və onları özlərininki bilib, daha müsbət rəylə cəmiyyətə sırıyırdılar.

Elçinin də işi Moskvaya qədər gedib çıxdı. Elçin xoş xəyallara düşdü. Vereşaqin yaşında düstur icad edə bilməsə də, Lomonosov yaşından əvvəl alim olmaq istəyindən vəcdə gəldi.

Amma...

Əmması o oldu ki, Moskva yenə göz yaşlarına inanmadı. Əgər Elçin İsgəndərov erməni (Allah eləməmiş) və yaxud, bir başqa xristian ölkəsinin nümayəndəsi olsaydı, yüzə-yüz onun işi dissertasiya mövzusu kimi qəbul ediləcək və ona alimlik dərəcəsi veriləcəkdi...

Bu əngəllər onun erkən alim olmaq arzusunu da ürəyində qoydu...

Poetik aləmin kəhkəşanına baş vurduqca, sanki saflaşır, durulaşır, özünü tapır, keçmişlərdən gələcəyə körpülər tikirdi. O körpünün üzərindən keçən Allahın bəndələri məkr, hiylə bilmədən öz həmcinsinin, hətta, bütün canlı aləmin ağrısına acıyır, dərdinə yanır, yarasına məlhəm olmaq üçün adam balası adam olurdular. Onun hələ kövrək, bərkiməmiş şeirlərində bir dünya işıq olurdu. O işıqda baxıb gördüklərindən heyrətə gəlməyə bilmirsən. Quşun yaralı qanadı da sənin ürəyinin telindən keçir. Qırılmış budaq, əzilmiş yarpaq, bulanmış su, cadarlanmış torpaq şah damarından keçərək, səni sən eləyir.



Səni sən eləyir... Səni sən etməyən insan övladının bir-birinə qənim kəsilməyi, düşmən olması lap uşaq çağlarından Elçini düşündürür, balaca qəlbinə nahamar hisslər, duyğular gətirirdi. Böyüdükcə bu hissləri, duyğuları da böyüyürdü.

O vaxtlar məktəbdə oxuyanda "Zəncinin arzuları" poemasını keçirdilər. Və Elçin ruhən, xəyallən bir müddət dönüb o zəncinin yerində özünü hiss edirdi. Təkcə o zənci yox, məhrumiyyətlər içərisində ömür sürən insanların, xüsusən, cocuqların taleyi qəlbinə hakim kəsilir, insanları fəlakətlərdən qurtarmaq üçün özünün ağappaq nağıllarını yaradırdı. O nağıllarda sərhəd dirəkləri olmurdu. Dövlətlər bir-birindən aralı düşmür, xalqlar bir-birinə düşmən kəsilmirdilər. Adamlar müxtəlif dinlərə iman gətirmirdilər. Hər kəs bir Tanrının göy çətiri altına yığışıb, "insanlıq marşı"nı ifa edirdilər. Bütün adamlar bir dildə danışırdılar, bir əlifbada yazırdılar. Onda dünya elə gözəl idi ki... Masmavi gölləri, dənizləri, bəyaz buludları, qızıl qumlu sahilləri, rəngbərəng uca dağları, Tanrıya duaçı olan ağacları ilə cahan insanın gözündə cənnətin bir bucağına bənzəyirdi.

Elçin yazırdı. Niyə yazdığını hələ düz-əməlli bilməsə də, qələm-dəftər onsuz, o, da qələm-dəftərsiz qala bilmirdilər. Gündə heç olmasa bir sətir yazmayanda elə bil, nəyisə çatışmırdı. Gecənin yarısı da olsa, qalxıb sevimli dəftər-qələminə yanaşır, ürək sözlərini ağ kağıza deyəndən sonra gedib yatırdı.

Ancaq ağlının bir küncünə də gəlmirdi ki, vaxt gələcək sətir-sətir dərdləşdiyi yazılar kitablara dönəcək. Ağlına gəlmirdi ki, vaxt gələcək ona şair deyəcəklər...



Atası Barat müəllim



Anası Elmira xanım




Şuşa. İsa bulağı, 1987. Şuşalı və Atalı günlər





Aydan, Babası və Nənəsi



Elçin, Anası və Nənəsi









Ömrün müxtəlif anları





Afət və Elçin, Ağdam, 1988



Afət, Atası və Qardaşı



Qrup yoldaşı Bəylər Abbasovla. Xarkov, 1985



30 illik yubiley. Gəncə Dövlət Universiteti.
Tələbələri, Ayşən və Aydanla





Qızı Ayşənlə





Maral göl, 2004






Gəncədə yaşanan unudulmaz anlardan







Ötən günə gün çatarmı?!.

## GƏNCƏDƏN GƏLİRƏM, YÜKÜM... KİTABDI

Onun lap gənc alim olmaq arzusu ürəyində qalsa da, Lomonosova çatmaq istəyi hələ də qəlbində boy verirdi. O vaxt çıxmış yeni qanuna görə, aspiranturaya daxil olmaq üçün iki il istehsalat təcrübəsində olmalıydın. Elçin könülsüz də olsa, bu iki illik təcrübəni keçməli idi.

Onu Gəncə Avtomobil zavoduna göndərdilər. Yeni mühit, ilk dəfə gördüyü texnoloji avadanlıqlar, tanış olmadığı iş sistemi, tanımadığı adamlar... İlk vaxtlar ona ağır gəldi. Əsgərliyə gedib, günlərini sayan adamlar kimi ötən hər gününü bir qənimət hesab elədi. Ancaq insan elə məxluqdur ki, dayandığı, nəyəsə maraq göstərdiyi yerlərə tez isinişə bilir. Elçinə də az müddətdən sonra çox şey maraqlı görünməyə başladı. Xüsusən, texnoloji avadanlıqların iş sistemi ona çox qəribə göründü. Bir də adamlar doğma gəldilər ona. İlahi, bu yerlərin adamları necə də tez bir zamanda qaynayıb qarışırlar. Heç iki ay ötməmiş bu adamları lap əvvəldən tanıyırmış kimi doğma bildi özünə. Və çox qəribə idi ki, indidən onlardan ayrılmağın çətinliyi haqqında düşünməyə başlamışdı.

Nazlı Gəncə... Azərbaycanın nur qönçəsi... Nizami yurdu... İndi Elçinə çox şeylər aydın olmuşdu. Bu yerlərdə yaşayan elə Nizami Gəncəvi olar. Hər dəfə şəhərə çıxanda, onun mərkəzini, ətrafını gəzib-dolananda bu qəribə fikirlər qəlbinə hakim kəsilirdi. Bir də bu yerlərin tarixi, keçmişi, ötən günləri bir kino lenti kimi gəlib gözlərinin önündən



keçirdi. Elə bil, o dövrləri yaşamışdı, o günlərin canlı şahidi olmuşdu. O günlərin ki... O günlər haqqında kitablarda o qədər də düzgün, səhih məlumatlar verilmirdi. Və bəzən çox böyük yanlışlıqlar, yalanlar, böhtanlar kitablarda özünə yer tapırdı. Ancaq bəzi həqiqətləri gizlincə əldə elədiyi kitablardan tapıb oxuya bilirdi. Ona görə bu yerləri canlı gördüyünü düşünürdü.

Gör bu qədim yurdun başına nə oyunlar gətirmişdilər. Əvvəl heç dilə də düz-əməlli yatmayan bir qondarma ad yapışdırmışdılar bu şəhərə: Yelizavetpol... Allah, bu qədər də haqsızlıq olardımı? Rus çariçası Yelizaveta hara, Gəncə hara? Elə bil, bununla bu yerlərin adamlarına əzab verib, öldürmək istəyirdilər. Heç olmasa, Yeliza desəydilər, bir az qısa ifadə etsəydilər, adamlara bu qədər dərd, ağrı verməzdilər. Elə bilərdilər, Yeliza da hansısa bir türk sözünün törəməsidir. Ancaq, Yelizavetpol... Bu faciə idi və bu faciəni yaşamaq qürurlu insanlar üçün heç də asan deyildi. Məsələ burasındaydı ki, belə qədim kökü olan, böyük ənənələrə söykənən şəhərin adamları çox qürurlu olurlar. Deməli, belə adın altında yaşamaq onlar üçün çəkilməsi ağır olan işgəncə idi.

Daha sonra şəhərin adını yenə dəyişib Kirovabad qoydular. Kirovabad... Yelizavetta getdi, Sergey Mironoviç gəldi. İlahi, dərdə bax, bu məkanın yerli sakinləri bir yana qalmışdılar, gəlmələr gündə şəhərə bir ad qondarırdılar.

Kirov... Bu adam kim idi axı? Azərbaycan dövləti qarşısında hansı xidmətləri olmuşdu? Gəncə camaatına nə yaxşılığı keçmişdi? Bakının ən hündür yerində onun əzəmətli abidəsini ucaltmışdılar. Oradan o, Bakıya, Bakının çoxmillətli əhalisinə əl sallayırdı. Onda hələ Şaumyanın da abidəsi önünə gül-çiçək dəstələri düzürdük. Elə bilirdik bu adam yaxşı adam olub, bizi ağ günə çıxardıb. Onun haqqında

filmlər çəkir, kitablar bağlayır, az qala barəsində əfsanələr yaradırdıq... Daha sonra, lap sonralar anladıq ki... Demə, bu quldur soyumuza, kökümüzə qənim kəsilən bir cani imiş. Bunları anlayanda, artıq iş-işdən keçmişdi.

Sergey Mironoviç Kirov da onun kimi. Onun göyə yüksələn qolunu qırıb, abidəsini aşıranda, Gəncənin üstünə çökmüş qəm haləsi kimi adını yığışdırıb, şəhəri süni nəfəsdən azad edəndə, bəlkə heç onun ruhu da incimədi. Çünki keçmişdə elədiyini eləmişdi. Onun bu yurda vurduğu yaraları sağaltmaq üçün, bəlkə də, neçə-neçə yüz illər lazım olacaqdı.

Elçin öz yaxınları arasında bu şəhərə Gəncə deyirdi. Kirovabad sözü heç dilinə yatmırdı. Elə bil, yüz ilin Hacı Məhəmmədinin adını dəyişib, Seryoja qoymuşdun. Amma Gəncə sözünü çoxunun yanında, həm də ucadan demək qorxulu idi. Onda gərək Dövlət Təhlükəsizlik idarəsinə gedib izahat verəydin, Kirovabada Gəncə deməyinin bədəlini ödəyəydin. Ha çalışlb, vuruşaydın, yüz-yüz, min-min dürlü faktlar gətirəydin, bu şəhərin dədə-babadan Gəncə olduğunu sübuta yetirəydin, yenə xeyri yox idi. Kor tutduğunu buraxmadığı kimi bunlar da səni buraxmazdılar. Ən azı kürəyinə bir şiddətli töhmət yapışdırıb yola salardılar. Sonra da dönə-dönə tapşırardılar ki, özünü yaxşı apar, danışığına fikir ver, yoxsa... Bu yoxsanın sonrası çox böyük faciələrdən xəbər verirdi. O faciələr haqqında Elçin yaşlı adamlardan eşitmişdi. Onu da eşitmişdi ki, bu yoxsanın sonrasında görkəmli şairimiz Hüseyn Cavidin başına nə oyun gətirmişdilər. Sonra da Bəxtiyar Vahabzadənin. "Şəki fəhləsi" qəzetində dərc olunmuş "Gülüstan" poemasına görə milli-vətənpərvər şairi az qala dar ağacına çəkəcəkmişlər. O, bu fəlakətdən zor-bəla canını qurtara bilmişdi. Bundan sonra uzun müddət danışmağı, yazmağı ona yasaq eləmişdilər.



Nəyə görə? Ona görə ki, o poemada şair həqiqəti yazmışdı. Vətəni iki yerə bölən namərdləri öz qələmi ilə qamçılamışdı.

Daha bir sözardı:

Sonralar Bəxtiyar Vahabzadə ilə münasibət quranda, onunla yaxınlıq edəndə şair ona əllinci illərin sonunda baş verən bu hadisədən danışardı. Yana-yana, qovrula-qovrula... Sonra da sözlərini nikbin notlarla bitirərdi. Deyərdi, yüz belə imperiyalar ola, qan içən hökmdarlar meydan sulaya, yenə də millətin birliyini əlindən ala bilməzlər. Vaxt gələr bu haqsızlıqlar yerini haqqa verər. O zaman bütün bu ayrılıq ağılarının yerini vüsal nəğmələri doldurar... Bəxtiyar Vahabzadə ona həm də Məhəmmədhüseyn Şəhriyardan danışardı. Onun həsrət və intizar şeirlərindən sitatlar gətirərdi.

*Heydərbaba, gün dalını dağlasın,*
*Üzün gülsün, bulaqların çağlasın,*
*Uşaqların bir dəstə gül bağlasın,*
*Yel gələndə ver gətirsin bu yana,*
*Bəlkə mənim yatmış bəxtim oyana.*

Böyük şairin söhbətləri ona o qədər təsir edirdi ki, o təsirdən uzun müddət çıxa bilmirdi. Belə vaxtlarda gücü heç nəyə çatmayanda, qələmindən dayaq tutub, üzü işığa sarı getmək istəyirdi. O işığa çatmağın yollarını arayırdı. Və inanırdı. İnanırdı bir gün o işığa qovuşacağına. O gün millətin ən böyük, ən ulu, ən müqəddəs bayram günü olacaqdı. O günün bir gün gəlib yetişəcəyinə şəksiz bir inam bəsləyirdi...

Hələliksə...

İstehsalat təcrübəsi keçə-keçə bir an da olsun kitablardan ayrılmırdı. Yatanda da mütləq sinəsində bir kitab yatırdı. Elə

bil, ən böyük həmdəmi, ən yaxın sirdaşı, sirli-sehrli dünyasının qibləgahı bu kitablar idi. Bu kitablar Elçini gələcək işıqlı dünyaya aparan mayak kimi yollarına nur çiləyirdi.

Və qarşıda böyük şəfəqlər görünürdü. O şəfəqlərin işığında ömrünün şirin nağılını yaradırdı. Bu nağılın qəhrəmanı onun özü idi. Bu nağıl qəhrəmanı haralara gedib çıxacaqdı, səsi haralardan gələcəkdi-bu hələ gələcəyin işi idi və o gələcəkdən Elçin çox şeylər gözləyirdi.

Adı dilinə yatmayan bu şəhərin səsli-küylü təcrübə sahəsində, adamı duyğulandıran şəhər ətrafında, gecələrin tənha səssizliyində də o nağıl qəhrəmanının izi ilə yeriyir, onu bir an gözündən qoymur, hərdən də ağ atlara süvari olub uzaqlara, lap uzaqlara gedib çıxırdı.

Hələ yarımçıq qalan arzularını həyata keçirmək üçün bu kitablardan bərk-bərk yapışmalıydı. O kitabların səhifələrində öz taleyinin ağ cığırlarını tapmalıydı. Kim nə deyirsə-desin, insanın tale yazısı onun alnına yazılmır. Belə olsaydı əgər Tanrı insana düşüncə, ağıl, dərrakə verməz, onu bir robot kimi yaradardı. İnsan Tanrının müəyyən elədiyi milyonlarla kodlaşdırılmış cığırların əhatəsində dolanır, özünü axtarır və tapdığı qədər tapır. Güclü adamlar, zəhmətlə yoğrulanlar o milyonlarla kodun içərisindən öz işıqlı şifrələrini tapa bilir, həyatda önəmli bir mövqe tuta bilirlər. Zəif, iradəsiz, tənbəl kəslər isə elə hər şeyi mövcud olmayan o alın yazısına bağlayır, nahamar işlər görərək, ya da heç nə etməyərək zülmət qaranlıqlara doğru sürünürlər. Elçinin belə adamlara yazığı gəlirdi. Axı Tanrı insana bu ömrü yandırmaq üçün deyil, yaşamaq üçün bəxş edir. Ömrü yanan insanların ruhunu dikəltmək üçün az-çox, bacardığı qədər təsir etmək istəyirdi onlara. Beynində az-çox nuru olanlar onun dediyi sözlərin işığından bir damla götürə bilirdilər. Qəlbinin nuru



yatanlar isə... Belələri artıq indidən yanan talelərinə doğru tələsirdilər. Özləri də bilmədən, Tanrının möcüzəsinə ümid bəsləyərək...

Lap tez ötdü bu iki il. Yenə yollar onu Bakıya sarı gətirirdi. Bu dəfə başqa inamla, başqa ruh və inadla.

Bakıya çatanda yüz illərdi buralardan ayrılmış kimi şəhəri bağrına basdı. Sanki bu gəlişin bir başqa gəliş olduğunu şəhərə demək istəyirdi.

Gəncədən qayıdıb gəldi. İstehsalat təcrübəsi ilə bərabər böyük həyat təcrübəsi də qazandı. Ən azı gələcək həyat yükünün bir hissəsini tutdu. Amma bu yük xurma deyidi. Elm və biliklərlə dolu kitablar idi. O kitabların işığı indi onu Gəncədən Bakıya gətirirdi. Bir azdan isə uzaqlara, dünyanın o başına aparıb çıxaracaqdı.

Elçin böyük yolun yolçuluğuna çıxmışdı...

## BİR GECƏNİN TARİXÇƏSİ

Xudu Məmmədovun adı nəinki onun üçün, o dövrün zəkalı kəsiminin hər bir qismi üçün müqəddəs və əlçatmaz zirvə sayılırdı. Nağıllardan gəlmiş kimi görünən bu adam, sanki, insanın, insanlığın fövqündə dayanırdı. O dövrün hər bir adamı bu Böyük Ziyalını görmək, bir an da olsa, onun işığında yuyunmaq arzusu ilə alışıb yanırdı. Adamlara elə gəlirdi ki, bu adam yerdə, adamların yanında yaşamır. Sanki məkanı, yaşam yeri bir başqa planetdir. Və o başqa planetdən enib yerə gəlir, adamların gözünə görünür, işığından zülmətlərə nur çiləyir, yenə də qayıdıb, yurduna, məkanına gedir. Elçin də bu dünyanı dərk edəndən bu insanın müqəddəsliyini qəbul eləmişdi. Hər zaman onu görməyin həsrətini çəkmişdi. Bilirdi ki, Xudu müəllim onun kimi işıqlı adamları çox sevir. Amma onun yanına getməyə cürət eləmirdi. Onun yanına getmək üçün əlində fundamental bir iş olmalıydı ki, Xudu müəllim onunla keçirdiyi vaxta görə təəssüf hissi keçirməsin. Hər halda, Elçin belə düşünürdü. Elə bu düşüncənin fonunda nələrsə etmək, elmə yeni nəyisə gətirmək intizarında sabahlarını açırdı. Bu düşündüklərini edəndən sonra rahatca Xudu Məmmədovun yanına gedə bilərdi. Onun qarşısında şax dayanıb, qazandığı uğurlardan danışardı. Bax, onda heç şübhəsiz Xudu müəllim onu maraqla qarşılayardı. Elmi kəşfi ilə tanış olar, başına sığal çəkər, gözündəki bir dünya işıqla onu başdan-ayağa süzüb,



uğurlar diləyərdi. Belə bir günə qurban kəsməyin həsrətini çəkirdi Elçin...

Əvvəldə qeyd eləmişdim axı, məqam tapan kimi yolunu Ağdamdan, Şuşadan salırdı. Bu dəfə də yol üstündə idi. Ağdama, əzizlərinə baş çəkməyə gedirdi. Ali məktəbi bitirmişdi. Diplomunu almışdı. Amma sınıqlığı var idi. Çünki diplom işini elmi iş kimi təqdim edə bilməmişdi. Daha doğrusu, mərdümazarlar, Moskvada oturan nakəslər buna imkan verməmişdilər.

Belə bir zamanda Ağdama gedirdi. Axşamın alatoranında Bakı-Ağdam qatarında yola çıxmaq üçün dəmiryol vağzalına gəldi. Vağzalda böyük qələbəlik var idi. Əksər camaat Bakının istisindən qaçmaq, rayonda yayı keçirib, payızın əvvəlində yenə Bakıya qayıtmaq istəyi ilə yola çıxmışdılar. Elçin fikirli-fikirli dolaşıb, kupesini tapdı. Əynini dəyişib oturdu və Məmməd Arazın yeni çıxmış kitabını götürüb vərəqləməyə başladı. Bu an bir nəfər kupeyə daxil oldu. Salam verdi. Elçin bir qədər qanrılıb, onun salamını aldı. Bir anlıq nəzərləri gələn adamın üzündə dolaşdı. Və... dəhşətə gəlib, dim-dik ayağa qalxdı. Səhv etmirdisə, bu həmin adam idi; hər zaman həsrətini çəkdiyi, intizarında olduğu Xudu Məmmədov.

Utancaq-utancaq əlini ona sarı uzatdı.

-Salam... Xudu müəllim... Bu sizsiniz?

-Bəli, düz tapmısınız. Məni hardan tanıdınız?

-Siz... Nə vaxt gəlmisiniz?

-Hardan?

“Uzaq planetdən” demək istədi. Birtəhər o sözü boğazından qaytarıb, başqa söz dedi.

-Yəni deyirəm... Sizi görmədim.

-Mən elə indi gəlmişəm. Gəl tanış olaq, mən Xudu Məmmədovam, bəs sən?

-Mən də Elçinəm, Elçin İsgəndərov.

Sonra özü haqqında qısa tanışlıq verdi. Amma bu qısa tanışlıq da, deyəsən, Xudu Məmmədovda maraq yaratdı. Çünki yerini rahlaya-rahlaya onun haqqında başqa məlumatlar da almağa çalışdı.

Yarım saatdan sonra artıq neçə vaxtın tanışları kimi qaynayıb-qarışmış, söhbətə başlamışdılar. Elçin bu dahi insan haqqında çox şeylər bilirdi. Onun həyatını, demək olar ki, bütövlüklə kitablardan oxumuşdu. Demək olar ona görə deyirəm ki, bu böyük aydının, ümumiyyətlə, dahi şəxsiyyətlərin bütöv həyatını kitablardan oxumaq mümkün deyil. Onlar o qədər çoxşaxəli, çoxxətli, geniş əhatəli olurlar ki, bu taleləri cansız kitab səhifələrinə sığışdırmaq mümkün olmur. Ona görə gərək belə dühaları bir saatlıq da olsa, canlı görüb, ünsiyyətdə olasan. Onda o böyüklüyün fərqinə varırsan, o ucalığı yaxından anlayırsan.

Elçin, sanki, sirli bir aləmin sehrinə düşmüşdü. Ağlına gələrdimi ki, yay fəslinin qərib bir çağında Ağdama gedəndə onun kupe yoldaşı belə bir insan olacaq. Belə bir arzuyla içində işığı olan hər bir kəs yaşayardı. Hətta, belə bir təsadüf üçün ömrünün bir hissəsini qurban verənlər də olardı. Axı onunla üzbəüz oturan şəxsiyyət sıradan biri deyildi. Haqqında əfsanələr, rəvayətlər dolaşan bir alim idi. Elə bir alim ki, yaratdıqlarını insanlar hələ yetərincə anlamırdılar. Sadəcə, böyük insan kimi tanıyırdılar, vəssalam. Əslində onun yaratdığı elm sahəsi elmdə böyük kəşflərdən sayılırdı. Və əgər o, qeyri-slavyan xalqının nümayəndəsi olmasaydı, çox güman ki, adı dünyanın ən dahi bilim adamları sırasında çəkiləcəkdi.

Bunları bildiyinə görə, bu gecənin sirrindən qopa bilmirdi Elçin. İstəyirdi bu gecənin ömrü uzun olsun, bitib-tükənməsin. Elə hey yol getsinlər, qatarın qəribə ayaq səsləri



altında yollar uzansın. Bu yolçuluq Elçinə bir dünyanın işığını verəcəkdi, indidən bilirdi bunu. Ona görə bu işıqdan daha çox "oğurlamaq" üçün səhərin gec açılmasını istəyirdi.

Xudu Məmmədov danışırdı...

Tariximizdən, ötənlərdən, keçənlərdən. Tarix kitablarını yazanların səriştəsizliyindən, yaxud, mövcud quruluşa uyğun tarix yazmalarından. O quruluşa ki, burada əsil həqiqəti yazanların yeri zindan olardı. Gərək o tarix kitablarını özündən uydurub, sistemə xoş gələn formada yazaydın.

Xudu Məmmədov danışırdı...

Milli adət-ənənələrimizdən, özümüzdən, sözümüzdən, tarixi qan yaddaşımızdan... O qan yaddaşımızda çox şeylər vardı ki, bizə onları unutdurmuşdular. Yüz fitnə-fellə qan yaddaşımıza təcavüz edib, milli ruhumuzu qaranlıq boşluqlara atmışdılar. O boşluqlarda özümüzü tapa bilmir, hərdən özünü göstərən milli şüurumuzun közərtisində çabalayır, vurnuxa-vurnuxa qalırdıq.

Xudu Məmmədov danışırdı...

Folklordan, ədəbiyyatdan, bədii söz sənətindən... O folklorda, o ədəbiyyatda, o söz sənətində bizim özümüz vardıq. Dədə Qorqud qopuzunun sehri vardı. O sehrin içində min illərdi yol gəlirdik. Özümüzü tapa bilsəydik, hələ neçə min illər də beləcə yol gedəcəkdik.

Xudu Məmmədov danışırdı...

Dünya elmindən... Bu elmdə boy verən Azərbaycan alimlərinin töhfəsindən. O töhfədə görünən yerimiz olsa da, sistemin eybəcərliyi, dünya düzümünün nadürüstlüyü daha qabarıq görünməyimizə imkan vermirdi. Rus alimlərinin xırda bir kəşfi bizim alimlərimizin böyük kəşfi qarşısında daha qabarıq görünürdü.

Bütün bunlardan yana-yana danışırdı böyük alim. Bəzən əllərinin xırdaca əsməsindən, gözlərindəki kədərdən dünyanın "yaxşı yük" daşımaması aydınca sezilirdi...

Gecənin yarısına qədər söhbət elədilər. Sonra yataqlarına uzanıb, işığı söndürdülər. Ancaq Elçin yuxuya gedə bilmədi. Bu möcüzəli axşamdan sonra o, yuxuya gedə bilərdimi? Əlacı olsaydı, utanmasaydı Xudu müəllimi oyadar, onunla yenə üzbəüz dayanar, nəfəs dərmədən ona qulaq asardı.

İlahi, bu dünyanın necə sirli-sehrli insanları varmış. Bu dünyanı qoruyan, qopub məhvərindən çıxmağa qoymayan, şübhəsiz ki, bu insanlar idi.

Bu gecənin təsirindən hələ uzun müddət çıxa bilməyəcəkdi Elçin. Bunu indidən bilirdi. Bir də onu bilirdi ki... Bir gecədə bir böyük universitetin məzunu olmaq hər adama qismət olmurdu. Bəli, o tarixi yolçuluqda, Bakı-Ağdam qatarında bir neçə saat Xudu Məmmədovla yol gedən Elçin İsgəndərov daha bir universitet bitirmiş kimi hiss elədi özünü. O, bu gündən Xudu Məmmədov məktəbinin məzunu idi. Və o məzunluq ona həyatda çox şeylər verdi. Heç şübhəsiz ki, həyatının səmtini müəyyən eləməkdə o məktəbi bitirməyinin böyük rolu oldu.

Səhər tezdən ondan ayrılanda bir müddət dayanıb onun arxasınca baxdı. Onunla yenə də görüşmək arzusu ilə...

Lakin...

Onunla bir də görüşmək qisməti olmadı.

Onun yerini, yurdunu bilirdi, oturduğu məkanı tanıyırdı. Amma hələ onun yanına getmək istəmirdi. Axı söz vermişdi ona, demişdi, yaxın zamanlarda aspiranturaya daxil olacaq və qısa müddətdə elmi iş götürüb müdafiə edəcək. İstəyirdi Xudu Məmmədovun yanına gənc alim kimi getsin. Bilirdi axı, bilirdi ki, o, kişi elmi işlərin, fundamental kəşflərin dəlisidir. İndidən özündə xəyallar qururdu: elmlər namizədi diplomunu götürüb onun kabinetinə daxil olurdu. Onunla



qucaqlaşıb, görüşür, sonra da müdafiəsi haqqında ona məlumat verirdi. Xəyalındaki Xudu Məmmədovun gözlərindəki nur selini də görürdü... Xudu Məmmədov ağızdolusu onu tərifləyir, elmi fəaliyyətində uğurlar diləyirdi...

Bax, onda gedəcəkdi Xudu Məmmədovun yanına.

Lakin bir səhər eşitdiyi bəd xəbərdən sarsılıb, yerində qaldı. Xudu Məmmədov qəfildən dünyasını dəyişmişdi.

Bu xəbər ona elə ağır təsir eləmişdi ki, əl-qolu soyuyub yanına düşmüşdü. Həyatda ən doğma, ən əziz, ən yaxın, ən məhrəm adamını itirmiş kimi özünə yer tapa bilmir, fikirlərinin kələfi dolaşır, arzuları daşa dəyib çilik-çilik olmuş kimi özünü ələ ala bilmirdi. Axı Xudu Məmmədov onun elmi işini görməliydi, bu işlə tanış olmalıydı, onun gələcək işlərinin xeyir-duasını verməliydi. Belə bir qarışıq gümanlar arasında çırpınan zaman Xudu Məmmədovu yuxusunda gördü. Xudu Məmmədov onlara gəlmişdi. Onun başına sığal çəkir, oxşayır, qəribə-qəribə gülümsəyir, sonra da dönə-dönə kitabları Elçinə göstərirdi.

O gecənin səhərindən Elçin özünü ələ almağa çalışdı. Axı o boyda kişi onun gələcəyindən nigaran qalmışdı, qapısına qədər gəlmişdi. Gəlmişdi ki, onu ovsundan çıxarsın, sabahlara səsləsin.

Və...

Xudu Məmmədovun ruhuna kişi sözü verib, kitabları yenə bağrına basdı. Əvvəlkindən də inamla, inadla mübarizəyə başladı. Artıq bu mübarizədə heç kəs onun qarşısını kəsə bilməzdi. Bir kimsənin onu dayandırmağa gücü, qüvvəti çatmazdı. İndi o, təkcə özünə görə yox, həm də Xudu Məmmədova görə elmin kəhkəşanına baş vuracaqdı. Bu mübarizədə Elçin ya qalib gəlməli, ya da yenə də qalib gəlməliydi...

## TANRININ YAR BƏXŞİŞİ

Deyirlər, hər kəs doğulandan bu dünyada yarısını axtarır. Yarımçıq olan insan yarısını tapmayanda bütöv olmur, tamamlanmır, beləcə, çöllərdə dəli-divanə kimi dolaşıb, ömrünü yarımçıq başa vurur. Ona görə hər insanın tale payına bir yar qisməti yazılır. Elçinin də taleyinə Afəti yazmışdı Tanrı. Elə bir qismət ki...

Afətin xalası Elçingilin ailəsinə çox yaxın idi. Tez-tez onlara baş çəkir, maraqlanır, uğurlarına sevinir, kədərlərini öz kədəri bilirdi. Elçinə o qədər xoş münasibəti var idi ki, bu qadının. Öz doğma xalasi qədər, bibisi qədər... Elçinin uğurlarına çox sevinərdi. Gedib bu uğurlar haqqında bacısına, yaxınlarına danışardı. Ən çox da bacısı qızı Afətin yanında ondan söhbət açmağı xoşlayardı.

-Bilirsən, nə dərrakəli oğlandı bu Elçin?

Afət susub, xalasının üzünə baxardı.

-Məktəbi qızıl medalla bitirib.

Qız yenə onun üz-gözünü süzərdi.

-Ali məktəbi də qırmızı diplomla bitirib.

Qız bu dəfə astaca başını bulayardı.

Bununla xalasına çatdırmaq istəyirdi ki, ay xala, bunları çox demisən, az qala, o Elçin deyilən oğlan kimdirsə tərcümeyi-halını mənə əzbərlətmisən. Afətin qımışmağından nə demək istədiyini, ancaq deyə bilmədiyini anlayırdı xalası. Amma yenə də dediyini deyir, dayanmadan o, oğlanın bacarığından danışırdı.



-Tələbə vaxtı bir elmi ixtiranın müəllifi olub. Fikir verirsən, qızım, tələbə vaxtı?! Hər oğulun işi deyil bu...

Qız içində gülümsəyirdi.

-Heç üç il, beş il çəkməz alim olar bu oğlan.

Axırda Afət dözə bilmədi:

-Xala, o qonşunuzun oğlunu mənim yanımda niyə tərifləyirsən?

Xala ürəyində olanı gizlətmədi.

-Çox istəyərəm belə kürəkənimiz olsun.

Onda Afət ürəkdən gülmüşdü.

Bu gülməyinin bir səbəbi də başqaydı. Artıq o, Elçini tanıyırdı. Hətta məqam tapıb bir-iki dəfə görüşmüşdülər də.

Afət əslən Laçın rayonundan olsa da, Ağdamın bir başqa kəndində yaşayırdı. Hərdən xalasıgilə gəlirdi. Və bir kərə xalasıgilə gələndə xalasının çox tərifədiyi o, oğlanı görmüşdü. Bəzən eşqlər bir baxışdan yaranır. Bu da Tanrının bir möcüzəsi. Onların da bir-birinə sevgisi elə ilk baxışdan yaranmışdı...

... Elçin o zaman Gəncə Pedaqoji İnstitutunda müəllim işləyirdi və evlərinə bir-iki günlük istirahətə də bir gənc müəllim kimi getmişdi. Elə bil, onun taleyində Gəncə ilə bir bağlılıq vardı:

*Hara getsəm, harda olsam,*
*Məmləkətdən uzaqda*
*bir Gəncə sevdası*
*yaşayır içimdə-*
*qatarda, gəmidə, uçaqda.*

*Hara getsəm*
*qədim Gəncəyə dönürəm yenə,*

*Gəncənin çinarları*
*yaşıl yarpaq dodaqlarıyla*
*gülüm, sənin adını pıçıldayır mənı.*

Onu görməyi çox arzulayırdı. Və o qismət bu günəymiş. Təsadüfən qız qarşısına çıxdı. Tanıdı onu. İki-üç il bundan qabaq gördüyü qız idi. Çox dəyişməmişdi.

*Hələ bir quş səsi qonmayıb*
*təzəcə şeh düşmüş ləçəklərə.*
*Xarıbülbül gülümsəyir*
*arzulara, ümidlərə, diləklərə,*
*bu anda*
*bir şeir yazmaq istədim,*
*bir şeir sənə...*

Elə o gün o şeiri pıçıldadı ona. İlk sevgi şeirini. Sonra ülkər baxışlarla baxışıb o baxışların səssiz pıçıltısında əhdi-peyman bağladılar. Ancaq hələlik bir müddət bu məhəbbəti gizli saxlamağa qərar verdilər...

Xalası Elçini tərifləyəndə ona görə içindən gülümsəyirdi Afət...

Elçinin anası Afəti tərifləyəndə, beləcə, Elçinin də içindən bir gülümsəmək keçmişdi...

Çox gizli saxlaya bilmədilər bu eşqi. Elçi getdilər...

***

Keçən əsrin səksəninci illərinin sonu yaxınlaşırdı. Ermənilər yenə də əfi ilan kimi baş qaldırıb, Azərbaycan dalı məmləkəti sancmağa hazırlaşırdılar. Məsələlər günü-gündən qəlizləşirdi. Elçin gənc və ağıllı bir adam kimi bu hadisələrin sonluğunun hansı nəticələr verəcəyi narahatlığı ilə gecələri



yatağına girir, elə bu narahatlıqla da səhərlərini açırdı. Hələ çox gənc olsa da, erməni xislətinin nə olduğunu anlayırdı. Bir də onu anlayırdı ki, arxalı köpək qurd basar. Ermənilərin arxasında rusların, elə başqa xristian dövlətlərinin də dayandığını bilirdi. Ruslar Moskvada yaxşı vəzifələrin bir hissəsini ermənilərə vermişdilər.

**Burada tarixə bir baxış:**

Sovetin yarandığı vaxtlardan belə olmuşdu: ermənilər rus qardaşlarının yanında quyruq bulaya-bulaya əsas vəzifə halqalarının bir hissəsini ələ keçirmişdilər. Stalin dövründə onun yanında dolaşan Mikoyanın vasitəsi ilə türklərə qarşı çox qara planlar hazırlanırdı. Bu planın içində sonralar Qarabağı Azərbaycandan qoparmaq, Ermənistana birləşdirmək niyyəti də var idi. İştah diş altındadır, deyiblər. Əvvəl qədim oğuz yurdu olan İrəvanı min fitnə-fellə əlimizdən aldılar. Sonra Göyçə mahalı, Vedibasar, Zəngəzur... İndi də Qarabağ. Ermənilər bilirdilər ki, onların qara niyyətlərini ruslar müdafiə edəcək, alqışlayacaq, dünya birliyi də kormuş, karmış kimi bu işğala biganə yanaşacaq. Hər zaman dünyada ikili standartlar olub və bu gün də var. Ən dəhşətlisi odur ki, bu ikili standartlar burulğanında hər zaman müsəlmanlar, ən çox da türklər əziyyət çəkiblər. Görəsən niyə belə olub? Bəlkə müsəlmanın daha çox fanatizmə yuvarlanması, az oxuması, elmdən daha çox yuxuya, ehtimala, nağıl və əfsanələrə inanması onun bu faciələrə düşməsinin əsas səbəbi kimi görünməlidir? Ola bilər. Lakin başqa bir səbəb də var. Türkün çox qədimlərdən gələn möhtəşəm keçmişi başqa xalqların yaddaşından silinməmişdi. Onlar hər zaman türklərə qorxulu röya kimi baxırdılar. Və o röyadan qurtulmaq üçün türklərə müxtəlif tələlər qururdular. Hərdən o tələni çox ustalıqla işləyib, türkü türkə qarşı qoyurdular... İndi də çox böyük və hiyləgər bir

tələ qurmuşdular. O tələyə düşməmək üçün çox mahir bilici və döyüş sirlərini bilmək bacarığına malik olmalıydın...

Qarabağ hadisələri başlayanda da bu iki hiss düşünən qəlblərə hakim kəsilmişdi. Yaxşı siyasət işlətmək, bir də vuruşmaq... İkinci məsələ bir qədər qəliz görünürdü. Çünki başımızın üstündə yekəpər rus dayanmışdı və yekəpər rus erməninin arxasındaydı. Qalırdı siyasət. Buna isə... Hər halda, bütün siyasətlər gücə tabe idilər. Hər zaman olduğu kimi sonda yenə də güc siyasət mətbəxində hazırlanan "təamları" yeyəcəkdi.

Deməli, belə görünürdü ki, heç də məsələ sadəlövh adamların düşündüyü kimi asan deyildi. Bütün bunları hələ çox da bərkiməmiş qəlbinin şah damarından keçirirdi Elçin. Vaxt tapan kimi Şuşaya gedir, hər yanı nəzərdən keçirir, elə bil, gördüyü hər nə var idisə bəbəklərinə yığmaq istəyirdi. Həm də çox qəribsəyirdi belə vaxtlarda. Qərib adamlar kimi nigaran hisslərin əlində giriftar qalır, əli hər yerdən üzüləndə qələminə güc verirdi.

*Laçın yuvasıdı Laçın,*
*Şuşa Tanrı şüşəsi.*
*Qanımızla süslənib*
*Hər daşı, hər guşəsi.*
*Topxana, Cıdır düzü*
*Damcı bulaq,*
*Soltan bəyin meşəsi.*
*Qanımızdan rəng alıb*
*bağrı qara laləsi*
*Gecələr dağ başında*
*Ayın bəyaz haləsi.*



Ağdama gedəndə də belə ikili hisslərin əsarətində qalırdı. Bu torpaqların da düşmənin bəd nəzərində olduğunu bilirdi. Axı bu yerlərin mərd oğulları satqın və xəyanətkar ermənilərə çox qan uddurmuşdular. İndi düşmənin əlinə bəd fürsət düşmüşdü. Əslində düşmənin bu yerlərə ayaq basacağını ağlına sığışdırmırdı. Amma yenə də ikili hisslər ona rahatlıq vermirdi. Bir tərəfdən arxayınlıq, rahatlıq, öz kökünə inam və etibar, o biri tərəfdən indiki siyasi vəziyyət və ermənilərin rus havadarlığı ilə meydan sulamaları...

Bu ikili hisslərin, sevinc və həyəcanın haləsi altında ailə həyatı qurmuş, çox sevdiyi yarına qovuşmuşdu. Elçin qəlbində ideal sandığı, arzuladığı yarını tapmışdı. Bu da Tanrının ona bir mükafatı idi.

Afət də Elçini çox sevirdi. Xəyalında onunla gələcək həyatının işıqlı yollarını cızır, arzuların qanadında çox uzaqlara gedirdi.

Elə bu arzuların biri kimi "VEKTOR" Beynəlxalq Elm Mərkəzini yaratdılar...

## ARZULARIN "VEKTOR"U

Hadisələr günü-gündən dramatikləşir, faciəyə doğru yön alırdı. Torpaqlarımızın bir hissəsi rus-erməni hərbi birləşmələrinin hücumu nəticəsində işğal olunmuşdu. Düşmən yenə də qara niyyətlərindən əl çəkmirdi. Belə görünürdü ki, onların istəyi bütün Azərbaycanı işğal edərək, müstəqilliyinə son qoymaqdır. Çünki Azərbaycanın böyük, qüdrətli, azad, suveren dövlət olması o düşmən gücləri qıcıqlandırırdı. Bu məqamda hər bir qeyrətli oğul sinəsini qabağa verib nələrsə etməli, vətənin azadlığını qorumaq üçün "vətən daşı" olmağı bacarmalıydı.

Elçin bu ağır məqamda Xudu Məmmədovun sağ olmasını çox arzulayırdı. Əgər o, sağ olsaydı, çəkinmədən onun yanına gedər, məsləhət alar, nə etmək lazım olduğunu ondan soruşardı. Elə bu nisgilin qübarı ilə onun məzarının üstünə getdi. Xəyalında onunla danışdı. Hələ layihəsini qəlbində cızdığı və ancaq həyat yoldaşı ilə məsləhətləşdiyi elm mərkəzinin xeyir-duasını Xudu Məmmədovun ruhundan dilədi. Sonra çiynindən ağır bir yük götürülmüş kimi xanımının yanına gəldi.

-Getmişdim Afət...

-Hara?

-Xudu Məmmədovun yanına.

-Nə dedi?

-Xeyir-dua verdi, uğurlar dilədi.

-Nə yaxşı, onda işimiz uğurlu olacaq.



Elə bu məqsədlə Gəncədən köçüb Bakıya gəlmişdilər. Kirayə ev tutub, orada yaşayırdılar. Maddi cəhətdən sıxıntı keçirsələr də, bu arzularının həyata keçməsi üçün son qəpiklərini belə xərcləməyə hazır idilər.

Beynəlxalq Elm Mərkəzinin adını "Vektor" qoydular. Vektor üfüqdə parlayan nur kimi onların məqsədlərinə, ideya və məramlarına işıq çiləyəcək, arzularının həyata keçməsinə yardımçı olacaqdı. O məqsəd və məram nədən ibarət idi? İlk növbədə Qarabağ, Azərbaycan, Turan dünyasının həqiqətlərini dünyaya göstərmək. Daha sonra Azərbaycanın elm və zəka adamlarını dünyaya tanıtmaq. Axı hər zaman biz informasiya mübadiləsində və həm də mübarizəsində ermənilərə uduzurduq. Bunun da nəticəsində erməni həqiqət olmayanı da dünyaya həqiqət kimi sırıyırdı. Biz isə öz ağappaq həqiqətlərimizi dünya birliyinə çatdırmağa çətinlik çəkirdik. Burada bir tərəfdən dünyanın ermənilərə ərköyün uşaq kimi baxması və züy tutması rol oynayırdısa, o biri tərəfdən öz zəifliyimiz və çəkici bir nöqtəyə vurmağı bacarmamağımız faciələrimizin sayını daha da artırırdı. Axı qlobal dünya informasiya üzərində qurulmuşdu. Afrikanın uzaq bir ölkəsində yaşayan zənci hardan biləydi ki, Azərbaycanın Qarabağ bölgəsi var və o bölgəni ermənilər rusların əli ilə işğal ediblər? Onlar ancaq qəzetdə, jurnalda yazılana, televiziyada, radioda deyilənə inanırdılar. Əslində bu heç də onların günahı deyildi. Günah bizim özümüzdən gəlirdi. Ona görə ki, informasiya yarışında ermənilərə uduzduğumuz kimi lobbiçilik, diaspora yaratmaq işində də onlardan geri qalırdıq. Elə bunun səbəbi idi ki, dünya birliyinin böyük bir hissəsi erməni yalanlarına inanırdı.

Bunları yaxşı anladıqlarına görə dünya xalqları ilə elmi mübadilələri həyata keçirmək şərti ilə "Vektor" nəşrlər evini də təsis elədilər. İndi dünya ilə elmi, mədəni, ədəbi əlaqələr

sayəsində daha böyük nailiyyətlər əldə etmək olardı. Bu yöndə dünya klassiklərinin tanınmış, oxucu rəğbəti qazanmış əsərləri dilimizə tərcümə olunur, öz kamil bədii nümunələrimiz dünyaya tanıdılırdı. Bir azca qabağa gedərək onu da deyim ki, iş-işi göstərər prinsipindən yararlanan Elçinlə Afət cütlüyü bir az sonra "Bayatı" dərgisini yaratdılar. Bu dərgi otuzdan artıq ölkədə yayımlanaraq Azərbaycan həqiqətlərinə çıraq tutdu. Sonra isə iki beynəlxalq mükafat təsis elədilər. Elm sahəsində uğurlar qazanan bilim adamlarını "Xudu Məmmədov" Beynəlxalq mukafatı, ədəbi sahədə uğur qazananları isə "Şahmar Əkbərzadə" Beynəlxalq mukafatı ilə dəyərləndirdilər.

Məram çox düzgün seçilmişdi. İki cəfakeş insanın min bir əziyyəti bahasına başa gələn "Vektor" milli dəyərlərimizin qorunması, təbliğ olunması, sabaha çatdırılması yönündə çox böyük işlər görürdü. Bundan başqa "Vektor" hələ Azərbaycanda görünməmiş xeyirxah işlərə də rəvac verirdi. Yazmaq qabiliyyəti olan, ancaq imkansızlıq ucbatından yazdıqlarını ictimaiyyətə təqdim edə bilməyən xeyli sayda insanların kitablarını "Vektor" nəşrlər evi nəşr edir, heç bir təmənna ummadan onları xalqa tanıdırdı. Belə imkansız yazarların sayı-hesabı yox idi. Ancaq sözlə əlləşən bu adamların kitablarını dərc etməkdən yorulmur, usanmır, hələ desən, yaxşı əsərlərin sorağı ilə gələnləri həsrətlə gözləyirdi Elçinlə onun həyat yoldaşı.

Bəzən kamil insanlar tərəfindən elə işlər görülür ki, bu işlərin mahiyyətinə varanda dəhşətə gəlirsən. Sözün yaxşı mənasında tüklərin biz-biz dayanır. Və istər-istəməz düşünürsən; dünya belə insanların çiynində bərqərardır. Yoxsa dünya bu zorun, bu yalanın, bu fitnə-fəsadın qarşısında dayanıq gətirə bilməz, məhv olub gedər. Bu yöndə psixoloqlar, filosoflar, zəka sahibləri də maraqlı fikirlər



səsləndiriblər. Bu fikirlərin toplum halında məcmusu bunu deməyə əsas verir ki, yer üzərində olan bütün canlıların heç də hamısı dünyanın əşrəfi deyil. Söhbət təbii ki, insanlardan gedir. Dünyanı qoruyan, məhvərində saxlayan çox az faizli kamil insanlardır ki, onların Tanrı ilə şüuraltı əlaqəsi yeri öz oxu ətrafında saxlayır, uçub-dağılmağa qoymur. Elçin də Tanrının belə bəndələrindən idi. Bəlkə də onun özü bunu bilmirdi. Heç çevrəsində olanlar da. Amma iti bucaq altında baxanda Elçinin Tanrının seçilmişlərindən olduğu görünürdü.

Elçin müəllim və Afət xanım... "Vektor" elm mərkəzinin prezidenti və vitse-prezidenti, həm də qurumun həmtəsisçiləri.

Artıq bu adamlar böyük yol ayrıcına çıxmışdılar. Bu yol onları səadət dolu günlərə aparacaqdı. Xalqa xeyir gətirən, milləti təbliğ edən, insanlara sevinc paylayan bu xoşbəxtlik yolunun yolçuları indi təkcə özləri üçün deyil, həm də böyük çoxluğun rifahı naminə yaşamağı qarşılarına məqsəd qoymuşdular.

## AYŞƏN, AYDAN VƏ... ƏLİ

Birinci övladları dünyaya gələndə sevinclərinin həddi-hüdudu yox idi. Bütün övladlar ata-ana üçün şirin olsalar da, birinci övladın ailədə xüsusi yeri və çəkisi olur. Axı onun dünyaya gəlməsi ilə ər ilk dəfə ata adlanır, qadın analıq zirvəsinə yüksəlir. Elə buna görə də bütün ailələrdə birinci övlad o biri övladlardan bir baş ucada dayanır. Bəlkə həm də ona görə ki, ondan sonra dünyaya gələn bacı-qardaşlarının da öndə gedəni elə o olur. Buna rəğmən birinci dünyaya gələn övladlarının adını çox da düşünmədən Ayşən qoydular. Yəni hər zaman ay kimi bədirli, işıqlı, sevinc gətirən insanlar kimi şən və gülərüz olsun.

Ayşən çox ağıllı uşaq idi. Bal verən arı pətəyindən, bala verən quş dimdiyindən bəlli olar deyiblər. Onun da lap balaca vaxtlarından zəkalı bir kəs olacağı sezilirdi. Atasına, ən çox da anasına gündə yüzlərcə suallar verirdi. Bu suallar yerli-yersiz, mənalı-mənasız olsa da, ata-ana aramla uşağa cavablar verir, usanmadan onun "məlumat bazasını" zənginləşdirməyə çalışırdılar.

Ayşənin verdiyi qəribə suallar onu bir tərəfə aparıb çıxarmalıydı. Çıxardı da. Xətai rayonundakı 27 saylı orta məktəbi əla qiymətlərlə oxuyan bu qız arzularının qanadında sənədlərini Bakı Dövlət Universitetinin biologiya fakultəsinə verir. Oranı əla qiymətlərlə oxuyaraq, qırmızı diplomla bitirir. Elə həmin il Azərbaycanda ilk dəfə olaraq London Kral Universitetinin ekologiya mühəndisliyi ixtisası üzrə



magistraturasına daxil olur. Həmin universiteti də qırmızı diplomla bitirən Ayşən Azərbaycan Dövlət Neft Şirkətinə elmi işçi vəzifəsinə təyinat alır. Doktorant olur. Dəfələrlə Amerikanın Kaliforniya, Texas, Mayami ştatlarında ixtisası üzrə kurslar keçmiş və beynəlxalq sertifikatlar almışdır.

İnsanın taleyində zatın, kökün nə qədər önəmli rol oynadığını hamımız bilirik. Sanki gözəgörünməz zat telləri gecə-gündüz insanı öz ulusuna doğru çəkib aparır. Bir də baxıb görürsən ki... Görürsən Elçin İsgəndərzadədən yeni elçinlər törəyir. Və bu inama, etiqada inansaq bir müddətdən sonra görəcəyik ki, Ayşən Elçinqızı artıq alimlik dərəcəsi alıb, elmin zirvəsinə yüksəlib. Mənim daxilimdə buna çox böyük bir inam var və elə belə də gözləyirəm.

Sonra dünyaya Elçin müəllimin ikinci qızı gəldi. Yenə də çox fikirləşmədilər, qızın adını Aydan qoydular. Aydan... Aydan qopub gələn qız. Ayın bir parçası. Bu onun simasına verilən bir ad idi. Daxili aləmini də bir azdan göstərəcəkdi. Göstərdi də. Çox şirin-şəkər, qəşəng, böyük bacısı kimi mənalı-mənasız sualları ilə bol olan bu qızcığaz bir müddətdən sonra oxuduğu Xətai rayonu 27 saylı orta məktəbin göz bəbəyinə çevrildi. Hamı onu barmaqla göstərdi. Elçin müəllimin qızı olduğuna görə yox, öz savadına, istedadına, qabiliyyətinə görə. O, da böyük bacısı kimi orta məktəbi əla qiymətlərlə bitirib sənədlərini Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-prafilaktika fakultəsinə verdi və yüksək balla həmin fakultəyə daxil oldu.

Aydanın çox böyük arzuları var idi. Lap uşaq çağlarından onu bir məsələ narahat edirdi. Bəzi ümidsüz xəstəlikləri müalicə edərək, insanları xəstəliklərin caynağından qurtarmaq. Cavan vaxtında ömrü yarımçıq qalan insanların nakam taleyi onun hələ bərkiməmiş qəlbinə çox sıxıntılar gətirirdi. Xəyalında nağıllar qurur, özü bu

nağılların qəhrəmanı olurdu. Elə bir qəhrəman ki, bu qəhrəmanın sayəsində insanlar ağır xəstəliklərdən şəfa tapır, dirçəlib ayağa qalxır, gülümsər gözləri ilə Aydana, o nağılların qəhrəmanına şükranlıq hisslərini çatdırırdılar.

Yenə də genetik kod yaddaşı. Yenə də qandan gələn sirli-sehrli aləmin bir möcüzəsi.

İkisi də balaca uşaq olanda Ayşənlə Aydanın söhbətlərinə gizlincə qulaq asan Elçin müəllim qəribə hisslərin əhatəsinə düşürdü. Hərdən ona elə gəlirdi ki, bu qızlar, elə bütün bu yaşda olanlar dünyanın ən ağıllı adamlarıdı. Kindən, məkrdən, yalan və xəyanətdən uzaq olan bu cocuqlar elə təmiz, şəffaf hisslərin ağuşunda gəzib-dolanır, dünyanı elə bərli-bəzəkli göstərirdilər ki, adam cani-könüldən canlı aləmin əşrəfi olduğunu yadına salır, düşünür, bundan qürurlanır, belə dünyada daha çox qalmağın, yaşamağın yollarını axtarırdı. Ancaq yenə də ətrafa baxanda... Çirkinliklərlə dolu mühitin "canlı ekranında" gördükləri ilə o balaca qızcığazların düşüncələri arasında böyük təzadın olduğunu ürək ağrısı ilə şah damarının telindən keçirirdi.

...Aydan ailə həyatı qururdu. Şadlıq sarayına yığışan qonaqlar arasında daha kimlər yox idi: Vasim Məmmədəliyev, Xoşbəxt Yusifzadə, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Amaliya Pənahova, Nizami Cəfərov, Elçin Hüseynbəyli, Vahid Əziz, neçə-neçə tanınmış elm, mədəniyyət, incəsənət, ədəbiyyat adamları... Toyun çox qəribə, bəlkə də indiyə qədər görmədiyim bir aurası var idi. Hər şeydən daha çox gözə carpan isə toyun türk birliyinə köklənməsi idi. Elə ilk nəğmə də Azərbaycan-Türkiyə qardaşlığını özündə ehtiva edən bir musiqi nömrəsi ilə açıldı. Qəribə, sehrli bir aləmə düşmüşdüm elə bil. Sanki Dədə Qorqud öz qopuzunu səsləndirib Turan dünyasını



buraya, "Kral" şadlıq sarayına yığmışdı. İnsanlar, toya gələnlər bu qopuz havasından cuşa gəlib, saray boyunca bir-biriylə salamlaşır, təbriklər deyir, alqışlarla yeni ailə həyatı quran Aydanla Raminə xoşbəxtlik diləklərini yetirirdilər.

Hər zaman gözlərində işıq görmüşdüm Elçin müəllimin. Ancaq bu axşamkı işıq o işıqdan deyildi. Bir başqa, bambaşqa işıq idi ki, bu gecənin ruhundan doğmuşdu. O işığı Afət xanımın da gözlərində gördüm...

Ramin bəy qərbi Azərbaycan bölgəsindən idi. O da saysız-hesabsız soydaşlarımız kimi erməni qəsbkarlığının nə demək olduğunu qanında, canında hiss eləmişdi. Bütün ruh ağrısına rəğmən məktəbi əla qiymətlərlə oxumuş, Azərbaycan Dövlət Tibb Universiteti rəhbərliyinin göndərişi ilə İstanbul Universitetinin tibb fakultəsində bakalavr və uzmanlıq təhsili almışdır. Uzmanlıq imtahanı zamanı Türkiyədən və xaricdən olan on beş min həkim içərisində yığdığı ballara görə dördüncü nəticə göstərmişdir ki, bu da çox yüksək göstərici hesab olunurdu.

İstanbul Batı Bahat özəl xəstəxanasında həkim-cərrah vəzifəsində çalışan bu gənc həkimin çox tanınmış bir professor olacağına mənim qəlbimdə qəribə bir inam var.

İndi onunla bir yerdə İstanbulda yaşayan Aydan da burada təhsilini davam etdirib, püxtələşmiş bir həkim kimi yetişməyi, xəstə insanların dadına yetməyi qarşısına məqsəd qoymuşdu. Axı bacısının uşaq vaxtı dediyi sözlər yadından çıxmamışdı. O sözlərə görə Aydan aydan, ulduzdan şəfalı dərmanlar tapıb gətirməli, çarəsiz xəstələrə çarə olmalıydı.

Elçin müəllimlə Afət xanıma Tanrı iki qız övladı əta eləmişdi. Ata-ana bu qızların sevinci ilə yaşayaraq, daxilən, bir-birinə demədən, dillərinə gətirmədən daha bir övladın, oğul payının həsrətini kölgəli bir həvəslə çəkirdilər. O oğul

payı gec, çox gec, on dörd ildən sonra gəldi. Gözlənilmədən, Tanrının daha xoş bir bəxşişi, mükafatı kimi...

Uşağın adını Əli qoydular.

*Elçin beylə, Afet hanım, ocağınız odlu olsun,*
*Güzel Aydan, güzel Ayşen,*
*kardaşınız kutlu olsun,*
*Dedem Korkud dile gelip*
*boy boylasın, soy soylasın,*
*"Elinde Zülfukarıyla bunun adı Ali olsun!..."*

Gözlənilmədən Tanrı tərəfindən göndərilən bu oğul bəxşişinin adının Əli qoyulmasının haradan qaynaqlandığını bilmirəm. Hər halda, Əli adı elə- belə ad deyildi, Allahın çox bəyəndiyi, qiymət verdiyi bəşər övladlarından (bəlkə də bəşər övladlarının fövqündə dayanan) birinin adı idi. Bəlkə bu adı yuxuda pıçıldamışdılar onlara? Bəlkə Əlidən başqa heç bir ad qoymaq olmazdı bu uşağa, bilmirəm. Ancaq onu bilirəm ki, bu müqəddəs adın cazibəsində, işığında, nurunda böyüyüb boy atan bu oğlanı Tanrı himayəsində saxlayacaq, qoruyacaq və al sabahlara aparıb çıxaracaqdı. Yəqin elə bunları düşünüb türk şairi Osman Oktay bu şeiri Əlinin adına bağlamışdı.

...Aydanın toy mərasimində Əlinin bacısı üçün gətirdiyi böyük gül çələngini görəndə, bunu Əlinin bacısına uşaqlıq vaxtı elədiyi yaxşılığın bir əvəzi və minnətdarlığı kimi qəbul elədim nəyə görəsə...

Əlinin dünyaya gəlişi Elçin müəllimin qələmini də həvəsə gətirmişdi. O, bir qərib gecə şirin yuxusundan oyanıb, oğlunun adına poema yazmışdı. Demək olar ki, bir nəfəsə, dayanmadan, yorulmadan... Adını da "Oğlum Əliyə dualar" qoymuşdu.



*Beşiyinin başında*
*anan laylay çalanda,*
*laylay səsi həzin-həzin*
*enəndə, alçalanda-*
*mən Şaman duaları*
*pıçıldamışam sənə.*
*Yuxuda şirin-şirin*
*gülümsəyirsən yenə.*
*İlahi bir təbəssüm*
*çiçəkləyir üzündə.*
*Röyada at çapırsan*
*bəlkə Cıdır düzündə?*
*Bəlkə Tanrı dağları*
*girir sənin röyana?*
*Sən yat, keşik çəkirəm*
*oğlum sənin dünyana.*

Səbail rayonundakı 160 saylı gimnaziyanın 3-cü sinfində əla qiymətlərlə təhsil alan Əlinin genetik koddan bəhrələnərək gələcəkdə atası kimi elm adamı olacağına da məndə qəti və qəribə bir inam var. Əgər gələcək günlərin birində Əli Elçinoğlu İsgəndər adlı birinin adını böyük elm adamlarının sırasında görsəniz, buna qətiyyən təəccüblənməyin. Ona görə yox ki, mental hisslərdən gələn bir duyğuyla o, atasının yoluyla getməlidir. Ona görə ki, o, əsl elm fədaisinin qan yaddaşında yoğrulub. Və belə insanların böyük alim olmalarına mən təəccüb eləmirəm.

*Sən Turan ellərini*
*gəz-dolan qarış-qarış.*
*Sənin əcdadlarındı*
*Dədə Qorqud, Gilqamış.*

*Bir tərəfdə Atilla,*
*bir yanda Bilgə Xaqan.*
*Bayraqları bayraq edən*
*üstündəki qandı, qan.*

*Sən Şaman duasıyla*
*uyumusan, yatmısan.*
*Sən "Cəngi" havasıyla*
*böyüyüb, boy atmısan.*

Elçin müəllim bu dünyada çox şeylər qazanıb. Ad-san, şan-şöhrət, var-dövlət... Ancaq onun ən böyük qazancı, elə bilirəm övladlarıdır. Ona görə ki, o övladlar öz kökü üstündə bitiblər və inanıram ki, onlar Elçin müəllimin ləyaqət və şərəfinə bir damcı da olsun ləkə gətirməyiblər. Və gətirməyəcəklər də! Günəşin çıxışından günün necə olacağı bilindiyi kimi bu övladların da necə olacaqları "səhər çağlarından" görünür. Görünənə isə şərhlər verməyə ehtiyac qalmır.



## "İLHAM"DAN GƏLƏN İLHAM

Görkəmli söz adamı, həm də gözəl insan Qərib Mehdi keçən əsrin səksəninci illərinin sonunda Gəncədə bir ədəbi dərnək yaratmışdı. Adı "İlham" olan bu dərnəyin məramı çox xeyirhax bir işdən xəbər verirdi. Məqsəd nə idi? İlk növbədə Gəncə və Gəncəbasar bölgəsinin söz adamlarını bir yerə toplamaq, onların ədəbi qabiliyyət və istedadlarını üzə çıxarmaq, yaxşı yazanlarla pis yazanları süzgəcdən keçirərək, ədəbi mühitə töhvə vermək. İkincisi, yaza bilən, ancaq yazdıqlarını ədəbi ictimaiyyətə təqdim etməkdə əziyyət çəkənlərin kitablarının çap olunmasına köməklik göstərmək. Məram çox ulu məqsədlərdən xəbər verirdi. O vaxtlar "İlham" ədəbi dərnəyinə üzv olan, gələn, yazdıqlarını təqdim edən qələm sahiblərində elə bir ruh, elə bir inam var idi ki... Sanki susuzluqdan dodaqları cadar-cadar olmuş canlıya su verirdin. Təşnə kimi bu suyu ciyərlərinə çəkən adamlar bir daha sözün müqəddəs və İlahi bir hiss olduğuna inanırdılar. Elə bil, qələm də "İlham"a gələnlərin əlində gülümsəyirdi. Sözlər pardaxlanıb çiçək açır, gülünün, qönçəsinin ətrindən insanlar meyxoş olurmuş kimi öz dünyalarından çəkilib, başqa dünyanın sakini olurdular.

Allah "ol" deyərək bu dünyanı yaratmışdı. Demək, bu dünya sözün üstündə qurulub. Bu müqəddəs sözə yiyə durmaq, yiyəlik edərək kəsərsizliyinin qarşısını almaq elə Tanrıya xidmət eləmək kimi bir şeydi. Sözün qüdrəti insanı var edəndisə, sözün qiymətdən düşməsi dünyanın laxlaması,

sınması kimi bir şeydi və bu ucalıqdan alçaqlığa enməmək missiyasını böyük insanlar öz üzərlərinə götürürlər. O vaxtlar, dünyanın qatmaqarışıq zamanında Qərib Mehdi də belə bir ağır missiyanı öz üzərinə götürdü. Sözün hər kəlməsi, hər deyilişi Qərib Mehdi üçün bir xüsusi anlam daşıyırdı. Və bu xüsusda kimsə sözə xəyanət eləmək yolu tuturdusa elə o andaca Qərib Mehdi tərəfindən dərnəkdən uzaqlaşdırılırdı.

Dərnəyə təşrif buyuranlar arasında çox istedadlı qələm sahibləri də var idi. Musa Urud, Nizami Aydın, Qəşəm Nəcəfzadə, Sərvaz Hüseynoğlu, Xəzangül... Bir də bu istedadlıların sırasında Elçin İsgəndər(zadə) var idi. Yeri gəlmişkən, Elçin müəllimin soyad sonluğunu mötərizəyə almağımın səbəbini sizə deyim. Mən məqalələrimin birində də bu barədə danışmışdım. Yazmışdım ki, nə qədər axtarsam da bu adamda, yəni Elçin müəllimdə bir səhv cəhət tapıb üzə çıxara bilməmişəm. Yalnız birindən başqa. Bu da onun soyad sonluğu ilə bağlıdır. Bilirsiniz ki, ruslar -ov, -yev soyad sonluqlarını özəlləşdirdikləri kimi, farslar da -zadə soyad sonluğunu özününküləşdiriblər. Əslinə qalanda, dərinliklərə gedəndə -ov (ev) -zadə(oğlu) sözləri də qədim türklərə məxsusdu. Lakin əgər onlar özlərinə rəva görüb, bu sözləri özlərininki ediblərsə, gərək biz də ehtiyatlı olaq. Gələcək üçün müşküllər saxlamayaq. Bu gün fars Nizami Gəncəviyə utanıb, qızarmadan fars şairi deyirsə, sabah o fars Elçin İsgəndərzadəyə də fars alimi, şairi deyə təqdim edəcək. Buna görə mən həmişə Elçin İsgəndər(zadə)dən üzr istəyərək, hər vaxt onu Elçin İsgəndər kimi təqdim etmək istəmişəm.

Nə isə, bunları söz gəldi, dedim. Yenə mövzuya qayıdaraq, "İlham" ədəbi dərnəyinin ilham verdiyi şairlərin sonrakı durumlarına nəzər salmağı lazım bilirəm. Bayaq adlarını qeyd elədiyim və etmədiyim onlarca qələm sahibi bu



dərnəyin fəaliyyəti nəticəsində üzə çıxdılar, tanındılar, sevildilər, oxucu rəğbəti qazandılar. Təkcə kitabımızın qəhrəmanı haqqında danışsaq, o dərnəyin, həm də Qərib Mehdinin gördüyü işlərin ucalığından deməyə yetərincə söz tapmaq olar.

Qərib Mehdinin özü ümumən oxucu məhəbbəti qazanan, tanınan, üzdə olan yazarlarımızdan biridir. Qələmindən çıxan bədii nümunələrlə sözə ilməli naxış hörən bu qələm adamı sözsüz ki, Azərbaycan ədəbiyyatı tarixində öz imzası ilə qalacaq. Onu yaşadan bir də yaratdığı, uzun illər rəhbərlik elədiyi "İlham" ədəb dərnəyinin parlaq işığı olacaq ki, bu işığın sayəsində çox qaranlıqlara nur yağışları yağıb.

Elçin İsgəndər bu dərnəyə gələnə qədər artıq söz kəhkəşanının ənginliklərinə baş vurmuşdu. Yuxarıda dediyim kimi on yaşından şeir yazmağa həvəs göstərirdi. Ancaq onun cilalanması, sözün sehrinə baş vurması üçün hansısa şeir dərnəyinə getməyi, yazdıqlarının bir şeyə yarayıb, yaramadığını bilməyi çox vacib idi. Axı adamlar özlərini çox vaxt tanımırlar. Bəzən çox zəif adam özünü çox güclü sanır və yaxud yazmağın texnikasını, vəznini, qayda-qanununu, demək olar ki, heç nəyini bilməyən adam özünü böyük qələm əhli hesab edir. Onların forsundan, ədasından, yerişindən, duruşundan xoflanırsan. Və beləcə sözə qarşı səndə ikili hisslər yaranır. Elə belələrinin səbəbindəndir ki, yaxşı yazanla pis yazanı oxucu ayırmaqda çətinlik çəkir. Belədə yazarın özü də, sözü də ucalıqdan düşür, hörmətsiz olur. Vaqif Səmədoğlunun Moşu Göyəzənli kimi "şairləri" çox vaxt adamları elə çaşdırır ki, nadan adamlar Moşu Göyəzənlinin timsalında klassik və dahi söz adamlarımıza da elə "şair" kimi baxırlar.

Sözlə uğraşmaq Tanrı ilə insan arasında səssiz rabitənin ən bariz nümunəsidir. Elə ona görə əbəs yerə demirlər ki, söz

adamları Tanrının yerdəki elçiləridir. Bu elçiləri urvatdan salmaq insanlıq adına qara ləkə yaxmaq kimi bir şeydi. Bu mənada bayaq qeyd elədiyim dərnəklərə, o dərnəklərə rəhbərlik edən qərib mehdilərə və qərib mehdilərin əlindən su içən elçin isgəndərlərə hər zaman ehtiyac olub və olacaq da.

*Mənim bu gecəyə çox umudum var-*
*bu gecə ulduzlar çiçəkləyəcək.*
*Alçalar gül açdı, yenə bu bahar-*
*sevənlər, aşiqlər gerçəkləyəcək.*

*Mənim bu gecəyə çox umudum var-*
*bu gecə durnalar lələk salacaq.*
*Bu gecə dağlara qar yağacaq, qar,*
*bəyaz qar üstündə bir iz qalacaq.*

Əgər o vaxta qədər Elçin İsgəndər yazdığı şeirlərə bir könül pıçıltısı, damardan axan şəlalə səsinin həzin nəğməsi kimi baxırdısa, bu dərnəyin üzvü olandan sonra şeirə olan münasibəti tamamilə dəyişdi. Şeir yazmağın elə-belə bir iş olmadığının fərqinə vardı. Elə-belə şeiri məktəb vaxtı sevdiyin qıza yaza bilərsən. Uzaqbaşı, tay-tuşların üçün belə şeirləri pıçıldayarsan. Ciddi şeir yazmaq ciddi oxucu auditoriyası tələb edir. Bu ciddilikdən bir az sapan kimi sarvanın karvandan olan birini yolun ortasında qoyub getməyi kimi bir şeyə bənzəyir. Yolun ortasında qalan sarvansız yolçu isə rəndini, izini itirmiş kimi çırpınar, özünə yol tapa bilməz, beləcə, dünyanın sağıyla solunu tapmaqda əziyyət çəkər. Bu yolçunu şair timsalında götürəndə isə bu şairin dediyi də bir qəpiyə dəyməz.



Şeir yazmağın ciddi bir iş olduğunu daha aydınlığı ilə dərk elədikcə Elçin İsgəndərin həyəcanı da çoxalırdı. Daha bütün könül duyğularını poetik ifadəyə çevirməyə tələsmirdi. Yazanda bütün duyğularını, hisslərini cana gətirib, onlara qan verəndən sonra qələmini əlinə alırdı.

Dərnəyə üzv olanlar növbə ilə irəli çıxır, bütün ruhları ilə yazdıqlarını oxuyurdular. Bundan sonra Qərib Mehdi öz münasibətini bildirirdi. Tənqid də edirdi, tərif də deyirdi. Amma hər zaman onun tənqidləri tərifindən çox olurdu. Elə bil, bununla o, gənc yazarlara daha çox işləməyin, daha çox əziyyət çəkməyin, poetik aləmin zənginliyinə daha ürəklə baş vurmağın lazım olduğunu çatdırırdı. Axı o, çox ağıllı adam idi, bilirdi ki, əndazədən artıq tərif bunları şair edə bilməyəcək. Bu adamlarda lovğalıq yaranacaq və bu lovğalıqla şairlik arasında çox böyük əks-mütanasiblik olduğunu da bilirdi.

*Dövrə vurur qağayılar*
*içimdəki təlatüm dənizində.*
*Sahilə çırpılmış bir balıq kimi*
*dərd çabalayır*
*soluxmuş bənizimdə.*
*Son ümid can verir*
*ürəyimin tənhalığında-*
*kimsəsiz qürbət hücrəsində.*

Elçin İsgəndərin belə şeirlərindən sonra Qərib Mehdinin üzündəki qəribə ifadələr, sözün təsirinə düşməsi apaydınca sezilirdi. Dilinə gətirməyə ürəyi gəlməsə də, gözlərinin aynasında bu şeirlərin ruhuna sığal çəkdiyi hiss olunurdu. Və bir dəfə dözə bilməyib, onu tərif yağışına tutdu.

-Əhsən sənə, şair! Şeirlərinin ruhu o qədər qəribədir ki, adamın özünü-özündən alıb, tənha, kimsəsiz sirlər adasına çəkib aparır.

Səhv eləmirdisə, ona bəlkə də birinci dəfəydi şair deyirdilər. Yar-yoldaşları, dost-tanışları bu sözü ona demişdilər. Ancaq o adamların, şeirin mənasını bilməyənlərin ona şair deməyi ilə onun şair olması mümkün deyildi. Qərib Mehdinin ona şair deməyi isə... Bax, bu başqa məsələydi. Elə ona görə eşitdiyi bu şair sözündən qəlbi riqqətə gəldi, ürəyinin döyüntüsü artdı, sanki qəlbi böyüyüb sinəsinə, köksünə sığmadı.

O gecə səhərə qədər yata da bilmədi. Elə bil, Qərib Mehdinin ona dediyi şair sözünün sehrinə düşmüşdü. Başqa bir tərəfdən çiyninə qoyulan böyük məsuliyyət hissi idi onu rahat buraxmayan. Axı dünənə qədər o, özünü yazan bilirdi, dünən isə ona şair dedilər. Bu adam indi insanların arasına da başqa cür çıxmalıydı. Yerişinə-duruşuna da başqa yön, məna verməliydi.

Və onun üçün çətin olsa da, gedib bu sözü ona deməliydi. Dostuna, yaxınına, çox hörmət elədiyi adama... Məmməd Araza...



## ARAZLARIN ARAZ BOYDA DƏRDİ VAR

Dünyanın ən qüdrətli və ecazkar şairlərindən biri sandığı Məmməd Arazı 1983-cü ildən bəri tanıyırdı. Təsadüfi bir görüş onları yaxın eləmişdi. Tez-tez görüşür, dərdləşirdilər. Çox vaxt Məmməd Arazın işlədiyi “Azərbaycan təbiəti” jurnalının redaksiyasında, şairin kabinetində görüşürdülər. Hərdən də onların evinə gedirdi. Məmməd Araz bir neçə gün işə çıxmayanda ondan nigaran qalırdı. Şairdən xəbər tutmaq, bir az zəif, xəstəhal səsini eşidib, toxtamaq üçün onun yaşadığı evə baş vururdu.

Məmməd Arazla söhbəti tuturdu Elçin müəllimin. Çox zaman bu söhbətlərin qayəsini Araz çayı, çayın o tərəfində qalan zavallı soydaşlarımız təşkil edirdi. Bu zavallı sözünü işlədəndə hərdən şair onun sözünü kəsirdi:

-Bəs biz zavallı deyilik? Onlar farsın nökəridi, biz də rusun.

Belə olanda Elçin müəllim başını aşağı dikirdi. Deyilən düz sözün qarşısında bundan düzgün və məntiqli yol tapa bilmirdi. Amma orası çox qəribəydi ki, bu sözləri eşidəndə Elçin müəllim nədənsə özünü də günahkar bilirdi. Bəlkə Məmməd Arazın deyimində bu günahkarlığın simptomu sezilirdi? Bəlkə Məmməd Araz zəif, xəstəhal olduğunu dilinə gətirməsə də, bununla onu demək istəyirdi ki, sizlər nə isə edə bilərsiniz, daha bizim karvanımız keçib?! Hər nə idisə, daxilən, qəlbinin lap dərinliyində şairin dilinə gətirmədiyi sözlərə haqq qazandırırdı özlüyündə.

Araz boyda dərdi olan çayın içərisində şaxələnmiş çinar olmağın da çox böyük zülmü var. Bir yana boylananda rusun hövrü, əmri, dəyənək səsi, o biri yana baxanda farsın qatmaqarışıq siyasi oyunları, dar ağacına aparan darməcal yolları... O da ağrı, bu da ağrı... O da sızıltı, dağları dələn ah-nalə sədası, bu da...

Bir dəfə məhrəm söhbətlərinin birində Elçin Məmməd Arazı "qınadı".

-Ay ustad, bəs bilmirdinmi, Araz təxəllüsünü daşımaq asan olmayacaq?

Məmməd Araz dinməmişdi onda. Beləcə səssiz fəryadla gənc oğlanın üzünə baxıb dayanmışdı. Belə dayanıb baxmağın mənası nəydi görəsən? Bəlkə daxilən fırtına qoparıb, ona etiraz eləmək, əgər Arazı təxəllüsümüzdə də daşımağa gücümüz çatmayacaqsa, onda bizdən nə millət-demək istəmişdi ustad? Ya bəlkə içində olan bütün hirsini-hikkəsini dilinə gətirib, bu cavan oğlanın şəxsində gəncliyi qınamaq istəmişdi? Bəlkə də... Axı o zamanlar Arazın yanında özünü günahkar sayanlardan biri də Elçinin özü idi. Məcal düşəndə Arazdan bir az aralı dayanıb, onunla daxilən söhbətləşərdi.

"-Bizi nə qədər qınayırsan qına. Boynumuz yanında qıldan nazikdir. Biz ayrılanda hicranın bu qədər çəkəcəyini sənə deməmişdik axı. Sən də bir ana kimi bizlərə inanıb, vüsal nəğməsinin çalınacağı günü gözləmişdin. Beş il, on il, əlli il, yüz il... Day bu qədər yox ki... Hərdən o qədər kinli görünürsən ki gözümə, dünya gözümdə heçə dönür. Bağışla bizi. Sil gözünün yaşını. Və inan ki, biz bir gün gələcəyik. Vüsal nəğməsi çaldırıb, sənin göz yaşını siləcəyik."



Məmməd Arazın keçirdiyi ağır xəstəlikdən dolayı nitqində çətinliklər vardı. Amma onu anlamaqda Elçin qətiyyən əziyyət çəkmirdi. Bəlkə Məmməd Arazın dili poeziya dili olduğuna görə Elçin onu asan başa düşürdü? Axı poeziyanın dili başqa, tamam başqa cür olur. Elçin də bu dilə kökləndiyinə görə onu anlayırdı. Lakin hələ poeziyaya məcnun olduğunu böyük şairə deməmişdi. Utanırdı deməyə. Çəkinirdi. Axı o boyda dahi şairin yanında durub necə deyəydi ki, mən də şeir yazıram? Ancaq deyəsən, çox ayıq olan şair onun haralara getdiyini anlamışdı. Bir gün özü soruşdu ondan:

-Bala, bir şey soruşacam səndən.

Elçinin, elə bil, içinə titrətmə gəld:

-Soruş, ustad.

-Mənə düzünü de, şeir yazırsan?

Elçin başını aşağı saldı. Və necə oldusa, o anda ustad haqqında hələ düşüncəsində dolaşan poemanın bəndləri qəlbinin tellərində gəzişdi.

*Araz axır-*
*su ağlayır, cağlayır,*
*Araz axır...*
*Yolumuzu bağlayır...*
*Hər şairin ömründən*
*bir Araz çayı axır,*
*hər şairin ürəyində*
*min illərin*
*hayı-harayı axır,*
*axır,axır, durulur.*

...Bu ürək çırpıntıları hələ iyirmi, otuz ildən sonra kitabda bağlanıb oxuculara təqdim olunacaqdı. O zaman ki,

onda Elçin İsgəndər bir yetgin şair kimi ad çıxarıb, eldə, obada, eldən, obadan çox-çox uzaqlarda da tanınmışdı...

İndi isə utancaq və kövrək duyğular bütün vücudunda dolaşaraq, onu böyük ustadın qarşısında çıxılmaz vəziyyətdə qoymuşdu. Bir yandan yazdığını dilinə gətirməyə cürəti çatmırdı, o biri yandan da daxilində olan ikinci hiss ona şairin yanında danışmağı diqtə edirdi... Bütün gücünü taplayıb, sonda ikinci hissinin sözünə qulaq asdı.

-Hə, Məmməd əmi, yazıram.

Məmməd Araz heyrətlə onun üzünə baxdı.

-Bəs mənə niyə demirdin, bala?

-Utanırdım.

-Niyə ki?

-Axı sizin kimi böyük şairin yanında şeir yazıram demək asan məsələ deyil.

Məmməd Araz qəribə tərzdə gülümsəyib əlini onun çiyninə qoydu.

-Elə şeirə belə məsuliyyətlə yanaşırsansa, demək, səndən yazan olar... Gətir şeirlərinə baxım.

Növbəti görüşündə qalın dəftərə yazdığı şeirlərini əlləri titrəyə-titrəyə Məmməd Araza gətirib verdi.

Bu söhbətdən bir müddət ötmüşdü. Şairdən və şeirlərindən hələ xəbər yox idi. Ustadın yanına getməyə də ayağı gəlmirdi. Qorxurdu birdən şair onun ümidlərini qırar, deyər, səndən yazan olmaz. Ancaq bir səhər ruhunda inam göyərdib, şairin yanına getdi. Şair onu çox gülərüz qarşıladı.

-Niyə səsin, sorağın yoxdu, bala?

-Bir az başım qarışıqdı. Dərslər, imtahanlar...

-Bu gün qəzet almısan?

-Hansı qəzeti?

-"Azərbaycan gəncləri"ni.

-Yox. hələ almamışam. Orda nə var ki?



-Heç, elə-belə. Gənclərin qəzetidir də. Oxumaq lazlmdır... Bir də bu günkü nömrədə mənim bir yazım çıxıb, alıb ona baxarsan.

-Baş üstə, alıb oxuyaram.

Yenə də xəyalında dolanan poetik hisslər onu silkələməyə başladı.

*Mənim yurdum, vətənim*
*boz qayalar yurdudu.*
*Araz sahili boyu*
*qayalar bir ordudu.*
*Hər qayanın üstündə*
*bir qartal yuvası var.*
*Bu gün mənim könlümdə*
*Məmməd Araz havası var.*
*Məmməd Araz havasına*
*oynayır sərt qayalar.*
*Yüz illərin sınağından*
*çıxıb bu mərd qayalar.*

-Nə oldu, niyə xəyallandın belə?

Şairin sözlərindən diksinib, poetik dünyasından geri qayitdı.

-Yox, elə-belə...

-Qəzetdəki yazını oxuyandan sonra gələrsən yanıma.

Bu sözlər Elçini bir az da şübhəyə saldı. O qəzetdə nə yazılıb görəsən? Özünü o qədər itirdi ki, şairə verdiyi şeirləri haqqında bir şey soruşmadı. "Azərbaycan gəncləri" qəzetini alanda isə... İlahi, bu nə idi? Məmməd Araz ona "Uğurlu yol" yazmış və iki şeirini oxuculara təqdim eləmişdi.

Ömründə keçirmədiyi qəribə hisslərin ağuşuna düşmüşdü. Nə edəcəyini bilmirdi. Göydə, əngin səmalarda

süzürmüş kimi ucalıqlarda dolaşır, hamının onu görməsini istəyirdi. Asan məsələ deyildi axı; respublikanın ən oxunaqlı qəzetində şeirləri dərc olunmuşdu. Özü də o şeirlərin fonunda ona kim uğurlu yol diləmişdi? Məmməd Araz... Bu bütöv bir gəncliyin xəyal və arzularının fövqündə dayanan bir istək idi.

Hər qarşısına çıxan onu təbrik edirdi. Bu gün onun günü idi. Və o, öz günündə bir daha ustadın yanına gedib, onu bağrına basmaq istəyirdi.

Məmməd Araz da onu təbrik elədi. İndi də üzbəüz ona uğurlu yol dilədi:

-Bala, ya yazma, ya da yazanda yaxşı yaz. Qələmə xəyanət eləmək olmaz. İnanıram ki, sən Sözün ucalıqlarına baş vurmağı bacaracaqsan. Uğurlar olsun sənə!

Elçin bir daha ustad şairi bağrına basdı. Və nədənsə kövrəldi. Kövrəldiyini gizlətmək üçün uca səslə şairin məşhur şerindən bir bənd dedi:

*Azərbaycan, mayası nur, qayəsi nur ki-*
*Hər daşından alov dilli ox ola bilər.*
*Azərbaycan deyiləndə ayağa dur ki-*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Bir neçə il ötəcək və Məmməd Araz Elçinin kitabına ön söz də yazacaqdı. “Müqəddəs görüş” kitabına. O ön söz yazılan kitab Elçinin üçüncü kitabı olsa da, onun üçün, bəlkə də, indiyə qədər dərc olunan və bundan sonra dərc olunacaq bütün kitabları arasında öz məhrəmliyi ilə seçiləcəkdi:

“Bədii, poetik sözün ilahi dəyəri hamıya bəllidir. Bədii sözün dəyərini, qiymətini bilənləri Söz həmişə müqəddəs ucalığa yüksəldib və bu barədə də çox deyilib, çox eşidilib. Şübhəsiz ki, həmin yüksəlişin poetik məkanını



müəyyənləşdirən Allah vergisidir, Allah bilgisidir. Bu baxımdan gənc şair Elçin İsgəndərzadənin poetik ilham mayasının Allah vergisi olmasını mən çoxdan, lap əzəldən duyub, hiss etmişdim. Elə ona görə də, bu çətin, şərəfli yaradıcılıq yolunda ona ilk uğuru, ilk xeyir-duanı da mən demişdim, mən yazmışdım.

Görünür, yanılmamışam. Şeirdən-şeirə, kitabdan-kitaba Elçin sözün qədir-qiymətini bilə-bilə, artıra-artıra irəliləyib, isdedadı cilalanıb, qələmi bülövlənib, haradasa mənim etimadımı doğruldub:

*Son övladın-son şəhidin,*
*Nə sızlayıb, nə də ki, din.*
*Haçan övlad dərdi çəkdin,-*
*Bənövşən baş qaldıracaq,*
*Övladın olmağa Vətən!*

Yaxud:

*Vətənim, torpağım gülməyir üzün*
*Payladılar səni, hey tikə-tikə.*
*Xətai qılıncı gərəkdir indi-*
*Bu yurdun yenidən sərhədin çəkə!*

Elçinin şeirlərində Vətənə, torpağa doğma, məlhəm münasibət bütün tarixi çalarlarla, yəni onun dünəninə baxış, bu gününə qayğı və sabahına narahatlıq hissləri, vətəndaşlıq yanğısı ilə poetik şəkildə əks olunur. Sayı gündən-günə çoxalan səfil və dilənçi uşaqlarımıza həsr etdiyi şerində olduğu kimi:

*Adı nə evdə var, nə də məktəbdə,*
*Hamının yadından çıxmaq olarmı?*
*Sabahı dilənən bir məmləkətdə*
*Bu gün yaşamağa haqqımız varmı?!*

Elçinin doğulub boya-başa çatdığı Qarabağ torpağının başına gətirilən faciələri əks etdirən şeirləri ilə yanaşı, Vətənin miqyasca heç də ondan əskik olmayan digər dərdlərinə-unutqanlığa, biganəliyə, rüşvətxorluğa, haqsızlığa və digər bu kimi ictimai-sosial bəlalara həsr etdiyi şeirləri də obrazlı, yaddaqalan və təsiredicidir. Bu şeirlərin hamısına Vətən üçün yanan bir ürəyin poetik çırpıntıları, mənəvi narahatlığı əks etdirən döyüntülər də demək olar.

Bütünlükdə Elçin İsgəndərzadə şeiri Vətənə, yurda, insanlığa və onların xoş gələcəyinə bağlı səmimi, gənc ziyalı-vətəndaş ürəyinin yaşantıları, çırpıntılarıdır, dəyərli bir istedaddan xəbər verən misraların-işıqlı, həlim, isti, təbii, insani duyğuları əks etdirən ürəyin döyüntüləridir. Az-az hallar olur ki, mən bir dediyimin üzərinə təkrar qayıdam. Yaradıcılığımda da beləyəm, həyatda da bu cürəm. Amma istedad olan yerdə insanın daxili qızınır, istilənir, ürəyinin dərinliyində səni nəsə tərpədir.

Elçinin oxucularla üçüncü görüşü olan bu kitabdakı şeirləri oxuyanda belə bir hal keçirdim. Doğrusu sevindim. Ona görə də təkrar olsa da, deyim ki, ilk müşahidələrimdə yanılmamışam. Və elə ona görə ehtiyac duydum ki, Elçinin oxucularla üçüncü müqəddəs görüşü olan bu kitabını uğurlayım, qutlayım.

Elçin İsgəndərzadə sözün həqiqi mənasında istedadlı gənclərimizdəndir. Orta məktəbi qızıl medalla bitirib, texniki elmlər sahəsində müvəffəqiyyətlər qazanıb, texnika elmləri namizədi, dosentdir, bu gün-sabah doktor olacaq. Elə öz peşə



yönümü ilə irəliləsəydi və irəliləyir də, xalqımızın layiqli bir ziyalısı olaraq tanınacaqdı (tanınır da!). Amma görünür poeziyanın sehrinə düşüb, poetik sözün ovsunu onun qəlbini, ürəyini ovsunlayıb, sehrləyib. Elə bu sehrin, ovsunun işığında alim-pedaqoq Elçin İsgəndərzadə dönüb şair Elçin olub.

Yaxşı ki, belə olub! Elçinin şairliyində istilik, məhəbbət, torpağa, Vətənə bağlılıq daha güclüdür. Onun poetik yaradıcılığının əsas motivini yurd sevgisi, Vətən yanğısı, əsl Vətəndaşlıq qayəsi, bir sözlə, Vətən-Vətəndaşlıq mövzusu təşkil edir. Bu mövzu bütün istedadlı şairlərin yaradıcılığında aparıcı, əsas motivdir. Amma Vətən üçün hərənin öz müqəddəs məhəbbəti, müqəddəs nəfəsi, sözü var.

Elçinin şeirlərində nikbin, amma kədər notları ilə naxışlanmış, kövrək bir nisgil var. Qarabağ - Şuşa, Ağdam nisgili. Elçin əslən Qarabağdandır və bu dərdi, nisgili o, daha fərqli daşıyır, yanğılı misralara çevirir.

Əziz oxucu! Yəqin ki, mənə inanırsan və inanmısan. Bu inama söykənərək Sizlərə gənc, istedadlı bir şairin kitabını təqdim edirəm. Sizə də, ona da yeni-yeni uğurlar diləyirəm. Elçin həmişə həyat həqiqətinə arxalanıb, şeirini həqiqətlə mayalandırıb. Bu kitabı da, onun həqiqi istedadının yeni təqdimatıdır. O, şeirlərinin birində belə yazıb:

*Həqiqət nazilər, üzülməz fəqət,*
*Həqiqət mənimçün hava, su, çörək,*
*Həyat həqiqətdən başlanır, ürək,*
*Mənim bəxt ulduzum doğacaq bir gün.*

Mən həm Sizlərə, həm də Elçinə bildirmək istəyirəm ki, onun “bəxt ulduzu” çoxdan doğub və bizim çağdaş şeirimizin bəxti də onda gətirib ki, Elçin kimi yeni-yeni

istedadlar, təzə-tər poetik nəfəslər ədəbiyyatımıza gəlməkdədir. İnanıram ki, Elçin İsgəndərzadə “torpağı göylərə sovrulan xalqın”, “dünyada təklənib, qovrulan xalqın” ləyaqətli şair oğlu olacaq və elə bir gün gələcək ki, Tanrı onu Şuşa adlı, Ağdam adlı, küllü Qarabağ adlı yurduna yetirəcək. Onun şair duası müstəcəb olacaqdır.

Mən də sənin bu duana qoşuluram, Elçin!”

O gündən sonra qəlbində dolaşan Məmməd Araz nağılı poetik sədası ilə hər gün könlünə sığal çəkdi.

*Məmməd Araz qonaq idi Şuşada...*
*Aradan illər, sənələr ötüb*
*hələ də bu şairin gur səsi qalıb*
*qayaların, dağların qulağında.*
*Şairin köksündə ilham bulağı*
*qaynayırdı,*
*daşırdı.*
*Məmməd Araz o gecə*
*dağlarla pıçıldaşırdı.*

Elçin İsgəndərin yaddaşında Məmməd Arazlı illər şirin bir nağıl kimi özünə ölməzlik qazandı. O, şair zirvəsinə ucaldığına görə hər zaman Məmməd Arazı şükranla anıb, sağlığında adına, ölümündən sonra ruhuna dualar oxudu.



## TÜRK DÜNYASININ DENKTAŞI

Kuzey Kıbrıs Türk Cümhuriyyəti... Bu ada dövlətini düşünəndə, türkün əzəməti insanın gözləri önünə gəlir. Metedən, Atilladan, Atatürkdən üzü bəriyə nə qədər türk qəhrəmanları olub. O qəhrəmanlar ki, heç nədən dövlət qurublar. O qəhrəmanlar ki, az qala bütün dünyanın düşmən nəzəri altında öz atlarını dördnala çaparaq bu qəhrəman etnosun ölməzliyini sübuta yetiriblər. Belə azman qəhrəmanlardan biri də Rauf Denktaş... Adada baş verən dəhşətlərdən sarsılan və bir gecədə qərar qəbul edərək, adaya qoşun yeridən baş bakan Bülənt Ecevitin elan etdiyi dövlətin sükanı arxasına keçən böyük türk oğlu. Bütün dünyanın yad baxışları altında bu sükanı saxlamaq heç də asan iş deyildi. Bu sükanı saxlamaq üçün insandan böyük dözüm və iradə tələb olunurdu. Bəlkə də bu yaranan dövlətin başında zəif bir lider dayansaydı, düşmənin məkr və qəzəbi qarşısında əriyər, yox olar, ən azı taxtını-tacını qoyub, sakitliyə, tənhalığa çəkilərdi. Amma Rauf Denktaş çəkilmədi. Geriyə addım atmadı. Hələ bir az da qabağa gedərək, bu dövlətin ayaq üstə dayanmsına nail oldu. Çünki o, məğrur və yenilməz başçı idi.

Elçin İsgəndər həmişə türkün əzəmət və yenilməzliyini düşünəndə, bu əzəmət və yenilməzliyin fonunda Rauf Denktaşın da surətini görürdü. Və hər zaman onu hörmətlə anıb, bir zaman onunla görüşmək həvəsi və həsrətiylə yaşayırdı. Tale elə gətirdi ki... Deyir, insan ən ağılagəlməz bir arzunun həyata keçmək şövqü ilə yaşayırsa, bir gün o

arzusu həyata keçir. Bəlkə elə o görüşün tarixçəsi də o dəruni istəyin şövqündən yaranmışdı!.. Hər nə isə, olan olmuş, böyük arzusu həyata keçmişdi.

Kıbrıs Türk Cümhuriyyətində bir vəqf fəaliyyət göstərirdi. KIBATEK, yəni, Kıbrıs, Balkanlar, Avroasiya Türk Edebiyyatları Kurumu adı alan bu qurum çox böyük işlərlə məşğul olurdu. İlk növbədə Kıbrısı bir cümhuriyyət kimi dünyaya təqdim etmək, tanıtmaq vəqfin əsas məramlarından biri idi. Bu vəqfdə çox görkəmli simalar toplanmışdılar. O simalardan biri də İsmayıl Bozkurt idi. Vəqfə rəhbərlik edən İsmayıl Bozkurt Rauf Denktaşın ən yaxın silahdaşlarından biri kimi tanınmışdı. İyirmi il Kıbrıs parlamentinin deputatı olan, sonra uzun illər Kıbrıs Cümhuriyyətinin mədəniyyət naziri kimi çalışan bu adam, sözün həqiqi mənasında, başdan-ayağa türk idi və bütün həyatını Kıbrısın istiqlalına həsr eləmişdi.

KIBATEK-in nəzdində "Turnalar" dərgisi nəşr olunurdu. Bu dərginin sayəsində türk xalqları arasında ictimai-siyasi, mədəni əlaqələr genişlənirdi. Elə İsmayıl Bozkurtla Elçin İsgəndərin görüşü də bu əlaqələrin sayəsində mümkün olmuşdu. Onlar Ankarada, KIBATEK-in bir toplantısında görüşmüşdülər. Və bu görüşdən onların böyük dostluğu başlanmışdı. Bir az sonra "Vektor"un nəşri olan "Bayatı" dərgisi ilə "Turnalar"ın əməkdaşlığı da bu iki insanın yaxın münasibətindən bəhrələnərək, qardaş dərgilər kimi fəaliyyət göstərdilər. Bundan sonra bizim yazarların əsərləri "Turnalar"da dərc olunur, Kıbrıs yazarlarının əsərləri isə "Bayatı"da yayımlanaraq oxuculara çatdırılırdı.

"Vektor" nəşrlər evi bir çox türk yazarının kitablarını nəşr eləmişdi. Halid Fədai, Şövket Öznur, Orhun Bozkurt, Mahmut İslamoğlu, Mustafa Çəlik və onlarla başqaları... O vaxta qədər isə İsmayıl Bozkurtun bir neçə romanı dilimizə



uyğunlaşdırılaraq çap edilmişdi. O romanlardan biri də "Bəlkə də bir gün..." romanı idi. Bu romanda türk oğlu ilə rum qızının məhəbbətindən bəhs edilirdi. Bu əsər oxucular arasında çox böyük rezonans doğurmuşdu. İnsanlar bir daha sevginin qüdrətinə inanmış, bütün düşmənçiliklərə baxmayaraq, sevginin bütün sədləri aşmaq gücündə olduğuna əmin olmuşdular.

İsmayıl Bozkurtla Elçin İsgəndərin sıcaq münasibətindən yaranan bu ədəbi əlaqələrin səsi-sorağı sonralar gedib sayın cümhurbaşkanı Rauf Denktaşa da çatmışdı. Olduqca duyğusal insan olan Rauf bəy Elçin İsgəndərin kimliyi ilə maraqlanmış, sonda onu Lefkoşaya dəvət eləmişdi.

KıBrısın baş kəndi Lefkoşa Elçin İsgəndərin xəyallarının şəhəri idi. Hələ yeniyetmə olarkən, bu şəhər haqqında çox düşünmüşdü. Hətta öz poetik düşüncəsində də bu şəhəri vəsf eləmişdi. Hardan Lefkoşa haqqında yazılan məqalələr, şəkillər tapırdısa, acgözlüklə oxuyur, gördüklərini gözlərinin yaddaşına yığırdı. Nəyə görəsə bu şəhəri türkün tənhalıq və qəriblik şəhəri hesab edirdi. Bir də hər zaman düşmən nəzərindən çəkilməyən bir yurd yeri sanırdı. Düşünürdü ki, türk bir anlıq sayıqlığını itirsə, bu yerlərə dişlərini qıcımış düşmən bu başkəndə soxular, tari-mar edər, gücü çatsa, türkü qovub, bu yerlərə sahib çıxar.

Elə buna görə Rauf Denktaşın şəxsi dəvətini alanda sevincinin həddi-hüdudu olmadı. Bir yandan qəhrəman Rauf bəyi görəcəkdi, onun qonağı olacaqdı. O biri yandan xəyallarının şəhərində bir neçə gün mehman qalacaq, oxuduğu, şəklini gördüyü yerləri gəzib dolanacaq, sonsuz mənəvi ruh və həvəslə, bir də buralardan yazmaq ehtirası ilə geri dönəcəkdi.

Düz bir həftə Rauf bəyin qonağı oldu. Şəhəri gəzib-dolandı. Kıbrısın mədəni, elmi, ədəbi dairələri ilə görüşlər keçirdi.

Rauf Denktaşla bir həftəlik tarixi görüşü onun yaddaşında əbədilik silinməz iz saldı. Bu sadə dövlət başçısı ilə keçirdiyi hər saatın, hər günün önəmli olduğunu özü üçün bir daha təsdiq elədi və gələcəkdə bu görüşdən qalan xatirənin qələmdən çıxan vəsfinin indidən xəyalında cizgilərini cızdı.

Sayın cümhurbaşkanı onunla ilk görüşündə üzünü İsmayıl Bozkurta tutaraq:

-İsmayıl bəy, bizim cümhuriyyətlə bu qədər ilgilənən, yazarlarımızın əsərlərini Azərbaycanda təbliğ edən qəhrəman bəy əfəndimiz budurmu?-demişdi.

İsmayıl bəydən təsdiqini alandan sonra Elçin müəllimin boynunu qucaqlamış, onu sinəsinə sıxaraq sıcaq hisslərini, xoş duyğularını dilə gətirmişdi.

-Azərbaycan bizim üçün qardaş ölkə. Bu diyarı biz çox sevərik. Bu diyarın sevincinə sevinər, kədərinə kədərlənərik.

Belə görüşlərdən birində Rauf bəy öz fotoaparatı ilə onun şəklini çəkdi.

-Əfəndim, bilirsən, bilmirsən, mən əski fotoqrafçı olmuşam. Bu işdə yaxşı səriştəm var. Bu fotonu çəkdim ki, Bakıda hava atasan, fəxrlə deyəsən ki, sayın cümhurbaşkanı mənim fotomu çəkib.

O tarixi fotonu Elçin müəllim hələ də bir əziz xatirə kimi arxivində qoruyub saxlayır.

Cumhurbaşkanı ilə keçirilən görüşün son günlərinə yaxın Rauf Denktaş yenə Elçin müəllimə yanaşıb, asta və qəribə səslə ondan soruşdu:

-Sizin yazarlardan hansının kitabına cumhurbaşkanı ön söz yazıb?



-Bizim öz cümhurbaşkanımızmı?

-Olsun.

-Bilmirəm. Elə bir hadisə yadıma gəlmir.

-Bəs başqa cümhurbaşkanlarından kitablarınıza söz yazan olubmu?

Elçin müəllim bir az düşünüb-daşınsa da, belə bir halın olduğunu yadına sala bilmədi.

-Ancaq indi sizin bir yazarınızın kitabında cümhurbaşkanının ön sözü olacaq.

-O xoşbəxt yazar kimdir elə?

Sayın Rauf Denktaş döş cibinə qoyduğu yazını çıxarıb Elçin müəllimin qarşısına qoydu.

-O mutlu yazar Elçin bəy əfəndidir. Götür tanış ol. Əyər-əskikləri haqqında fikrini bildir.

Elçin müəllim bir anlıq özünü itirib, nə edəcəyini bilmədi. Bir yandan bu gözlənilməz xəbər, o biri yandan sayın cümhurbaşkanının öz yazısına onun münasibət bildirmək istəməsi onu şaşırdı.

Elçin müəllim etika naminə yazını götürüb nəzər yetirdi və qaytarıb mizin üstünə qoydu. O anda əllərinin xırdaca əsdiyini hiss elədi. Çünki türk dünyası üçün belə önəmli bir şəxsiyyətin onun kitabına ön söz yazması onun özü üçün nə qədər gözlənilməz oldusa, oxucuları üçün bundan da gözlənilməz olacaqdı.

Ön sözdə qısa və konkret ifadələr yer almışdı. Azərbaycan və Kıbrıs türklərinin dostluq və qardaşlığı önə çəkilmiş, Elçin müəllimə yaradıcılığında və həyatında uğurlar dilənmişdi.

Rauf Denktaşla Elçin İsgəndərin səmimi dostluğu onun ömrünün sonunadək davam elədi. Ölümündən sonra hər dəfə Kıbrısa gedərkən, Elçin müəllim onun qəbri üstünə gedərək, ruhuna dualar oxudu. Və hər dəfə o, Kıbrısda olanda insanlar

onu Rauf Denktaşın sağlığında olduğu kimi çox sıcaq qarşıladılar. Onların görüşünün ruhundan yaranan isti əhval liderin ölümündən sonra da, adamların qəlbindən silinib getmədi.









Xarici səfərlərdən anlar





Övlad xoşbəxtliyinin sevinci





Tanrının oğul payı - Əli



Ailənin doğmalarından biri - Zəlimxan Yaqubla



“Yüksəliş” qəzeti, Qərib Mehdi zirvəsini ziyarət



Ustadı Məmməd Arazla





Bəxtiyar Vahabzadəni ziyarət




Əfsanəvi rus şairi Sergey Mixalkovla



Xalq şairi Nəriman Həsənzadə ilə




Nazir Əbülfəz Qarayev poeziya üzrə
“Qızıl Kəlimə” mükafatını təqdim edir





Xalq yazıçısı Anarla



Elçin İsgəndərzadə, Aqil Abbas, Vahid Əziz,
Adil Mirseyid, 1996



Akademik Abel Məhərrəmova mükafat təqdim edərkən



Daimi oxucularından biri, nazir Natiq Əliyevə növbəti kitabını təqdim edərkən



## ÖMRƏ BƏRABƏR GÖRÜŞ

Etnosların tarixində elə şəxsiyyətlər olur ki, o şəxsiyyətlər nəinki mənsub olduğu etnosun, bütünlükdə bütün dünya xalqlarının ortaq dahisinə çevrilirlər. Belə insanlar bəşəriyyəti yaşadan, dünyanı qoruyan ruh adamlarıdır ki, onların birbaşa və yaxud dolayısı ilə Tanrı ilə əlaqələri olur. Qəbul etsək də, etməsək də bu belədir. Belə Tanrı ilə əlaqəsi olan böyük bəşər övladlarından biri də görkəmli qırğız yazıçısı Çingiz Aytmatovdur. O Çingiz Aytmatov ki, təkcə manqurt obrazı ilə bəşəriyyətə yeni bir ifadə gətirdi. Bu ifadə bütün insanları silkələdi, ruhunda, qanında, canında zəlzələlər, tufanlar, qasırğalar qopardı. İnsanlar anladılar ki, kölə qismətinə asi olan, elmdən uzaq dayanan biçarə canlılar zavallı manqurt adını daşıyanlardan başqa bir şey deyillər. Əgər sən adam balası nəslini, zatını, kökünü, mənsub olduğun etnosu tanımırsansa, bil ki bir gün keçəl başına dəri keçiriləcək, qızmar günəş altında saxlanılaraq, manqurta çevriləcəksən. Ola bilsin bu prosesi bir qədər mədəni formada həyata keçirsinlər. Hətta ruhuna sığal çəkərək manqurtluq "şərbətini" sənə içirsinlər. Amma bütün hallarda, fərq eləməz, sən manqurtsan ki, manqurt. Necə ki, indiki çağdaş və "mədəni" dünyamızda elmsiz adamları rahatca manqurta çevirirlər.

Manqurt obrazını yaradan Çingiz Aytmatova Elçin müəllim də bir ideal şəxsiyyət kimi baxırdı. Onun bütün həyatını, obrazını, hətta gəzib-dolandığı yerləri belə

nağıllardan qopub gələn mif varlıqlar timsalında təsəvvür edirdi.

*Uçağımız endi yerə*
*Bişkek hava limanında,*
*Manas dədə qarşıladı*
*bizi səhər dumanında.*
*Yalnız ozan deyil, Manas*
*bir ulusa başçıdı.*
*Qopuzuyla, nəğməsiylə*
*o da bir savaşçıdı.*

O tarixi görüşə qədər Manas yurdu qırğız ellərində çox olmuşdu. Ancaq onun Qırğızıstanla yaxın təmasının da ayrıca bir tarixçəsi vardı. Ankarada keçirilən uluslararası bir şöləndə Qırğızıstanın xalq şairi, Qırğızıstan Yazıçılar Birliyinin sədri Nadırbek Alımbekovla yaxın münasibəti yaranmışdı. Belə tədbirlərdə bütün iştirakçılar bir-birinə yaxın münasibətdə olur, görüşlər, tanışlıqlar yaranır. O şöləndə Nadırbek Alımbekov Elçin müəllimi çox özünə cəzb eləmişdi. Bu adam olduqca ağıllı, səriştəli, səbirli, qeyrətli və millətinə, etnosuna bağlı bir şəxs kimi Elçin müəllimin qəlbində özünə yer eləmişdi. Və bu qarşılıqlı hörmət, etiram sonda dostluğa çevrilmişdi. Bundan sonra Elçin müəllim onun kitablarını çap edərək yaymış, Azərbaycan oxucusuna onu yaxından tanıtmışdı. Hətta İranda olan yaxın dostu Əli Daşqının vasitəsi ilə Nadirbek xocanın kitabını Tehranda fars dilində çap elətdirmişdi. Nadirbek Alimbekov da Elçin İsgəndərə borclu qalmamışdı. Onun bir neçə kitabını Bişkekdə qırğız dilində çap etdirərək, qırğız oxucularının ixtiyarına vermişdi. Bu əlaqələrin davamında Nadırbek tez-tez Bakıya gəlir, Elçin müəllimin qonağı olur, ədəbi



dairələrlə görüşlər keçirir, onu da vaxtaşırı Qırğızıstana dəvət edirdi. Təsadüfü deyildi ki, 2005-ci ildə qırğız milli yazarlar mükafatı da Elçin İsgəndərə təqdim olunmuşdu.

Nadırbek Alımbekov ümumən Orta Asiya respublikalarında çox böyük nüfuza malik şəxslərdən biri sayılırdı. Elçin müəllimlə yaranan yaxın münasibətdən sonra Nadirbek vasitəsi ilə Elçin müəllimin kitabları bütün Orta Asiya respublikalarında çap edildi. İndi demək olar ki, o respublikaların hamısında Elçin İsgəndəri tanıyır və ona ehtiram bəsləyirdilər.

Elə bu sıx əlaqələrin, görüşlərin keçirildiyi vaxtlarda dahi yazar Çingiz Aytmatov Bişkekə gəlir. Bir neçə günlük istirahət günlərində Nadirbek Alimbekov və Muxtar Şaxanovla görüşlərində söhbət Elçin İsgəndərdən düşür...

Yenə bir haşiyə:

Çingiz Aytmatovun Azərbaycanda ən yaxın adamı Şahmar Əkbərzadə idi. Şahmar bəyin vasitəsi ilə dahi yazar Bəxtiyar Vahabzadə ilə də dostlaşmışdı. Şahmar Əkbərzadə ilə Çingiz ağanın münasibətlərindəki yaxınlıq onların ailələrinə də sirayət eləmişdi. Onlar bir-birinə qonaq gedib-gəlir, xanımları bacılıq münasibəti saxlayır, Şahmar Əkbərzadənin övladları Çingiz Aytmatova əmi deyə müraciət edirdilər...

Elçin İsgəndərin kitabları ilə tanış olan Çingiz Aytmatov o kitabları özü ilə götürür və onun haqqında bir söz demədən avropaya, iş yerinə qayıdır.

Bu yerdə Elçin İsgəndərin öz dilindən çıxan sözləri eşitmək maraqlı olardı:-

“Adətim üzrə işdə oturmuşdum. Beynimdə yeni poemamın motivlərini düşünürdüm. Bu vaxt şəhər telefonuma zəng gəldi. Dəstəyi götürdüm. Zəng edən şəxs Qırğızıstan Respublikasının Fransa və Belçikadakı

səfirliyinin mədəniyyət üzrə attaşesi İsimbayev idi. O, mənə özünü tanıdandan sonra Çingiz Aytmatovun mənimlə danışmaq istədiyini dedi. Bir anlıq özümü itirdim. Dünya şöhrətli yazarın mənimlə danışmaq istəməsi mənim üçün çox gözlənilməz idi. Təklifin onun tərəfdən gəlməsi isə bu gözlənilməzliyi bir az da qabardırdı.

Çox səmimi danışığımız oldu. Mənimlə neçə ilin tanışları kimi söhbətləşdi. Hələ zarafatından da qalmadı. Çox pafoslu və gur səsiylə məni Belçikaya "razborka"ya çağırdı:

-Mən bilirəm ki, vətənim Qırğızıstanda, ümumən Orta Asiyada ən populyar yazar mən Çingiz Aytmatovam. İndi sən istəyirsən bu populyarlığı əlimdən alb, ön sıraya keçəsən? Ona görə səni Belçikaya, "razborka"ya dəvət edirəm.

Sənəd-filan işləri düzülüb-qoşulandan sonra Elçin İsgəndər bir həftəliyə Belçikaya yollandı. Dahi Çingiz Aytmatovun dəvəti ilə bir həftə orada qalacaq, Çingiz ağa və başqa dəyərli bilim adamları, ədəbiyyat və sənət adamları ilə görüşlər keçirəcəkdi.

Elçin müəllim getmirdi Belçikaya, sözün həqiqi mənasında qanad açıb uçurdu. Və ucalıqda, Tanrıya bir az da yaxın olan yerdə mələklər qulağına Çingiz ağa haqqında nəğmələr pıçıldayırdılar.

*Yolumuz, yönümüz bir,*
*Dilimiz, dinimiz bir,*
*Bu gecə röyama gir*
*Manas oğlu Çingiz ağa.*

*Yəhərlədin ağ atını,*
*Tarixə yazdın adını...*
*Gördüm bəyaz qanadını*



*Manas oğlu Çingiz ağa.*

*Ala-too düşdü yada,*
*O dağlara canım fəda.*
*De bitməzmi bu qan-qada*
*Manas oğlu Çingiz ağa?!*

Çingiz ağa ilə keçirilən bir həftəlik Belçika görüşü də Rauf Denktaşla olan görüş kimi Elçin müəllimin yaddaş telinə əbədilik həkk olundu. İctimai-siyasi söhbətlər, ədəbiyyat gəlişmələri, türk birliyi məsələsi bu görüşün əsas qayəsini təşkil elədi. Söhbət əsnasında Elçin müəllim maraqlı bir ideya səsləndirdi.

-Çingiz ağa, biz bayaqdan türk birliyindən, Turan savaşından danışırıq. Ancaq hansı dildə? Rus dilində. Çünki mən qırğız dilini, Siz isə Azərbaycan türkcəsini bilmirsiniz. Bunun üçün nə etmək lazımdır? Mənə elə gəlir ki, ortaq türk dili və əlifbasının yaradılmasının vaxtıdır. Düzdür, bu haqda ara-sıra söhbətlər olur. Lakin real işə gələndə ortada bir nəsnə görünmür. Biz bunu etməyi bacarsaq, elə bilirəm, tarixə ən böyük töhfəmizi vermiş olarıq.

Bu fikir Çingiz Aytmatov üçün də cəlbedici göründü. Amma... Yeri gəlmişkən, öz subyektiv fikrimi sizlərə bildirməkdən özümü saxlaya bilmirəm. Bəlkə də mənim bu fikrimə təpki verənlər olacaq. Hələ əlini masanın üstünə çırpıb, etiraz edənlər də tapılacaq. Ancaq mən bu fikrimdə qərarlıyam, dünən də belə düşünmüşəm, bu gün də belə düşünürəm.

Çingiz Aytmatov kimi dahi yazarın siyasət meydanına daxil olması, mənim fikrimcə düzgün deyildi. Çünki İsa Muğannanın da qeyd elədiyi kimi siyasət Ağİşığı, yəni həqiqəti yeyir. Həqiqət yeyiləndə isə ortada yalanlar, həqiqət

olmayanlar qalır. Çingiz Aytmatov daha çox qələmi ilə, roman və povestləri ilə öz xalqına, ümumən türk etnosona xidmət edə bilərdi. Onun yaratdığı "Əsrə bərabər gün" romanı yüz belə səfirliklərdə işləyib, millətinə xidmət etməkdən daha böyük və əzəmətli görünür. Və onu da düşünürəm ki, Çingiz Aytmatovu müqəddəs qələmindən ayırıb, siyasət meydanına çəkmək də siyasət işbazlarının hiyləgərcəsinə qurulmuş böyük oyunlarından biri idi. Belə hiyləgər oyunlar türklər üzərində tarix boyu çox qurulmuşdu və təəssüflər olsun ki, böyük türklər çox zaman bu hiylələrə uyaraq, oz müqəddəs xidmətlərinə kölgə salmışdılar.

Bu unudulmaz görüşün təəsuratı xeyli zaman ərzində Elçin müəllimin ruhunu tərk eləmədi. Və göylərdə mələklərin diktəsi ilə yaddaşına yazdığı poemanı bitirənə qədər o görüşün hər anını ruhunda yoğuraraq, rahatlıq tapa bilmədi.

*Orxondan, Yeniseydən,*
*Hakasiyadan gəlirik.*
*Gündoğan torpaqlardan,*
*Asiyadan gəlirik.*

*Doğudan batıyadək*
*uzanıb gedir bu yol.*
*Atını yanaşı sür,*
*gəl mənimlə qardaş ol.*

Sonralar Çingiz ağa ilə bir neçə görüşləri oldu. Onu Bakıya qonaq dəvət elədi. Başqa dövlətlərdə keçirilən konfrans, simpozium və başqa şölənlərdə birlikdə iştirak elədilər. Bu görüşlər Çingiz Aytmatovun həyatının son günlərinə qədər davam elədi.



*Xəzərin sahilində oturub*
*Çingiz ağa ilə konuşuram xəyalən,-*
*Bişkekdə,*
*İşık göldə*
*görüşmüşdük böyük Ustad.*
*Bakıda, Brüsseldə,*
*Moskvada, Vyanada, Parisdə,*
*Praqada, Tunisdə*
*Turanın dərdlərini*
*bölüşmüşdük böyük Ustad.*

Bu görüşlərdə çox vaxt Bəxtiyar Vahabzadə, Nadırbek Alımbekov, Muxtar Şaxanov və başqa Çingiz ağaya yaxın olan dostlar da iştirak edirdilər. Keçirilən görüşlərdə dünyanın, ən çox da Turan dünyasının müşküllərindən söhbət açılırdı. Bəzən özləri də hiss etmədən tarixin dərinliklərinə baş vurur, türk atlarının ayaq izləri olan yurd və məkanlara xəyali gəzinti yapırdılar.

Söhbətlərin təsirindən Elçin müəllim öz dünyasının sehrli aləminə düşürdü. Belə vaxtlar onun üçün bir əsrə bərabər qədər uzun və bir an qədər qısa görünürdü.

Çingiz Aytmatovun bu dünyanı tərk etməsi xəbəri Elçin İsgəndərə o qədər pis təsir eləmişdi ki, uzun müddət işlərini səhmana salmaqda çətinlik çəkmişdi. Bu ölüm bir böyük türkün ölümü idi. Dünya ədəbiyyatı tarixində gəlib-keçən dahi yazarlardan birinin dünyadan köçməyi idi. Bu ölüm başqa ölümlərə bənzəmirdi. Və belə bir əfsanəvi türk qələm ustadının bir də nə zaman dünyaya gələcəyi Tanrının öz işləri sırasına daxil idi. Görəsən o zamana qədər manqurtların sayı çoxalıb, dünyanı viran gününə qoymayacaqdılar ki? Ya bəlkə Çingiz ağanın ulu ruhu onların başı üstündə dolaşıb,

manqurtlaşmaq azarından qoruyacaqdı adamları? Təki belə olaydı. Çünki cahan manqurtluq virusuna yoluxsaydı onda dünyanın günü yaman olardı. Allah bəşəriyyəti bu qorxunc və dəhşətli virusdan qorusun. Bu virus ən ölümcül, ən qorxulu viruslardan daha qorxuludur.

Elçin İsgəndər Çingiz ağadan sonra da Qırğızıstana gedəndə hər dağdan, daşdan, torpaqdan, ağacdan, budaqdan, axan bulaqlardan, yağmurlu buludlardan Çingiz ağanın qoxusunu alırdı. Onu yanında bilirdi. Onunla dərdləşir, söhbətləşir, zarafatlaşırdı. Belə səfərlərdə dostları ilə ancaq Çingiz ağadan danışırdılar. Onun yoxluğuna inanmaq istəmir, əbədilik bu şəxsiyyətin bu dünyada qalacağına inandıqlarını dilə gətirirdilər.

Bunun belə olacağına, əslində, ağlı başında olan hər kəs inanırdı. Ona görə ki, böyük ruh adamları ölmürlər. Onlar sadəcə məkanlarını dəyişib, bu dünyada əbədi iz buraxırlar. Çingiz Aytmatov da o böyük ruh sahiblərindən biri idi...



## DÜNYAYA BAXANLAR VƏ GÖRƏNLƏR

Hər gözləri olan, dünyaya baxan bu dünyanı görə bilmir. Baxmaqla görməyin böyük fərqi və anlamı var. Hər kəs baxır: mavi səmaya, aylı gecələrə, yaz yağışlarına, yarpaqların əsməsinə, dağların tənha duruşuna, insanların göz yaşına... Amma onlar ancaq baxanlardı. Görənlər isə başqadı. Görənlər Tanrının seçilən bəndələri, bu dünyanın əzabkeş məxluqlarıdı. Baxmağa nə var ki? Çətini görməkdi. Görəndə mavi səmanı da, aylı gecələri, yaz yağışlarını, yarpaqların əsməsini, dağların tənha duruşunu, insanların göz yaşlarını da bir başqa anlamda görürsən. Görürsən və düşünürsən. Bu düşüncələr səni özündən alıb, çox uzaqlara aparır. O uzaqlarda qalıb dolandıqca sən zərrə-zərrə, qətrə-qətrə adam olursan. Daha doğrusu, adamlardan, çoxluqdan fərqlənib, Tanrı dağlarına doğru yol alıb gedirsən. Bu əzablı, məşəqqətli, çətin bir yol olsa da, o yolun sonunda sənin qənşərinə çıxacaq işıq ruhuna o qədər rəvanlıq gətirir ki, bu əzablı yolun yolçusu olduğuna heyfsilənmir, əksinə, ucalıqlardan aşağılara baxanda, çəkdiyin yol əzabının ağrısını unudub, rahatlıq tapırsan.

Elçin də hələ uşaq olandan görmək istəyirdi. Əslində bu hiss istəməklə deyildi. Onsuz da insan çox şeylər istəyir. Lakin Tanrı bu istəməyi hər kəsə qismət eləmir. Ancaq ona qismət eləmişdi. Nə görürdüsə, hansı gözəlliyə vurulurdusa, onu bir rəssam fırçası ilə kətana həkk eləmək istəyirdi. İmkan düşəndə, Şuşaya gedəndə Cıdır düzünə, İsa bulağına,

Topxana meşəsinə baş vurmamış geri dönməzdi. Bu baş vurmaq da elə-belə baş vurmaq deyildi. Gördüyünü rəssam nəzəri ilə hafizə telindən keçirir, məqam tapan kimi oturub gördüklərini rəsm əsərinə çevirmək üçün dəridən-qabıqdan çıxırdı. Amma istədiyi alınmırdı. Oralarda gördüyü canlı təbiət fırçasından çıxan rəsmdə canlı görünmürdü. Bu cansızlıq onu sıxırdı, incidirdi, qəlbinə rahatsızlıq gətirirdi. Hələ bəzən belə hallarda bir gizli yer tapıb ağlayırdı da. Yalnız bundan sonra özünə gəlirdi. Və bir də təkrar-təkrar o yerlərin rəsmini çəkir, yenə də alınmayanda özünü qınayırdı. Qınayırdı ki, bəlkə o gözəllikləri yaddaşına yazmağa gücü çatmır? Ya bəlkə... Elə bu inamında da inadlı qalırdı. Yəni bu yerlərin rəsmini canlı çəkmək mümkün deyildi. Tanrı bu yerləri elə möcüzəhal yaratmışdı ki, heç Elçin yox, yüz dahi rəssam belə bu yerlərin canlı rəsmini çəkib, yarada bilməzdi.

Təkcə bundan təskinlik tapırdı. Lakin o yerlərin xəyalı da bir an belə yadından çıxmırdı. Elə bu şirin rahatsızlığın diktəsi ilə atasına yanaşmış, ona arzusunu bildirmişdi.

-Ata, mənə bir fotoaparat al.

-Fotoaparatı neynirsən, bala?

-Cıdır düzünün, İsa bulağının, Topxana meşəsinin... bir də... Xarıbülbülün şəklini çəkəcəyəm.

Atası dərinə getməmişdi. Elçinin inadını bilirdi axı. Onu da bilirdi ki, bu şəkil çəkmək elə-belə məşğuliyyət ola bilməzdi. Burada nə isə yenə də Elçinin gizli bir fantaziyası dayanırdı. Axı bu uşaq hər bir işdə bir fantaziya, bir macəra axtarırdı. Ona görə də Elçinin istəyinin üstünə getməmişdi. Amma onun qarşısına bir şərt qoymuşdu. Demişdi ki, rübün axırında bütün qiymətlərin beş olsa, sənə fotoaparat alacağam.



Onda Elçin dodaqaltı gülümsəmişdi. Ona indidən bəlli idi ki, rübün sonunda bütün qiymətləri beş olacaq. Və bu o demək idi ki, atası ona fotoaparat almağa razılıq verirdi.

Vədə yetişəndə atası Elçinə o dövr üçün dəbdə olan bir "FED" markalı fotoaparat aldı. O gündən gözünə dəyən hər nə gözəllik var idisə, fotoaparatının yaddaşına həkk elədi, Elçin.

Cıdır düzünün, İsa bulağının, Topxana meşəsinin, Xarıbülbülün şəkillərini azı yüz dəfə çəkmişdi: hər profildən, uzaqdan, yaxından, yandan, böyürdən... Çəkdiklərini çıxarmışdı. Baxmışdı. Dönə-dönə, usanmadan, yorulmadan... Bu şəkillərdən xoşuna gələni də olmuşdu, gəlməyəni də. Amma hər necə olursa-olsun, fikri-zikri yenə də fırçanın, kətanın yanında qalırdı. O, rəssamlara qibtə eləyirdi. Onları dünyanın bəxtəvər bəndələri hesab edirdi. Çox vaxt oturub rəssamlar, onların yaratdığı əsərlər haqqında düşünür, düşünürdü... Və sözün, deyimin, kəlamın rəsmini çəkməyə səy göstərirdi.

*Pəncərəyə qaranlıq çökürdü,*
*pəncərədən boylanan Ay*
*sanki sənin xiffətini çəkirdi.*

Bu sənsizliyin rəsmi idi, sözün qüdrəti ilə çəkmişdi Elçin İsgəndər.

Məşhur rəssamların həyatından o qədər oxumuşdu ki, sanki onların çoxunu yaxından tanıyırdı. Yüz il, iki yüz il bundan əvvəl yaşasalar belə, onları həmyaşıdı, öz dövrünün adamı sayırdı. Xəyalən onlarla danışır, emalatxanalarına daxil olur, onların iş prosesini izləyir, rəssam dünyasının cazibəsinə, sehrinə dalaraq öz indiki aləminə qayıdırdı.

Dünyanın tanınmış rəssamları haqqında bir neçə poema yazmışdı. Van Qoq, Salvador Dali, neçə-neçə dahi rəssamlar,

bir də Səttar Bəhlulzadə haqqında... Ümumiyyətlə onun üçün dünyanın bir nömrəli rəssamı Səttar Bəhlulzadə idi. Onun yaratdığı əsərlərə baxanda sehrli hala düşür, o sehrdən ayrılıb, özü olmağa bir müddət vaxt lazım olurdu. Və o rəssamların nurunda yuyunandan sonra, bu işıqda yuyunmağı, paklanmağı insanlara da tövsiyyə eləyirdi.

Əgər Elçin İsgəndər alim olmasaydı, şair olmasaydı, çox güman ki, rəssam olacaqdı. Onda görəsən Elçin İsgəndərin fırçasından çıxan əsərlər alim qələmindən, şair ilhamından daha çox tanıda biləcəkdimi onu? Bəlkə də... Çünki belə isdedad sahibləri hansı sahədə olurlar olsunlar mütləq və mütləq özlərini sübut eləməyi bacarırlar.

Bunları düşünəndə yaddaşımda qəribə mənzərələr canlanır. Düşünürəm, görəsən Elçin İsgəndər rəssam olsaydı Qarabağın məsum dərdini necə çəkəcəkdi? Qaçqın, köçkün zavallılar onun fırçasından necə boylanıb baxacaqdılar? Azərbaycanın dərdləri, türkün narahat ruhu onun kətanında necə əksini tapacaqdı? Dünyanın müşkülləri onun rəsmlərində necə görünəcəkdi?

Bütün bunları etməyə, fırçanın qüdrəti ilə göstərməyə onun gücü çatmadı. Amma sözlə, şeirlə gördüklərinin rəsmini çəkməyi bacardı. Elə o sözün rəsmi də Elçin İsgəndərin iç dünyasını bütün aydınlığı ilə hamıya göstərdi. Hamı gördü onu. Tanıdı. Bir daha əmin oldular ki, Elçin İsgəndər dünyaya baxan adamlardan deyil, dünyanı görən insanlardandı. Və bu görmək onun qəlbinə nə qədər nahamarlıq, narahatlıq gətirirsə, başqalarının könlünə bir o qədər hamarlıq və rahatlıq bəxş edir.



## ELMİ YARADICILIĞINA BİR NƏZƏR

Professor Elçin İsgəndərzadənin elmi yaradıcılığını tədqiq edərkən şair-filosof Mübariz Məsimoğlunun onun haqqında yazdığı "Elçin İsgəndərzadə: olduğu və göründüyü kimi" kitabında yer almış bu fikirləri oxucularımla bölüşmək istədim:

"Dahi Füzuli elmi bir qeylü-qal hesab edib. Dünyanı dərk etməyin ayrı üsulları barədə danışıb. Ancaq fakt budur ki, müasir insanı insan edən bir faktor da elmdir. Elmsiz insan indiki dövrdə adi bir alətdən üstün deyil. Həmçinin, obyektiv gerçəkliyi elmdən daha çox heç nə özündə ehtiva etmir. Elmlər müxtəlifdir. Bu elmlərin bir qismini dəqiq elmlər adlandırırıq. Dəqiq elmlərin atası riyaziyyatdır...

Elçin İsgəndərzadə bu elmin bütün sirlərinə vaqif olan alimdir. O, ən çox yüksək sinifli maşın mexanizmlərinin analizi və sitezi sahəsində tədqiqatlar aparıb. Yüksək sinifli mexanizm anlayışı adı altında nələr başa düşülür? Bu mexanizmlər bir düz xətt boyunca hərəkət etməyən, həm fırlanan, həm yuxarı-aşağı, həm də sağa-sola hərəkət edən mexanizmlərdir. Bu sahədə aparılan riyazi hesablamalar daha mürəkkəb düstürlarla ifadə olunur...

Bu sahədə Elçin İsgəndərzadə ancaq mürəkkəb riyazi düsturlar yazmaqla kifayətlənməyib. Həmin düsturlarda aparılan əməliyyatların yeni üsulla tədqiqini yüksək sinifli mexanizmlər sahəsinə yönəldib. O, bu sahəyə professor Vaqif Məmmədovla müştərək qaydada "VEKTOR" üsulu deyilən yeni bir metodun qaydalarını tətbiq edib...

Professor 90-cı illərdə həmin metodla təyyarə təkərlərinin açılıb-yığılma mexanizmləri üzərində xeyli uğur əldə edib. Bu sahədə SSRİ-nin ən gənc alimi kimi 27 yaşında elmlər namizədi adına layiq görülüb. Müqayisə üçün deyək ki, bu sahə üzrə o zaman SSRİ-də ən erkən yaşda elmlər namizədi olanların yaşı 45-dən yuxarı idi...

1991-ci ildə Elçin İsgəndərzadənin elmi fəaliyyəti akademik, SSRİ xalq deputatı, Qazaxıstan Dövlət Universitetinin rektoru U.A. Coldasbəyovun diqqətini cəlb edir. Böyük alim professor haqqında yazır: " Elçin İsgəndərzadənin yüksək sinifli mexanizmlərin analiz və sintezi məsələlərinə həsr olunmuş namizədlik dissertasiyasını vərəqləyərkən ağlıma gələn ilk fikir bu oldu ki, o, gələcəyin çox məhşur alimlərindən biri olacaq..."

Elçin İsgəndərzadə yüksək sinifli maşın mexanizmləri sahəsində 48 ixtiranın müəllifidir. Bu ixtiraların xeyli qismi istehsalatda tətbiq olunub. Yeri gəlmişkən bu məqamda qeyd etmək yerinə düşür ki, iki cür alim var: bir var yaradan alim, bir də var yaradılanı tətbiq edən alim. Birincilər elmin ustası,



ikincilər isə fəhləsidirlər. Elçin İsgəndərzadə həm yaradan, həm də yaratdığını həyata tətbiq edən alimdir. Deməli o, həm elmin ustası, həm də fəhləsidir...

Elçin İsgəndərzadənin elmi yaradıcılığını 3 mərhələyə bölmək olar. Bu yaradıcılığın birinci mərhələsi "yüksək sinifli maşın mexanizmlərinin "VEKTOR" üsulu ilə tədqiqinə, həmin yaradıcılığın ikinci mərhələsi, "müasir kombinə edilmiş kənd təsərrüfatı maşınlarının təkmilləşdirilməsinə" həsr edilb. Bu sahədə bir maşının eyni zamanda bir neçə funksiyanı yerinə yetirə bilməsi problemləri araşdırılıb və müsbət mənada öz təsdiqini tapıb. Yaradıcılığın üçüncü mərhələsi "ümumi maşınqayırmada keyfiyyət problemlərinin həlli"nə yönəldilib. Artıq maşınqayırma sənayesində demək olar ki, bu problem ən aktual məsələyə çevrilib. Hazırda yeni kəşflər sorağında axtarışlar aparmaqla yanaşı, var olan kəşflərin keyfiyyət baxımından təkmilləşdirilməsi üzərində də baş sındırır professor...

Elçin İsgəndərzadənin uğurlarının bir səbəbi də onun daimi hərəkətdə olmasına, böyük yaradıcı mühitə qovuşmaq təşnəsinə əsaslanıb. SSRİ dağılmamışdan əvvəl professor həmin böyük elmi mühitə SSRİ məkanında keçirilən elmi konfranslar, simpoziumlar, həmin konfranslarda, simpoziumlarda tanış olduğu alimlər, yaradıcı şəxsiyyətlər vasitəsilə daxil olmağı bacarıb. SSRİ dağıldıqdan sonra bir

müddət belə bir elmi mühitə düşmək imkanı artıq yox olmuşdu. Azərbaycan elmi mühiti, o cümlədən Elçin İsgəndərzadə bu sahədə 5-6 illik bir durğunluq dövrü yaşadı. Ancaq hərəkət edən səxs dayana bilməzdi. Yeni bir mühitə - dünya elmi mühitinə çıxmaq lazım idi. Elçin İsgəndərzadə bunun yolunu uzun axtarışdan sonra tapdı. Türkiyə vasitəsilə dünya elmi mühitinə qovuşmaq arzusu onu vətən torpağından ayırıb bir təyyarədən düşüb başqa bir təyyarəyə minmək vərdişinə yiyələndirdi. Bu vərdiş professorun həyatında dönüş yaratdı. Artıq o, böyük elmi mühitin-dünya elmi mühitinin içərisindədir. Hazırda professor həmin elmi mühitin havasını Azərbaycan elmi mühitinin içərisinə daşımaqla məşğuldur...

Elçin İsgəndərzadə imanlı alimdir. Onun kəşfləri dağıtmağa yox, qurub yaratmağa stimul verir. Qurub yaradan elm qeylü-qal ola bilməz. Füzuli ”Elm bir qeylü-qal imiş” deyərkən qurub yaradan yox, vurub dağıdan imansız elmi nəzərdə tutub...”

Professor Elçin İsgəndərzadənin Dünya elminə gətirdiyi yeniliklər sırasında aşağıdakıları da qeyd etmək olar:

1. Torpağın kombinə olunmuş, minimal və sıfır, hamar, çizelli və yaruslu becərilməsi üçün maşın quruluşlarının və proqressiv texnologiyaların inkişaf tendensiyalarının ümumiləşdirilmiş təhlili, texnoloji torpaqqoruyucu maşın



komplekslərinin təhlili onun tərəfindən aparılmışdır. Bunlar aşağıdakıların təmin olunmasına istiqamətlənmişdir:

- torpağın su və külək eroziyasından qorunmasına;
- enerji sərfinin azalmasına;
- torpağın fiziki xassələrinin və quruluşunun yaxşılaşmasına;
- məhsuldarlığın artmasına və məhsulun istehsalına xərclərin azalmasına;
- nəmliyin yığılmasının və saxlanmasının yaxşılaşmasına, torpağın aerasiyasının artmasına;
- torpağın məhsuldarlığının və onun ekoloji təmizliyinin saxlanmasına.

2. Praktiki istifadə və rəhbərlik üçün bütün mövcud kotanların quruluş tiplərinin qruplarına görə torpağın əsas becərilməsinin intensivləşməsi ilə kotanların ümumiləşdirilmiş təsnifat sxemi tərtib olunmuşdur.

3. Kənd təsərrüfatı bitkilərinin becərilmə aqrotexnikası və torpağın əsas və kombinə olunmuş becərilmə alətlərinə olan yüksək aqrotexniki tələblər respublikanın əkinçiliyinin torpaqqoruyucu sistemində şum və kombinə olunmuş aqreqatların istifadə perspektivi üzrə əsaslandırılmış təkliflər verməyə stimullaşdırılmışdır.

4. Nəzəri olaraq kinematik və dinamik parametrlərə görə yeni quruluşlu bağ və üzümçülük maşınları və innovasiya texlogiyaları işlənib əsaslandırılmışdır:

5. Daha rasional yeni nəsil iş orqanlarının yaranmasının elmi nəzəriyyəsi işlənmişdir.
6. Nəzəri olaraq diskli iş orqanının kinematikası və dinamikası kombinə olunmuş torpaq becərən aqreqatların ümumi dartı müqavimətini əhəmiyyətli dərəcədə azaltmağa imkan verən torpağın önyumşaldıcı və 2 pilləli yarıqaçanla deformasiyası tədqiq olunmuşdur.
7. Şum aqreqatının kütləsinin titrəyişinə sərf olunan gücün təyin olunma düsturunun və hərəkətin sürətinin diferensial tənliyinin çıxarılması ilə şum aqreqatının hərəkətinin nizamlanmasının dinamik sistemi öyrənilmişdir.
8. Kotanların və kombinə olunmuş torpaq becərən maşınların tədqiqatının xüsusiyyətləri və metodik əsasları; çoxfaktorlu təcrübənin planlaşdırma metodikası; aqrotexniki, istismar-texnoloji və energetik qiymətləndirmənin aparılma metodikası; yeni texnikanın illik iqtisadi səmərəsinin hesabatının metodikası və yeni maşın komplekslərinin iqtisadi qiymətləndirmə metodikası verilmişdir.
9. Respublikanın bitkiçilik ixtisaslaşması infrastrukturunda torpağın əsas becərilməsi üçün bölgə maşın kompleksləri kənd təsərrüfatı istehsalı üçün təklif olunmuş və işlənilmişdir:
- cərgə arasında torpağın əsas becərilməsi üçün texnoloji maşın kompleksləri;



- üzümlüklərdə torpağın əsas becərilməsi üçün texnoloji maşın kompleksləri;
- cavan və barverən bağlarda torpağın əsas becərilməsi üçün texnoloji maşın kompleksləri;
- çay plantasiyalarının cərgələri arasında torpağın əsas becərilməsi üçün texnoloji maşın kompleksləri.

10. Respublikanın müxtəlif bölgə torpaq-iqlim şəraitlərində tətbiq etmək məqsədilə torpağın əsas becərilməsi üçün 22 texnologiya təklif edilmişdir; o cümlədən cərgəarası becərilən bitkilər üçün 8 texnologiya və 11 texnoloji maşınlar kompleksi, üzümlüklər üçün 6 texnologiya və 7 texnoloji maşınlar kompleksi, bağlar üçün 5 texnologiya və 8 texnoloji maşınlar kompleksi, çay plantasiyaları üçün 3 texnologiya və 4 texnoloji maşınlar kompleksi təklif olunmuşdur.

## POETİK DÜNYASINA NASİR BAXIŞI

Elçin İsgəndərin dünyaya poetik baxışı lap uşaqlıq vaxtlarından başlanmışdı. Bəlkə hələ körpə olanda anası Elmiranın, ən çox da nənəsi Qəmərin ona dediyi laylalar onun uşaq dünyasının ruhuna oturur, ürəyinin şah damarından keçərək, uşaq qəlbində izaholunmaz qəribə hisslər oyadırdı. Bilim adamları, psixoloqlar sübut ediblər ki, lap körpə vaxtı uşağa deyilənlər daşa yazılan yazı kimi yaddaşına əbədi həkk olunur. İnsan gələcək həyatında nə qazanırsa, nələrə nail olursa bunun əsas mənbəyi lap körpəlikdən beyninə yazdıqları olur.

Qəmər nənə onu həyətdə qurduğu beşiyin içində yırğalaya-yırğalaya şirin-şəkər bayatılar deyərdi.

*Əzizim bala şirin,*
*Bal şirin, bala şirin?*
*Yüz cür nemət yığıla,*
*Hər şeydən bala şirin.*

Bu bayatılar, laylalar ana südü kimi onun canına hopur, ruhunun şah nöqtəsində özünə yer tutur, gələcək həyatının işıqlı yoluna cığırlar açırdı.

Onun bədii yaradıcılığında müxtəliflik, ayrı-ayrı mövzulara müraciət ilk baxışdan özünü büruzə verir. Ana, torpaq, vətən, millət, etnos, türkçülük, dünyəvi problemlər



onun şeir və poemalarının əsas qayəsini təşkil edir. Bir də Qarabağ mövzusu, Şuşa həsrəti.

*Xarıbülbüllər səni*
*yuxuda görür bəlkə?-*
*Bəlkə səhər şehiylə ağlayır Qarabağda*
*bizim güllər, çiçəklər.*
*Hələ qan qoxuyur, barıt qoxuyur*
*Qarabağdan əsən yellər, küləklər...*

Oyananda Qarabağsız, Şuşasız, yuxusunda Qarabağlı, Şuşalı olan şair elə dərdli, qəmli, kədərli nöqtələrə xal vurur ki, insan o anda bir anlıq yazıqlaşır, fağırlaşır. Lakin bir andan sonra o yazıqlığın, o fağırlığın yerini kükrəyən at nallarının ayaq səsləri əvəzləyir. İnsan döyüşçüyə, qisasçıya, intiqam alana çevrilir. Öz xəyali atına süvari olur, Qarabağa yollanır, gavurları yurddan qovaraq, torpağın yaralarına məlhəm qoyur.

Xarıbülbülə yazdığı şeirləri oxuyanda, xarıbülbülü görməyən insanda da xarıbülbülü görmək təəssüratı yaranır. Mənim özüm xarıbülbülü görməsəm də, Elçin İsgəndərin xarıbülbül haqqında yazdıqlarını oxuyandan sonra təsəvvürümdə xarıbülbülü görmüş kimi oluram. Sanki xarıbülbülə öz əllərimlə sığal çəkmişəm, oxşamışam. Sonra qarşısında günahkar kimi dayanıb, lal heykələ dönmüşəm. Çünki hər zaman məndə elə hal olub ki, xarıbülbül ağlar gözüylə bizləri qınayır, bizlərə vəfasız övladlar kimi baxır. Bu vəfasız övladlar günahından çıxmaq üçün isə yalnız bir yol qalır. O yol Qarabağa qayıtmaq, murdar düşmən ayaqlarını bu yerlərdən kəsmək və xarıbülbülə yenidən qovuşmaqdır.

Ümumən, Elçin İsgəndər yaradıcılığında vətən mövzusu əsas qayələrdən birini təşkil edir. O, Azərbaycanı bölgələrə bölmədən, ayırmadan bütöv halda görərək, onu öz şeirlərində vəsf edir. Onun üçün vətən Təbrizdən başlanır. Sonu isə görünmür. Vətən torpaqları uzandıqca-uzanır, bütöv halda Böyük Azərbaycan xəritəsi yaranır.

*Təbriz nə Varşavadır,*
*nə də Paris,*
*nənələrimizin toxuduqları*
*xalçalara bənzəyir Təbriz.*
*Bu yurdu xalça kimi süsləyir,*
*bəzəyir Təbriz.*
*Ərk yerimizdir Ərk Qalası,*
*Qılıncla yazılmış tariximizdir Babək Qalası...*

Böyük Azərbaycan torpaqlarının zaman-zaman itirilərək yadların əsarətinə düşməsi bir şair kimi onu incitsə də, qələmini əlində titrətsə də, nikbinlik, inam, ağ işıq onu heç zaman tərk etməmiş, xoş sabahların al şəfəqləri ruhuna sığal çəkərək, daha böyük inam və inadla yazmağa ruhlandırmışdır. Bu ruh onun türk qanından gəlir. O türk ki, ən çətin məqamlarda, ağır zamanlarda belə özünü ələ almış, məhv olmaqdan, tarixin arxivinə düşməkdən qurtularaq yaşamağı bacarmışdır.

Türk sözsüz ki, dünyanın ən möhtəşəm etnoslarından biridir. Təsadüfi deyildir ki, İslam dininin banisi, bəşəriyyətin bir nömrəli zəka sahibi Həzrəti Məhəmməd türk etnosu haqqında çox yüksək fikirlər söyləmişdir. Türklərin bu dünyada əzəli və əbədi səltənətinin olacağını deyən peyğəmbər bu etnosu Tanrının bəyəndiyi və sevdiyi



etnoslardan biri olduğunu da dilinə gətirməkdən çəkinməmişdir.

*Baykal gölündən keçdik,*
*Qıpçaq çölündən keçdik.*
*Gavurlarla savaşdıq,*
*İdil çayını aşdıq.*
*Türkün alın yazısıdı*
*min illər bitməyən savaş.*
*Atının gözlərindən*
*öpdünmü ozan qardaş?...*
*Yer üzü türkün torpağı,*
*Göy üzü türkün bayrağı...*

Türkün yer üzünün xilaskarı olduğunu desək, yəqin ki, başqa xalqların nümayəndələri də bunu təsdiq edərlər. Təsdiq etməyənlər isə qərəzli olanlar, türkün böyüklüyünü həzm edə bilməyən şeytan xislətli adamcığazlardır. Elə bu böyüklüyün savaşını verən döyüşçülərdəndir Elçin İsgəndər. Dünyanın hansı nöqtəsinə gedirsə, haralarda olursa onun üçün şah mövzu türkçülük və türkün təbliğidir. O, bu təbliğatı bir millətçi kimi eləmir. Sadəcə olaraq, Həqiqətin harada olduğunu insanlara başa salmağa çalışır. Onun bu təbliğatı dünya üçün ziyanlı deyil, ancaq və ancaq onun xeyrinə, onun gələcəyinə hesablanmış şüurlu bir addımdır.

Şairin yaradıcılığında klassik şeir ənənə formasını və modern qərb şeir üslubunu görmək mümkündür. O, ənənəvi şeir formasına öyrənmiş oxucunu da nəzərə alır, yeni şeir formasına üstünlük verən müasir gəncliyi də. Bu da onu hər iki tip oxucu qarşısında sevimli şairə çevirir. Bu həm də şairin böyük intellekt və yüksək istedadından xəbər verir. Belə üslubda yazan şairlər Azərbaycanda çox azdır və

düzünü deyim ki, mən bu səviyyədə şərqlə qərbin şeir ənənəsini sintez edən ikinci bir şair tanımıram. Bu dediklərimə misal olaraq onun iki şeirindən nümunələr gətirmək istəyirəm.

*Gümüş güzgülərə baxıb ağlayar,*
*Taleyi əlində olmayan gözəl.*
*Gözlərində iki bulaq çağlayar,*
*Taleyi əlində olmayan gözəl.*

*Gecə ulduzları sayar, yorulmaz,*
*Bir də könül açmaz, bir də vurulmaz,*
*Qəmli sular kimi axar, durulmaz,*
*Taleyi əlində olmayan gözəl...*

Və yaxud:

*İydə yarpaqlarından süzülən,*
*inci kimi saçlarına düzülən*
*yağmur damlaları*
*səsinin titrəyişində*
*ilişib qalmışdı*
*sevgisiz bir gecədə...*

Elçin İsgəndərin şeir dünyası olduqca rəngarəng, kaloritli, axıcı, yığcam və düşündürücüdür. Yuxarıda qeyd elədiyim kimi o, sözlə, səslə təbiətin rəsmini çəkir. İnsan onun şeirlərini oxuyanda özündən asılı olmayaraq Elçin İsgəndərin yaratdığı məkanın və zamanın sakininə çevrilir. Sanki o şeirlər sənin ruhundan tutub o dünyanın "vətəndaşı" edir.



Hansı janrda yazmağından asılı olmayaraq onun şeirləri, poemaları təbiidir, canlıdlr, şairin özü kimi saf, şəffaf və durudur. O, yazdıqlarını zorla yazmır, heca axtarışına çıxmır. Ona görə şeirlərindəki sərbəstlik ilk baxışdaca özünü büruzə verir. İstər vətən haqqında yazsın, qaysaq bağlamış milli dərdləri qələmə alsın, dünyanın müşküllərindən danışsın, ana, ata, övlad, həyat yoldaşı barəsində poetik ruhunu dilə gətirsin, o, bütün hallarda səmimiyyətə söykənir.

*Axıb gedən zaman kimiydi*
*Ərafatda hava,*
*bir bulud üstündə göründü gözlərimə Adəmlə Həvva.*
*Başqa bir bəyaz bulud gəlib aldı məni qanadlarına,*
*Ərafatda bir şeir yazmaq istədim sənin adına-*
*indi xəyallara dalmışam sənsiz.*
*Ərafatda*
*Cənnətlə Cəhənnəm arasında qalmışam sənsiz.*

Bu nümunə həyat yoldaşına yazdığı poemadandı. Bir bulud arasında Adəmlə Həvvanı görərkən, bir başqa buludun qanadlarına dalaraq Ərafatda ömür-gün yoldaşını anması onun sevgisinə olan ən böyük etirafı və yazdıqlarına səmimi hisslərindən xəbər verir. Oğlu Əliyə yazdığı poemada da o, öz ampulasında qalır. Bu poemada o, təkcə oğluna olan məhəbbətini dilə gətirmir, həm də bütün insanlara sevgisini, istəyini etiraf edir. Oğlu Əliyə arzu etdiklərini Əlinin timsalında bütün övladlara çatdırır.

*Mən səni Tanrı dağlarına*
*aparmalıyam bir səhər...*
*O səfərə az qalıb,*
*o mübarək günə, o səhərə az qalıb...*

Bütün övladları Tanrı dağına aparmaq arzusunda olan şair həm də bu istəyi ilə bütün insanlara, bütün insanlığa öz mesajını göndərir. O mesajın daxilində parlayan işıq insan övladlarının gözlərini ağrıtmır, əksinə onların qəlbinə bir nur yağışı yağdıraraq, mavi, masmavi sabahlara səsləyir.

Elçin İsgəndər poeziyanı orqanizminin bir parçası kimi təsəvvür edir. Özü də elə bir parçası ki, o parçasız insan yaşaya bilməz. Ömrünün keçən heç bir günündə o, yeni bir şeir nümunəsi oxumadan keçinə bilmir. İstər qərb ədəbiyyatından olsun, istər öz klassik və çağdaş ədəbiyyat nümunələrimizlə tanış olmayanda rahatlıq tapıb, dincəlmir.

Şeirə, sözə, sənətə bu dərəcədə vurğunluğu onu o qədər məftun eləyib ki, o, öz əsas profili, elm sahəsi ilə yanaşı şairliyini də davam etdirir. Bu iki sahə onun iki qoşa qanadlarıdı desək, heç də yanılmış olmarıq. Çünki bunlardan biri olmasaydı, qanadlarından biri çatışmayan quş kimi Elçin İsgəndər də yarımçıq olardı. Əslində mən onu bu iki profili ilə birlikdə qəbul edirəm. Başqa cür təsəvvürümə də gətirə bilmirəm. Elmlə poeziya, poeziya ilə elm Elçin İsgəndərin varlığında bir tamlıq, bütövlük təşkil edir. Hansı mövqedə dayanmağından asılı olmayaraq, hansı rütbəyə çatmağına baxmayaraq o, bu iki profili ilə-alimliyi və şairliyi ilə bir yerdə əsil Elçin İsgəndər kimi görünür. Azərbaycanda da, bütövlükdə türk dünyasında, bəlkə də dünyada da... Görkəmli alimimiz, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Nizami Cəfərov bunları nəzərə alaraq, Elçin İsgəndər haqqında belə yazır: "O, həm bilavasitə yaradıcılığına, həm də milli-ədəbi-ictimai mühitin təşkilindəki intensiv, enerjili fəaliyyətinə görə, həqiqətən, çox böyük mövqe, nüfuz sahibidir. Və bu mövqeyin, bu nüfuzun coğrafiyası Azərbaycanın sərhədlərini aşaraq,



ümumən türk dünyasına yayılmaqda, yalnız Elçinin özünə deyil, eyni zamanda (bəlkə də daha çox) onun mənsub olduğu xalqın ədəbiyyatına, mədəniyyətinə, ictimai fikrinə böyük hörmət gətirməkdədir."

Elçin İsgəndər hər poetik nümunəsində ikinci mənini yaradır. Elə bil, o ikinci məni əsas Elçini kölgə kimi izləyərək, ondan qopa, ayrıla bilmir. Yəqin elə buna görədir ki, onun yaradıcılığında səmimiyyətdən uzaq heç nə tapmaq olmaz. Hər şey olduğu kimi, həqiqət müstəvisində, Elçin İsgəndərin özü rəsmində...

Özü haqqında yazdığı avtoportret onun daxili dünyasının şəklini çəksə də, bütün yazıları, əslində, onun elə avtoportretidir.

*Gözlərimin yaşında,*
*ürəyimin başında,*
*bir bulud hüzn,*
*bir yarpaq nisgil.*
*Xəyalımda Xarıbülbül,*
*ilk sevdamdı elə bil.*
*Ömür qaralı-ağlı,*
*bütün yollarım bağlı.*
*Bir gün mənim misralarım*
*ormanda azmış cığır.*
*İçimdə təlatümüm,*
*üzümdə təbəssümüm*
*cadar-cadar,*
*cadar-cadar.*

Elçin İsgəndərin poetik dünyası ilə tanış olanda tam əminliklə deyə bilirsən ki, o, əsl şairdir. Bəlkə də onun şeirləri dillər əzbəri deyil. Bəlkə də onu tanınmış şairlər

cərgəsinə aid edənlərin sayı şeirlərinin sayından azdır. Ancaq bu heç də onun böyük şair olmadığına dəlalət eləmir. Çünki bəzən böyük şairlər zamanlarından qabağa getdikləri üçün elə gələcək zamanda da doğru, düzgün qiymətlərini alırlar. Mən də Elçin İsgəndər poeziyasının nə vaxtsa həqiqi qiymətini alacağına inanıram. Ona görə ki, belə poetik nümunələrin insan qəlbini fəth etməməsi mümkün deyil.



## POEZİYA ÇİNARINDAN YEDDİ YARPAQ

### İstanbulda Şuşa yuxuma girdi

İstanbulda Şuşa yuxuma girdi –
Köhnə məhəlləmiz... dəmir darvaza...
Bu necə yuxudu, ah bu nə sirdi –
Boz dağlar təzəcə çıxmışdı yaza.

Xanın səsi gəldi Qala tərəfdən,
Buludlar axırdı – bəyaz buludlar...
Bir qaya üstündə dayanmışdım mən,
Gözümdə könlümdə böyük umudlar.

Yuxudan oyandım, - gecə yarıydı,
Quyruqlu bir ulduz düşdü dənizə.
Həsrət ürəyimi sancan arıydı, –
Şuşa ilğım kimi göründü gözə.

Dəniz sahilində poyraz əsirdi,
İstanbul yuxusuz, İstanbul oyaq.
Bogazda qərib bir xəyal gəzirdi,
Qız qülləsi yaxın... Şuşa çox uzaq...

## Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşları" tablosunun önündə

Dağlar da ağlayar, bilirəm indi,
Kəpəzin göz yaşı axır kətandan.
Mənim fələk ilə aram sərindi
Qarabağın qara bəxti yatandan.

Kəpəz ağlayırdı... könül pərişan,
Göy Gölün aynası yaşıla çalır.
Qıy vurub havada uçan quş bu an
Bulud karvanında qalxır, alçalır.

Bir tərəfdə matəm, bir yanda düyün,
Ömür qovğasına qarışıb başım.
Sehirli fırçaya əl vurma bu gün,
Ağlatma dağları, rəssam qardaşım...



## Gülhanə parkında

Gülhanə parkında bir yaz axşamı,
Gülhanə parkında hər tərəf işıq.
Bir ceviz ağacı... şair ilhamı...
Gülhanə parkında qafam qarışıq.

Şair yada düşdü, qəlbim alışdı,
Fərqində deyiləm axan zamanın.
Bu ceviz ağacı mənə tanışdı,
Burda xatirəsi yaşar hər anın.

Şairə daş atar bəzən bir nadan,
Özündən bixəbər o daşa dönər.
Nazim əl eləyər uzaq Varnadan,
Həsrət gözlərimdə qan-yaşa dönər.

Bilirəm, görünmür həsrətin sonu,
İstanbul axşama qərq olur indi.
Gülhanə parkında aradım onu,
Gülhanə parkında Nazim yox idi...

## Türkanda yağış

Bağla pəncərəni – yağış yağacaq,
Gözəl bir lövhədi Türkanda səhər.
Bağla pəncərəni – şimşək çaxacaq,
Dalğalı dənizdə batacaq kədər.

Ağaclar yuyunar gürşad yağışda,
Ağaclar qol-qanaq açacaq indi.
Bu doğma torpaqda, bu yad yağışda
Ağaclar elə bil uçacaq indi.

Könüldə bir iz yox ağrı-acıdan,
Yağış döyəcləyər bəyaz damları.
Əl-ayaq kəsilər həyət-bacadan,
Evlərə tələsər kənd adamları.

Yağış damlaları yuyar qəlbimi,
Sən də pəncərədən baxıb gülərsən.
Gülərsən bir yağmur mələyi kimi,
Sən bu bağ evini cənnət bilərsən...



## Təbriz xatirəsi

Təbriz axşamlarını
xatırlayıram yenə.
Bir gün mən bu şəhəri
bağışlayacam sənə.

Sənin sevdan könlümdə
bir Təbriz laləsidi.
Bu sevdanı hifz edən
Gümüş Ay haləsidi.

Elə bil ki, haçansa
burda yaşamışam mən.
Təbriz qoxuyur gülüm,
bax bu yaşıl yasəmən.

## Sevdalanmış Ay

Gecə quşları susub,
göy üzündə axır Ay.
Qərib pəncərələrdən
boylanaraq baxır Ay.

Yolçu yolunda gərək,-
Ay gedər biz gedərik.
Bir salavat çevirib
durub dua edərik.

Seyr et bu mənzərəni,
ulduzlar şam tək yanır.
Sabaha ümidim var –
Ay doğub sevdalanır.



## Samanyolu

Ovsunlayıb qəlbimi
bu gecə samanyolu.
Samanyolundan keçir
qəribin güman yolu.

Qürbət gecələrində,
Mövlanə neyi çaldım,
Ayrılıq gəldi yenə,
yenə tək-tənha qaldım.

Tək-tənhayam, yanımda
dostum, sirdaşım yoxdu.
Bu gecə samanyolu
gümüş kimi soyuqdu...

## SON SÖZ YERİNƏ
## VƏ YAXUD BƏNZƏRİ OLMAYAN İNSAN

İnsan ömrünün müəyyən həddinə gəlib yetişəndə bir anlıq dayanıb nəfəs dərir. Nar çiçəyinin gülümsər ləçəkləri ətrafında dayanıb, yanından axan qoşa çayın sehrinə dalaraq, uca və qoca dağlarla söhbətləşib ömrünün bu anına qədər olan zaman sürəsinə qiymət verməyə çalışır. Və çox vaxt da insan özünü o dağın müxtəlif cığırında, səthində, ucalığında görür. O insan ki, ömrün görünən və seçilən yaş həddində özünü ətrafında dayandığı dağın zirvəsində görə bilir və başqaları da buna öz möhrünü vurursa, mən o adamı Tanrının bəxtəvər bəndələri sırasına aid edirəm. Baxmayaraq ki, böyük insanlar çox zaman zirvədə olduqlarını duymur, bunun fərqinə varmırlar. Ancaq mən qətiyyən tərəddüd eləmədən Elçin İsgəndəri dağın zirvəsini fəth edən ucalardan biri sayıram. Təkcə bir faktı desəm, Elçin İsgəndərin zirvədə olduğuna tərəddüdlə yanaşanlar fikirlərində düzəliş edər, mənim fikrimlə razılaşarlar. Mən dünyada elə bir insan tanımıram ki, bir-birinə tamamilə əks qütbdə dayanan iki sahənin eyni zamanda bilicisi olsun. Elçin İsgəndər bunu bacarıb. Həm texnika elmləri sahəsində, həm də poeziya kəhkəşanında, sözün həqiqi mənasında özünü təsdiq edib. Bu sahələri müqayisə edəndə çiçəklə dəmirin bir-biri ilə qoşa yol getdiyini nəzərimdə canlandırıram. Və onun əlində çiçək nə qədər gözəl, lətif görünürsə, dəmir də öz dəmir əzəmətində qalır, bərkliyinə, möhkəmliyinə xələl gəlmir.



İsdedadlı şair Qulu Ağsəs onun haqqında danışanda belə deyirdi: "Hərdən istəmişəm, yanında bir pis söz deyim, görüm onun da arsenalında oxşar kəlmə var, ya yox. Əlbəttə, yoxdu. Hər şey bir adamda olmaz ki – karyera, elm, nüfuz, şöhrət, qələm, pul... Elçin İsgəndərzadənin bir ayağı yerdədirsə, biri göydədi. Nə vaxt zəng vurursan, "bu nömrəyə zəng çatmır". Elçin müəllim yerimir, qaçmır, uçur. Onun təyyarələrdə, hava limanlarındakı nüfuzu iş yerindən çox olar. Göydə olanda bəlkə də, ona elədiyim alxışları eşidir. Amma səsimi tanımır. Tanısaydı, ən azı, zəng vurub təşəkkür eləyərdi."

Başqa bir görkəmli qələm əhlimiz Elçin Hüseynbəyli də onun haqqında maraqlı fikirlər söyləyir. Deyir, o, göy adamıdır, yerlə işi yoxdur. Təyyarənin trapından bir addım yerə atanda, iki addım da göyə atır... Tanrı bu adamın ruzusunu ürəyincə verib. Alqışlar adaşımı ucaldır və o, bu ucalığa layiqdir.

O, bu ucalığa gedən yolda Vereşaqinlə qiyabi yarışda ona qalib gələ bilməsə də, Lomonosov kimi dahi bir şəxsiyyətlə "yarışda" uduzmadı. Əksinə, ondan daha güclü olduğunu sübuta yetirdi. Baxmayaraq ki, Lomonosov müsəlman olmadığına görə daha geniş kütləyə tanıdıldı. Amma bütün tərəfləri ilə mən Elçin İsgəndəri Lomonosovdan daha güclü alim və şəxsiyyət hesab edirəm.

Əbülfət Mədətoğlu onun haqqında duyğularını poetik ifadələrlə belə təqdim edir. Və elə bilirəm ki, dediklərində qətiyyən yanılmır.

*Yaşı*
*və boy-buxunu*
*O qədər də*
*Görünmür.*

*Yaşı da,*
*Boy-buxunu da*
*Misralara,*
*Düsturlara*
*Çevrilib-*
*İz salır,*
*Özgə izlə*
*İməkləmir, sürünmür..*
*Bu yaşda,*
*Boy-buxunda*
*Bir cavanı çevirdin*
*Pasportuna millətin!*

Bu sözlər çox böyük poetik tapıntıdır. Və həqiqətin özüdür. Doğrudan da, bu insan – Elçin İsgəndər (zadə) millətimizin, etnosumuzun, ümumən, Böyük Türk Dünyasının pasportudur. Bu pasportla fəxr eləməyə, ucalarda saxlamağa dəyər.

Əlli yaşın ucalığında çevrilib gəldiyi yola baxanda, görəsən, nə düşünür Elçin İsgəndər? Onun nə düşündüyünü deyə bilmərəm. Amma mən bu qənaətdəyəm ki, bu yolun işığından milyonlar bəhrələnib. İnsanlar Elçin İsgəndər nurunda yol gedərək haqqın, ədalətin, saflığın, təmizliyin, paklığın, bir sözlə, insanlığın həqiqi düsturunu tapıblar.

Bu haqq yolun mübarək, Elçin İsgəndər!!!



# HAQQINDA DEYİLƏNLƏR, RƏYLƏR, ARZULAR

## <u>MÜZƏFFƏR MƏMMƏDOV</u>

*Əməkdar müəllim, fəlsəfə doktoru, dosent*

## TÜRK DÜNYASININ FƏXRİ

Hələ on, on beş il bundan əvvəl Elçin İsgəndərzadə haqqında çox eşitmişdim. Onun elm sahəsində, ədəbiyyat aləmində qazandığı uğurlar geniş müzakirə mövzusuna çevrilmişdi. Bu gənc alimin, şairin uğurları məndə də geniş maraq doğurmuşdu və bu marağın işığında onunla tanış olmaq, yaxın münasibət qurmaq arzusu qəlbimə hakim kəsilmişdi. Və bu tanışlıq gözlənilmədən yarandı. Qardaşım yazıçı-publisist Rasim Gənzəli mənə deyəndə ki, Elçin İsgəndərzadə ilə yaxın dostluq, qardaşlıq münasibətləri qurmuşam, buna çox sevindim. Elə o gündən mənim də onunla yaxın münasibətlərim yarandı.

Bu dövr ərzində Elçin İsgəndərzadəni mən çox dərindən tanımışam. Əlli illik elmi, pedaqoji fəaliyyətim ərzində qəti inama gəlmişəm ki, Azərbaycanda Elçin İsgəndərzadə qədər təkrarsız, əvəzolunmaz, unikal bir alim, pedaqoq, şair tapmaq çətindir. Bəlkə o, dünyada da bənzərsizdir. Çünki bir-biri ilə ayrı-ayrı qütblərdə dayanan iki sahədə eyni böyüklükdə uğur qazanmaq hər kişinin işi deyil. Həm texnika sahəsində, həm də filologiya elmində yüksək dərəcə almaq dünyada analoqu

olmayan bir hadisədir. Fəxr edirəm ki, bunu bizim soydaşımız etməyi bacarıb. Bu bir daha bizim millətimizin nə qədər intellektual səviyyəyə malik olduğunu sübuta yetirir.

Elçin İsgəndərzadə barəsində yazılan məqalələrlə, kitablarla, onun mətbuatdakı çıxışları ilə tanış olanda, istər-istəməz düşünürsən ki, o, türk dünyasında parlayan Azərbaycan işığıdır. O, türk dünyasında əlində bayraq hər zaman elmi konfranslarda, seminarlarda, simpoziumlarda, festivallarda Azərbaycanı şərəflə təmsil edir. Bütün dünyada Azərbaycan işığı kimi yanaraq, Turan dünyasının şöhrətini daha da ucaldır.

Elçin İsgəndərzadənin yaradıcılığı ilə tanış olanda adam başqa bir aləmə düşür. İndiyə qədər çoxsaylı elm, ədəbiyyat, mədəniyyət xadimləri haqqında kitablarla tanış olmuşam. Lakin "İhlamur" dərgisində Elçin İsgəndərzadənin qazandığı ödüllərin siyahısını görəndə, heyrətə gəlmişəm və inanmışam ki, onun qədər çoxlu sayda ödüllər qazanan alimimiz, şairimiz yoxdur.

Nəyə görəsə, Elçin İsgəndərzadə haqqında düşünəndə alim tərəfindən onu Lütfi Zadəyə, şair tərəfdən isə Nazim Hikmətə bənzətmişəm. Amma bütün bu bənzərliyi ilə bərabər, yenə qeyd edirəm, o, bənzərsiz və təkrarolunmazdır.

Elçin İsgəndərzadə alim, pedaqoq, şair olmaqla yanaşı, həm də əsl vətən daşıdır. Daim öz millətini, xalqını dünyanın müxtəlif ölkələrində təmsil etməklə öz millətini digər xalqlar içərisində tanıtmağa çalışır. Və buna hər zaman nail olur. O, öz əsərləri ilə gənclərə düz yol göstərir və vətənin daşı olmağı öyrədir. Qardaşım Rasim Gənzəli ilə onun yaxın münasibəti də elə bu hisslərdən qaynaqlanır. Çünki bu insanların hər ikisi vətən üçün ölməyi bacaran, vətənin



daşına çevrilən ölkə vətəndaşlarıdır. Bu xarakterik əlamətlər onları birləşdirərək dosta, qardaşa çevirib.

Elçin müəllim həm də nümunəvi ailə başçısıdır. Həyat yoldaşı Afət xanımla birlikdə elə övladlar tərbiyə ediblər ki, bu övladların da sabah Azərbaycana şərəf gətirəcəklərinə məndə böyük inam var.

Müdrüklüyünün cavanlıq çağına qədəm qoyması münasibəti ilə Elçin İsgəndərzadəni təbrik edir, ona gələcək elmi, pedaqoji, ədəbi yaradıcılığında daha böyük uğurlar, daha çox ödüllər diləyirəm.




Səsinin fanatı olduğu xalq artisti Flora Kərimova ilə



Məmməd Araz yadigarları, əzizləri Aqil Abbas
və İradə xanım Tuncay ilə






Millət vəkili Qənirə Paşayevaya
mükafat təqdim edərkən




Elçin İsgəndərzadə, Qırğızıstan Yazarlar Birliyinin sədri,
xalq şairi Nadırbek Alımbekov və Anar



Növbəti təltifdən sonrakı övlad təbrikləri



Atatürk Mərkəzində








Əziz dostların əhatəsində



Yazıçıların qurultayında



Azərbaycan Yazıçılar Birliyində







Doğma tələbələr arasında



Rektor Havar Məmmədov Təhsil Nazirliyinin Fəxri Fərmanını təqdim edir



Yubiley təbriki



**<u>NƏRİMAN HƏSƏNZADƏ</u>**

*Xalq şairi*

## ELÇİN İSGƏNDƏRZADƏ YARADICILIĞI
## ( Türkçülük – vətənçilik kontekstində)

"Xarıbülbül" dediyimiz, həqiqətən də bu nadir və əfsanəvi "quş", adı dillərdə dastan olan qədim bir torpaqda – Şuşa torpağında yuva qurmuşdur.

Amma şuşalılara rəvan şeir dili verən, ilahi səs bağışlayan bu "bülbül" oxumur; öz dili, öz səsi yoxdu.

Mən Şuşada qızılgülün üstə qar görmüşəm. İlin dörd fəsli bir gül ləçəyində qərar tutmuşdu.

Elçin İsgəndərzadə də Şuşada anadan olub. "Xarıbülbül"ün həmyerlisidi. Üstə qar olan qızılgülü yəqin ki, o da görüb.

Şuşa yad əllərdədi. Düşmən tapdağında. "Xarıbülbül"ün yuvası dağıdılmışdı.

Elçin İsgəndərzadənin yaradıcılığında Şuşa harayını eşidirəm. O, xarıbülbülün əvəzinə oxumalı, qarlı qızılgülün əvəzinə danışmalıdı. Oxuyur da, danışır da.

*Ürəyimin başında,*
*Gözlərimin yaşında*
*Bir bulud hüzn,*

*Bir yarpaq nisgil.*
*Xəyalımda Xarıbülbül,*
*İlk sevdamdı elə bil.*
*Ömür qaralı-ağlı,*
*Bütün yollarım bağlı.*
*Bu gün mənim misralarım*
*Ormanda azmış cığır.*
*İçimdə təlatümüm,*
*Üzümdə təbəssümüm,*
*cadar-cadar.*
*Nə dünəni xatırlayıb*
*Güvənməyə bir şey var,*
*Nə də sabah çin olacaq arzular.*
*Ay işığına qarışıb*
*Bu gecə axar sular.*
*Ağaca calaq vuran bağban kimi*
*Calaq vurdum ürəyimə*
*Tumurcuq umudlardan...*
*Şeirimin misralarına*
*Nəsə damır Göy üzündən, buludlardan.*

*("Avtoportret")*

Gah ulu babası Qurbaninin xalq ruhunda, gah da çağdaş türk şeiri üstündə köklənən şeirlər, poemalar yazan müəllifin əsərləri qarşımdadı.

O, üzünü tək bir oxucuya yox, bütün türk dünyasına tutub danışır, tanıdığı şəxsiyyətlərə müraciət edir. Gah ürək sözünü, gah da əsrin sözünü deməyə çalışır. Zəmanəylə, dövranla üzbəüz oturub danışmağı sevir.



Onu danışdıran ilahi bir qüvvə var ki, daima şairin rahatlığını pozur. O bu "təzyiqə" məhkumdu – şairlik səadəti də bundadı.

Gənclik şeirlərinin birində Elçin böyük arzularla yaşadığını, həyata, insana bağlılığını təbii boyalarla ifadə edir.

Ancaq böyük Nizaminin dediyi kimi, bir köynəyə sığan insan bir dünyaya sığmadığı üçün, bəzən öz hisslərini cilovlaya bilmədiyinə görə ona elə gəlir ki, həyatın ən ağır anlarını yaşayır.

*Mənim bu dünyada əlim çatası*
*Nə qədər arzular qaldı gözümdə,*

- deyə şikayətlənir də. Hətta şairin səfəfbəredici poetikasında belə not səsləri eşidilir:

*Demək südündə şairlik varmış,*
*şair oldum.*
*Demək südündə alimlik varmış,*
*alim oldum.*
*Demək südündə oğulluq yoxmuş, -*
*Ola bilmədim,*
*oğlun ola bilmədim, QARABAĞ!*

*("Ola bilmədim")*

Əlbəttə, bu misralar göründüyü kimi birbaşa yox, onun sətiraltı mənasında qəbul edilməlidir.

Çünku şair başqa bir şeirində:

*Mən bu gözəl dünyanın*

*Nəşəsini,*
*Qəmini,*
*Sevgisini,*
*Ölümünü,*
*Cənnətini,*
*Cəhənnəmini*

*Bir şair kimi görüb gəldim*
*Dərgahına Allahın.*
*Diz çöküb dua elədim,*
*Çin oldu sayəndə duam, ahım,* - deyir.

*("Ömür tablosu")*

Bu da şairin özünütəkzib üçün, oxucu qarşısında səmimi etirafı, ünsiyyət vasitəsidi. Təbiətdə olduğu kimi, şairin də dəyişən fəsilləri olur. Şuşada qışda açan qarlı qızılgül kimi.

Mən buna anomaliya yox, təbiət hadisəsi deyirəm. Çünki şairliyin hər anı bir təbiət hadisəsidir.

Elçin İsgəndərzadə isə şeirdən-şeirə püxtələşən, poetik uçuşlara həmişə hazır şairdi.

*Oyanır türküm, oyanır,*
*Hər şəhid məzarından*
*Boylanır bir Boz qurdum.*
*Təbrizdən İrəvana*
*Uzanır ana yurdum.*
*Atlarımın nalları*
*Çapır daşlı yolları.*



*Tanrı ətəyində əlim,*
*Yolun son ucu ölüm.*
*Ay baxır göy üzündən,*
*Keçdim Cıdır düzündən.*
*Cıdır düzündə bahar, -*
*Daşlı yolda qan izi var.*
*Ağlama kəhər atım,*
*Göydə Ay mənim muradım.*

Onun "Avtoportret", "Türkün qəzəbi", "Qaranlıq, zülmət, qan və qaçqınlıq", "Qazi türküsü" kimi şeirlərində və silsilə poemalarında Şuşa həsrəti, Qarabağ dərdi bir torpaq oğlunun ruhi ağrıları kimi hiss olunursa, türkçülük – şairin yaradıcılıq manifesti kimi özünü daha şəffaf göstərir. Elçinin türkçülüyü isə - vətənçilik kontekstində onun poeziyasının leytmotividir.

Bu hisslər və duyğular Elçin humanizmi, Elçin həssaslığı, Elçin mehribanlığı kimi insandakı ümumbəşəri keyfiyyətlərin daha da inkişafına səbəb olur, daimi mehri-ülfətdə, daimi ünsiyyətdə keçən ömrə xüsusi məna verir.

Çingiz Aytmatov yazır ki, "Elçin İsgəndərzadənin poeziyasının son illər dünyanın onlarla ölkəsində yerli dillərə çevrilərək çap olunması ondan xəbər verir ki, türk poeziyası da artıq dünya poeziya okeanına yelkən açmaqdadır".

KKTC Cümhurbaşqanı Rauf Denktaş: "Kıbrıs və Azərbaycan türkləri eyni kökdən gəlmələrinə, eyni dili istifadə etmələrinə rəğmən, yaxın zamana qədər bir-birini yaxından tanıya bilməmişlər. İndi isə bu qapı açıldı...

Prof. Dr. Elçin İsgəndərzadə bu sırada olan dəyərli bir arkadaşdır".

Mən burada yalnız türk dünyasının iki tanınmış və sevilən şəxsiyyətlərinin fikirlərini misal çəkdim.

Müəllifi olduğu, tərtib etdiyi, Azərbaycan türkcəsinə çevirdiyi kitabların sayı-hesabı yoxdu. Öz kitabları dünyanın bir çox dillərinə tərçümə edilib.

Bütün bunlar isə Azərbaycanın müstəqilliyi illərində bizim ədəbi mühitdə həqiqətən tarixi hadisədir.

Elçin İsgəndərzadənin zəngin bioqrafiyasının təkcə xronoloji hissəsi ilə tanış olduqca düşünürsən ki, insan istəsə, az bir müddətdə dağı dağ üstə qoya bilər.

Mən eşidəndə ki, Gəncə şəhərində yaşayıb-yaradan görkəmli, koloritli bir yazıçı Qərib Mehdinin əsərlərinin oncildliyini (əlyazmasından tutmuş mətbəə proseslərinə qədər) Elçin İsgəndərzadə nəşr etdirib, sonra da o cildləri müəllifin özünə hədiyyə edib. Mən də gəncəli Qərib qardaşım qədər sevindim.

Yaxud Xudu Məmmədovun adına elm sahəsində, Şahmar Əkbərzadə adına isə ədəbiyyat sahəsində Beynəlxalq mükafatlar təsis edib və 10 ildən çoxdur ki, laureatların 50-dək kitabları hədiyyə olaraq bir-birinin ardınca işıq üzü görür. Kitab nəşri sahəsində bu, bütöv bir ədəbi hərəkatdır.

Elçinin Xudu Məmmədovun və Şahmar Əkbərzadənin xatirəsinə həsr etdiyi poemaları da minnətdarlıqla oxudum.

Xudu Məmmədov o vaxt biz gənclər üçün paklıq, azərbaycançılıq məktəbi idi.

Bir şeyə indi də heyfsilənirəm.

"Ədəbiyyat və incəsənət" qəzetinə yenicə baş redaktor təyin olunmuşdum. Qəzet iri formatda, həftədə bir dəfə səkkiz səhifə çıxırdı. Nigarançılıq keçirirdim.

Qəzet həm də iki böyük təşkilatın – Azərbaycan Yazıçılar İttifaqının və Respublika Mədəniyyət Nazirliyinin orqanı idi.

Yolda, indiki İstiqlal küçəsində Xudu müəllimlə rastlaşdıq – Səni görmək istəyirdim, - dedi. – Papkasından



göy rəngli bir şagird dəftəri çıxartdı. On iki səhifənin hamısı əlyazması ilə dolmuşdu. – Ədəbiyyat, incəsənət məsələlərini demirəm, elmə aid problem məsələləri yazmışam. Qəzetin ətrafına yaxşı müəlliflər topla..."

Mən o şagird dəftərini itirməyim deyə, sonra haraya qoydumsa, hələ də tapa bilmirəm.

İndi "Bu qala bizim qala" poemasını məmmunuyyətlə oxuyanda o böyük insanın mələk siması yenidən gözlərim önünə gəlir.

*...Dünya talan dünyadı,*
*Gün gəlincə, verdiyini*
*Geri alan dünyadı.*
*Sən taleyin gecəsini*
*Gündüzünü görmüşdün.*
*Göy qübbəsi altında*
*Bu dünyanın hər üzünü görmüşdün.*
*Sən dünyaya uymadın,*
*Sən mərd oğlu mərd idin.*
*Sən gül ləçəyindən yumşaq,*
*Qranitdən sərt idin.*
*...Çiçək ömrü, yarpaq ömrü yaşadın,*
*Yüzillik çinarlar sənin yaşıdın.*
*Çiçək ömrü,*
*Yarpaq ömrü,*
*Bulaq ömrü,*
*Mələk ömrü yaşadın.*

Poemadan köçürdüyüm bu misralar Xudu müəllimin portret cizgilərini çəkmək üçün ən münasib, ən seçmə sözlərdi. Əgər o yaşadısa, həqiqətən "çiçək ömrü, yarpaq ömrü, bulaq ömrü, mələk ömrü" yaşadı.

Müəllifin poemada real boyalarla verdiyi kristal haqqında söhbət Xudu Məmmədovun elmi axtarışları və tapıntıları ilə bağlıydı.

*Hacansa qədim insan,*
*Bəlkə qutlu bir şaman*
*Öz içində bərq vuran*
*Bir daş – kristal tapdı.*
*Başqa bir qədim insan*
*Kristalı onun əlindən qapdı.*
*İki qardaş savaşdı,*
*İnsan qanı töküldü.*
*Şeytan bunu görürdü,*
*Şeytan əl çalıb güldü.*
*Və qədim insan birdən durdu.*
*Daş alətlə kristala bir zərbə vurdu.*
*Və bərq vuran kristal insanı ovsunladı.*
*....Və bir gün qədim insanın tapdığı ilk kristal*
*Xudu Məmmədovun əlinə düşdü.*
*O da məftun oldu bərq vuran kristala.*
*O, alimlər rəssamıydı –*
*Kristalın sirrini*
*mozaik qravürlərlə,*
*naxışlarla çözürdü.*
*Kainatın rəmzi idi onunçun kristal –*
*Mozaik naxışların*
*nə əvvəli, nə sonu var.*

Xudu Məmmədov kristallar barədə Londonda ingilis dilində doktorluq dissertasiyası müdafiə etmişdi.



Eşitmişdim ki, azərbaycanlı alim Xudu Məmmədov bizim ulu nənələrin toxuduğu xalıların, kilimlərin üstündəki naxışların izini yerin səkkizinci qatına aid olan kristal kəsiyində görübdü.

Olduqca maraqlı bir elmi kəşfin müəllifinə taleyi yaşamaq üçün möhlət vermədi. O, dünyasını qəfildən dəyişdi.

*Ürəyimdə hələ dərddi gül açan,*
*Novruzgülün mənim kimi bağrı qan.*
*Xarıbülbül, qovuşarıq bəs haçan?*
*Qarabağa bizsiz gəlir bu yaz da, -*

deyə könül çırpıntılarını oxucusu ilə bölüşən müəllif indi də "Şahmar şikəstəsi" poemasında dünyasını vaxtsız dəyişən şair Şahmar Əkbərzadənin yadda qalan detallarla bədii obrazını yaradır.

Burada şairin "48 ölçülü qadın paltarı" məşhur hüznlü şeiri, Şahmarın "Topxanaya, Armud ağacına yazdığı məktub"un ermənilər tərəfindən güllələnməsi xatırlanır; taleyi bir-birinə bənzəyən qələm dostlarının Bişkekdə görüşü də unudulmur:

*Eyvandan qaranquşlar*
*Xəbər verir ilk bahardan.*
*Mir Cavadın rəsmləri*
*Asılmışdı divardan.*
*Kitab dolablarında*
*Çingiz ağanın kitablarıyla*
*yan-yana, çiyin-çiyinə*
*Bizim Bəxtiyar, Şahmar, Anar.*
*Siz sonuncu Ordaçılar idiniz, -*

*Çingiz ağa, Bəxtiyar.*
*Boz qurd kimi məğrur Oljas,*
*Xudanın sirri Xudu.*
*Və sən, qardaşım Şahmar.*

Şahmar şəxsiyyətinə və poeziyasına, ümumtürk dünyasına məhəbbət hissilə yazılmış “Şahmar şikəstəsi” əsəri bəlkə də Şuşada eşitdiyim sonuncu muğam fəryadı idi ki, o indi Cihada çağırırdı.

Elçin İsgəndərzadə bir-birinə bənzəməyən, lakin ulduz karvanına bənzəyən poemalar silsiləsi yazmışdır ki, onlar da ilhamlı könül dünyasından xəbər verir.

Mən ümid edirəm ki, şairin türk dünyasına səpələnmiş oxucuları öz könlündən keçənləri Elçinin kitablarının səhifələrində tapacaqlar. Elçinin özünü axtarsalar, o həmişə olduğu kimi oxucularının yanında, könlündə, taleyindədi.

50 yaşlı gənc qardaşıma daha cox cildliklər və daha böyük yubileylər arzulayıram!



## ZƏLİMXAN YAQUB

*Xalq şairi*

### ÜMİDİN QANADLARINDA

Göylərə ümidlə bax, göy kimi geniş olarsan. Torpağa ümidlə bax, yer kimi bərəkətli olarsan, səhərə, Günəşə ümidlə bax, səhərin xeyirliyə açılar, suya ümidlə bax, taleyin su kimi dumduru olar, çəmənə ümidlə bax, çiçək kimi açıl-saçıl, dünyanın özü qədər böyü, ucal, yaşa, yarat! "Mənim bu gecəyə çox ümidim var" deyən şairimiz hər şeyə ümidin gözüylə baxır. Hər şeyə ümidlə baxanda ulduzlar çiçəkləyir, alçalar gül açır, mələklər yuxuna gəlir, olursan dünyanın bəxtəvəri. Adı Türk dünyasına bəlli olan, özü kimi şeirləri də dünyanı gəzən Elçin İsgəndərzadə mənim sevdiyim şairlərdən, səsimizi aləmə yayan gələcək sahiblərindən biridir. Onun qələmi yazır, əli işləyir, ürəyi döyünür. Hər üç ilahi varlıq Tanrı töhfəsi şairin bütövlüyünü yaradır. Vətənin müqəddəsliyindən söz açanda da, şeirlərini qürbətə uçuranda da... Qarabağın dərdi ilə bağlı qanlı şeirlər yaradanda da, qələm dostlarına şeirlər yazanda da, həyatda olan çatışmamazlıqları qamçılayanda da Elçin səmimidir.

Elçinin üzündə, cismani varlığında olduğu kimi, mənəvi varlığında da bir nur, bir işıq var. Bu işıq onun ömür yoluna, yaradıcılığına bir təbəssüm gətirir.

*Oxumaq... bu hələ dursun bir yana,*
*Əlin kitabıma dəydi, bəsimdi.*
*İçində ürəyim çırpınır onun,*
*Ovcunda cənnəti duydu, bəsimdi.*

Şair oxucudan oxucu məhəbbəti, böyük sevgi, səmimiyyət istəyir. Şairə bunlar lazımdı - Hava kimi, Su kimi, Günəş kimi. Bunlar varsa şair var və var olacaq.

Şairin müxtəlif ölkələrdə, müxtəlif yerlərdə yazdığı şeirlərə xüsusi fikir verdim, məhəbbətlə yanaşdım. Gördüm ki, bu şeirlər də o yerlərin özü kimi rəngarəngdir. Bu əsərlər şairin təkcə öz yaradıcılığını deyil, Azərbaycan ədəbiyyatının üfüqlərini genişləndirir. Xüsusilə Türkiyə ilə, Türk dünyası, türk ədəbiyyatı ilə bağlı mövzular məni daha çox özünə cəlb elədi. Bu yazılarda olan doğmalıq, təbiilik məni daha çox özünə çəkdi. "Türkülər" məni çox düşündürdü. "Yovşan türküsü" məni Altaylardan Anadoluya qədər gəzdirdi.

*Qədim bir eşq duası,*
*Çəkib aparır məni.*
*Tanrı dağlarıdı, qızım,*
*Ruhumuzun Vətəni.*

*Orda Altay dağları,*
*Fələklərlə savaşır.*
*Nə vadidən karvan keçir,*
*Nə zirvədən bulud aşır.*



Türkülərin hər biri bir dastanın, bir boyun mövzusu, xəritənin müxtəlif rəngləridir, bir xalının müxtəlif çeşidləridir.

*Əlvida tanrı dağları,*
*Bəyaz mələk əlvida.*
*Bəlkə bir də görüşdük,*
*Görüşmədik ya da.*

Mən bu türküləri oxuyanda elə bilirdim şıdırğı bir yağışın altında göylərə tamaşa edirəm. Bütün türk dünyası gəlib gözlərimin önündən keçirdi.

*Hər gün yeni bir ümidə*
*açılır pəncərəmizdə səhər,*
*Ümidlərimizin şəhəridi*
*qoynunda yaşadığımız şəhər.*

Bu ümidli misraların qucağında uça-uça dünyanı gəzirdim. Bu dünya məni Elçin İsgəndərzadənin şeirlərinin ətrinə bələmişdi.

Elçin İsgəndərzadənin poema yaradıcılığında klassika ilə müasirliyin, şairliklə rəssamlığın, böyük insanlarla təbiətin qovuşuğu var. "Adil Mirseyidin göyərçinləri", "Rəssamın pəncərəsi", "Səttar Bəhlulzadə nağılı", "Pikasso və Minatavr", "Van Qoqun günəbaxanları", "Salvador Dali üçün madriqal", "Qoyya", "Lorka və siyah Ay", "Üfüqdə qırmızı Günəş", "Rəssam və mələk", "Bu qala bizim qala", "Turan savaşçısının nəğmələri", "Şahmar şikəstəsi", "Oğlum Əliyə dualar", "Məmməd Araz qayası", "Cavid cihadı" və

başqa poemaları bütövlükdə dərdlə, kədərlə, göz yaşı ilə, hıçqırıqla, ümidlə nəfəs alır.

*Bu bir Tanrı möcüzəsidi...*
*Göyərçinlərin son ümid yeri*
*Bir şairin kirayə pəncərəsidi...*

Vaxtsız dünyadan köçən şairimiz Adil Mirseyidə həsr olunmuş bu əsər bir sənətkarın ömrü boyu çəkdiyi əzabların, iztirabların, bənzərsiz yaradıcılığın poemasıdır. Göyərçinlərin yuvasından - Bakıdan Parisə qədər, Şuşasız dünyamızdan, Cıdır düzündən Sena çayına qədər şair xəyalı bizi dərdlərimizin başına dolandırır.

*Gecəyə laylay çalırmı,*
*Qarqarın gümüş suları.*
*Ay doğanda çin olacaq,*
*Bir şairin arzuları...*

Bu əsərdə olan göyərçin obrazı çox ustalıqla işlənib.

*Ürəyini göyərçinlərə yedirən*
*Bir şair olmalıdı*
*Bu gözəlim məmləkətdə.*

Mən bu əsəri Adil Mirseyidin ruhuna bağışlanmış ən gözəl əsərlərdən biri hesab edirəm. Elçin isgəndərzadə "Səttar Bəhlulzadə nağılı" əsərində

*Dərviş kimi,*
*Yoq kimi*
*Bir rəssam yaşayırdı,*
*Abşeron torpağında –*



deyib rəssamı oxucuya bütün rəngləri ilə tanış edir. Dahi rəssamın dahiyanə əsərlərindən söhbət açan müəllif "Kəpəzin göz yaşları"nda öz poetik sözüylə xüsusi rəng qatır. Bu rənglərin içində bir Əmircan dünyası var, bir də bütün dünyanı Əmircanlaşdıran ölməz sənət var.

Şair istər Lorkadan, Nazim Hikmətdən, Pikassodan, Van Qoqdan, Salvador Dalidən, istər Müşfıqdən - kimdən söhbət açır açsın hamısında Cıdır düzünə, Xarıbülbülə, Şuşaya, Qarabağa, yaralı Vətənə qayıdır.

Mərhum şairimiz Nizami Aydının xatirəsinə həsr olunmuş "Lorka və siyah Ay" poeması təkcə Nizami Aydının yox, Lorkaların, Müşfiqlərin taleyinin poetik əks-sədasıdır. "Üfüqdə qırmızı Günəş" böyük rəssam Toğrul Nərimanbəyova həsr olunub. Bu əsərin baş qəhrəmanı Nar və Günəş bizim işıqlı dünyamız və ümidimizdir. Ümumiyyətlə Elçinin böyük alim Xudu Məmmədova, Çingiz Aytmatova, Şahmar Əkbərzadəyə, Səttar Bəhlulzadəyə, Cavid Əfəndiyə həsr etdiyi əsərlərdə şair dünyasının genişliyi, dünyagörüşünün rəngarəngliyi var. Ümumiyyətlə bu poemalarda bir işıq var, ümid var, həsrət var, ayrılıq var. Bu var olanların arxasında bir əbədiyyət var. Anın əbədiyyəti, zamanın əbədiyyəti. Ömür-gün yoldaşına həsr etdiyi "Eşq" poemasında az qala bütün dünyanın eşq dilində xəritəsi var. Üverturadan epiloqa qədər on yeddi başlıq altında yazılan əsərlər bir insan qəlbinin mürəkkəb fəlsəfı duyğularıdır. Bu əsərdə çəkilən adlara fıkir verin, - Peterburq, Aleksandr Blok, Ərəfat, Sofıya, Bişkek, Qaracoğlan, Yunus Əmrə, Gəncə, Moskva, Paris, İspaniya, Roma, Varşava, Tanrı dağları, Şam şikəstəsi, Təbriz, Daşkənd. Bu başlıqlar altında yaşayan adların hərəsi bir tarixdir. Bu əsərdə dünyanın həm coğrafı düzəni, həm də

tarixi düzəni açılır. Şairin dünyagörüşünə qol-qanad verir. "Cavid cihadı" və "Məmməd Araz qayası" əsərləri mənim üçün daha doğmadır. Çünki hər iki əsərdə yaralanmış Azərbaycan, əsir olmuş Qarabağ, Məmməd Araz harayı, indi bizim olmayan yerlərin göz yaşı, Cavidin şəxsində bir insan ömrünün sızıltıları, "Hər şairin ömründən bir araz çayı axır" deyən ürəyin çırpıntıları insanı üşüdür, göynədir.

Məndə qəti şübhə yoxdur ki, ədəbiyyatşünas alimlərimiz, istəkli oxucularımız Elçinin bu əsərləri haqqında dəyərli məqalələr yazıblar və yazacaqlar, fıkirlər söyləyiblər və söyləyəcəklər. Çünki bir yazıda geniş fıkir söyləmək çox çətindir. Mən qələm dostumun son əsərlərini ürəklə, məhəbbətlə, sevgiylə oxudum. Onun bir şair kimi dünyagörüşünün genişliyinə, ümidin qanadlarında uçmağına heyran oldum.

Elçində olan şair fəhminin gücü, rəssamlıq duyğularının dərinliyi məni sevindirdi.

Arzu edirəm ki, şair dostum Elçin yazmaqdan, gəzməkdən, mütaliə və müşahidə etməkdən yorulmasın.

50 yaşın mübarək olsun, əziz qardaşım! Tanrı səni Şuşana, Cıdır Düzünə, Xarıbülbülünə qovuşdursun!!!

*27 iyul 2014*



## NİZAMƏDDİN ŞƏMSİZADƏ

*Respublika Dövlət mükafatı laureatı,*
*filologiya elmləri doktoru, professor.*

## İDRAKIN BƏDİİ ŞÖLƏSİ

*Yer üzünün gözəlliyi ondadır ki, orada türklər yaşayır.*

Bəşər övladı dünyaya xəlq olduğu gündən insanın zəkası ilə qəlbi, fikirlə hiss arasında mübarizə gedir. Mənim fikrimcə əql insana Allah tərəfindən maddi aləmi - yer hərəkətlərini dərk etmək üçün verilmiş ən böyük imkandır. Qəlb-duyğu, hissiyyat isə daha böyük, təbii ki, idraki yox fəhm (və vəhy) imkanlarına malikdir. Ona görə də bir var, həyatdan, kitabdan, müəllimdən öyrənilmiş elmlər. Mən bunları müdrik elmlər adlandırıram. Bir də var çox nadir insanların, peyğəmbərlərin, dahilərin, övliyaların bəsirət gözü ilə görüb fəhm etdikləri-bunlar mistik (səmavi) elmlərdir. Poeziya, xüsusilə lirika və musiqi qəlbin məhsuludur. Lirik şeirin, nəğmənin mənbəyi insanın qəlb aləmidir. Bununla belə böyük poeziya o zaman yaranır ki, fikirlə hiss birləşir. Təxminən əlli il öncə XX əsrin böyük şairi, silsilə poetik kəşflər ustası əbədi gənc Əli Kərim “İntellekt və poeziya” məqaləsində bu həqiqəti nəzəri şəkildə yada salmış və belə bir şeirin parlaq nümunələrini (“İlk sevgi”, “Qayıt” yaratmışdır.)

Bir neçə istisna nəzərə alınmazsa XX əsrin əvvəlinə - maarifçi realizmin janrları yaranana qədər Azərbaycan ədəbiyyatı tarixi poetik (şeir) formalarında təkamül etmişdir. Nəzərə alsaq ki, "ülumi-ədəbi" 15-17 elmdən ibarət idi, bu da Şərqdə poeziyanın həm də nəzəri-fəlsəfi fikri əks etdirməsini təsəvvür etmək çətin deyil. Dahi Nizami Gəncəvinin "Xəmsə"si həm də belə bir həqiqətin ifadəsi idi ki,

*Rütbələr içində seçilir biri*
*Hamıdan ucadır alimin yeri*
*Elmlə, biliklə, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz.*

"Sözə xor baxmaq olmaz hər söz // Ərşdəndir gəlib hədiyyə bizə". "Söz yaradanın mədhi-sənasıdır, nəğməsidir" kəlamları ilə SÖZün ilahi-səmavi mənsəbini qəbul edən böyük Füzuli "elmsiz şeir əsasız divar olar, əsasız divar qayətdə bistibar olar" düsturunu irəli sürmüşdür.

Çağdaş Azərbaycan ədəbiyyatında fikirlə hissin vəhdəti əsasında intellektual poeziya yaradan məşhur qələm sahiblərindən biri Elçin İsgəndərzadədir. Elçin ədəbi və elmi-ictimai mühitdə öz alimliyi, poeziyası, xeyirxah əməlləri və ictimai fəaliyyəti ilə kifayət qədər tanınan, hamı tərəfindən rəğbətlə qəbul edilən ziyalı bir şəxs, nüfuzlu bir fikir adamıdır. Mən onun gördüyü işlər, gəzdiyi ölkələr və aldığı mükafatlarla bağlı siyahını oxuyanda heyrətə gəldim. Hər zaman ən hörmətli yığıncaq və mərasimlərdə yanımızda diqqəti cəlb etmədən böyük işlər görən, 50 yaşlı texnika elmləri doktoru, professor, tanınmış şair, ehtiraslı publisist, pedaqoq, türkçü, qədrşünas, Azərbaycanı bütün dünyada ləyaqətlə təmsil edən vətənpərvər bir ziyalı Elçin



İsgəndərzadənin olduğu ölkələrin, elminə və poeziyasına görə aldığı mükafatların, elmi və bədii, habelə tərcümə əsərlərinin siyahısını təqdim etsəm nəinki bir məqalənin heç bir kitabın da hüdudlarına sığışmaz. Elçini tanıyanlara bu dəyərli işlər yaxşı məlumdur. Məlum olmayanlar üçün bunların sadəcə statistikasını qeyd etməklə kifayətlənirəm, necə deyərlər "Arifə bir işarə də bəsdir".

Professor Elçin İsgəndərzadə 200-dən çox elmi məqalənin, 47 ixtiranın, 14 monoqrafiya və dərs vəsaitinin, 85 bədii kitabın, 125 tərcümə kitabının mütərcimidir. Dünyada çap olunan iyirmiyədək qəzet və jurnalın redaksiya heyətinin üzvüdür.

Elçin İsgəndərzadə Şuşada anadan olub. (14.09.1964). Ağdam şəhər 6 saylı orta məktəbi qızıl medalla (1981), Azərbaycan Politexnik İnstitutunu fərqlənmə diplomu ilə bitirib (1986), "Maşın və mexanizmlər nəzəriyyəsi" ixtisası üzrə aspiranturaya qəbul olunub (1989), namizədlik dissertasiyasını müdafiə edib (1993), "Vektor" Beynəlxalq Elm Mərkəzini təsis edib (1994), Azərbaycan, Qazaxıstan, Bolqarıstan, Rumıniya, Kosova, Rusiya və s., Yazıçılar Birliyinin üzvü, Afina şəhərinin fəxri vətəndaşı, "Roma şəhərinin fəxri alimi", Avropanın fəxri ixtiraçısı və fəxri elm və mədəniyyət adamı, onlarla Beynəlxalq Akademiyanın üzvü, orden və qızıl medalın sahibi... və Şairdir. N.Nərimanov həkim, A.P.Çexov həkim, Ç.Aytmatov zootexnik, fəqət həm də və bəlkə də daha çox yazıçı idilər. Bu gün professor, Hacı (2006) Elçin İsgəndərzadə, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həmprezidenti kimi dünyada Türk birliyinə tarixi xidmət göstərir. Bunu E.İsgəndərzadə haqqında böyük türk müasirlərinin qiymətli fikirləri təsdiq edir. Bir neçə mülahizəni misal verək:

“Elçin İsgəndərzadənin poeziyasının son illər dünyanın onlarla ölkəsində yerli dillərə çevrilərək çap olunması ondan xəbər verir ki, Türk poeziyası artıq dünya poeziya okeanına yelkən açmaqdadır” (Çingiz Aytmatov); “Elmi fəaliyyətləri ilə yanaşı şair olaraq da imzası yaxşı tanınan Prof. Dr. Elçin İsgəndərzadə dəyərli bir arkadaşımızdır” (Raur Denktaş, KKTC Cumhurbaşqanı). Azərbaycanın böyük dostu akademik İhsan Doğramacı yazıb: “İnanıram ki, Türk Dünyasının Elçin İsgəndərzadə kimi nadir istedadları bizim bacarmadıqlarımızı, lakin arzuladıqlarımızı şərəflə həyata keçirəcəklər”. Qırğızıstanın xalq şairi, Yazıçılar Birliyinin sədri Nadirbek Alımbekov isə belə deyib: “Türkdilli ölkələrin hər birində heç olmasa bir nəfər Elçin kimi ürəyini məşələ döndərsə, inanıram ki, Türk Birliyi Dünyanın bütün siyasi, mədəni və digər birliklərindən daha üstün olar... Tanrı Türk Dünyasının Elçinlərini bizlərə çox görməsin”. Başqa bir Çingiz-müdrik müasirimiz Çingiz Əlioğluya görə: Elçin İsgəndərzadəyə inam “Onun dəyişməz mədəni əyar ölçülərinin xaslığına əsaslanır, yüksək ziyalı səviyyəsindən gəlir, ən başlıcası isə istedadına güvəncindən doğur”. İstedadlı rəssam və şair Adil Mirseyid özünün esse-monoqrafiyasında Elçin İsgəndərzadəni “şeirimizin Qarabağ şikəsti, hardan baxsan görünən adam” kimi doğru, orijinal bənzətmələrlə sərgiləyir. Əlbəttə, mən də texnika elmləri doktoru Elçin İsgəndərzadənin maşın və mexanizmlər nəzəriyyəsi sahəsindəki elmi əsərləri və ixtiraları haqqında bir söz deyə bilmərəm. Buna mənim səlahiyyətim yoxdur. Fəqət, onun şəxsiyyətinə, prinsipial ziyalı mövqeyinə əsaslanıb deyə bilərəm ki, Elçin texniki sahədə də ciddi bir alimdir”.

Qayıdıram Adil Mirseyidin sanballı sözünə - “Elçin İsgəndərzadə Şairdi – Şair isə hardan baxsan görünən



adamdır”. Bu gözəl fikrin məntiqi yozumu belədir: Elçin İsgəndərzadə hardan baxsan görünən şairdi – Azərbaycandan, Rusiyadan, Türkiyədən, Türküstan ellərindən, Almaniyadan, Rumıniyadan, Bolqarıstandan... Əcaba, nə ilə, şeiriyyətinin hansı yüksək əyarı ilə hardan baxsan görünə bilir Elçin İsgəndərzadə?!

Rəhbərlik etdiyi “İlham ” ədəbi birliyində Elçinə ilk addımlarında yardımçı olmuş, tanınmış ədib Qərib Mehdi “Elçin-el üçün” kitabında yazır: “Elçinin həyat və yaradıcılığının marşurutu belədir: Şuşa-Gəncə-Bakı-Dünya. Elmdə professorluq zirvəsinə çatıb. Şairliyi ondan geri qalan deyil... Fəaliyyətinin ana xəttini – xeyriyyəçilik, vətənpərvərlik, türkçülük və dünyəvilik təşkil edir”.

Şair qəlbinin gerçəkliyə münasibət tərzi onun poeziyasının xarakterini müəyyən edir. Elçin gerçəkliyə-həyata alim kimi daxil olur, oradan şair kimi çıxır. Onun poeziyasının həm “müsbət”, həm də “mənfi” qəhrəmanı şairin özüdür. Şairin estetik idealı daşıdığı ruhun bədii-fəlsəfi iradəsidir. E.İsgəndərzadə qədim türk ellərindən, böyük türk tarixindən daşlaşıb gələn türk ruhunun mənəvi tərcümanıdır. Onun idealı türkçülükdür: “Yer üzü türkün torpağı, göy üzü türkün bayrağı”. Elə bilirəm ki, bu düstur bir şair kimi E.İsgəndərzadəni türk ədəbiyyatına daxil edir. “ Türkük türkü oxuyuruq” namlı şeirində şair daha ünlü bədii-fəlsəfi açıqlama verir:

*Tanrı dağından gəlirik,*
*Cənnət bağından gəlirik*
*Türk oymağından gəlirik,*
*Türkük türkü oxuyuruq.*

*Əsdikcə səhər yelləri,*
*Açılar könül gülləri,*
*Atlanar Turan elləri*
*Türkük türkü oxuyuruq.*

Türkün əski türküsü qədər saf və səmimi olan bu nəğmə "qılıncımız belimizdə // qopuzumuz əlimizdə" deyən türkün möhtəşəm obrazını əyani tərzdə canlandırır. Türk qılıncla tarixi yaradıb, qələmlə tarixi yaşadıb. E.İsgəndərzadə elmi ilə tarixi yaradan, şeiri ilə tarixi yaşadan təmiz qanlı bir türk oğludur.

Onun böyük alim Xudu Məmmədova həsr olunmuş "Bu qala - bizim qala", dahi türk ədibi Çingiz Aytmatova həsr olunmuş "Turan savaşçısının nəğmələri" poemaları bu fikrin həqiqiliyini sərgiləyir:

*And olsun Göy Tanrıya*
*bu torpaqlar bizimdi.*
*Ucsuz-bucaqsız çöllər*
*uca dağlar bizimdi.*

*Göy Tanrı övladıyıq*
*göylərdən gəlmişik biz.*
*Yolumuzu gözləyir*
*Çox uzaqda son dəniz.*

Elçin İsgəndərzadənin "Oğlum Əliyə dualar" poemasını türkün gələcək nəsillərinə və bizdən sonra gələnlərə ünvanlanmış bədii kimlik sənədi, YADDAŞ MƏKTUBU adlandırıram. Əksər qələm sahibləri oğlanlarına müraciətlə əsərlər yazıb. Mən də yeganə oğlum Fərid Şəmsizadəyə müraciətlə "Müdriklər bunları deməyib" kəlamlar kitabçasını



həsr etmişəm. Elçinin "Duaları" - yaddaş dualarıdır, gücü, qüdrəti təkcə poetik hüsnündə deyil, unudulmazlığındadır:

*Sən kövrəlib ağlama,*
*Səsim qırılsa birdən.*
*Bir savaşda vurulsam,*
*Qılıncımı götür sən.*

*Dünya türkdən başlayır,*
*Unutma bunu, oğlum.*
*Bir gün türklə bitəcək*
*Dünyanın sonu oğlum.*

Dünyada türk heç vaxt fateh olmayıb, qılıncından çox yenilməz ruhuna güvənib. Xaqani, Nizami Gəncəvi, Əhməd Yəsəvi, Mövlana Cəlaləddin Rumi, Yunus Əmrə, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Əlişir Nəvai, Zahirəddin Babur, Mövlanə Məhəmməd Füzuli – bu karifeylər türk ruhunu əbədiləşdirən dahilər olublar. Türkün atı qan yolları ilə yox, nur yolları ilə hərəkət edib. Türk köç etməyib vətəninin bu başından – Mançuriyadan Çin səddindən, o başına – Macarıstana gedib. Onun ölçüsü günəş olub. Türk dünyada misli bərabəri olmayan "Böyük çöl mədəniyyəti" və İslam dininin qəbuluna qədər 17 imperiya yaradıb. Ərəblər İslamı yaradıb, türklər İslamı yaşadıb. Elçin İsgəndərzadə belə bir mədəniyyətin, əxlaqın, qəhrəmanlığın layiqli varisidir.

Bir şair kimi o əski türk şeirinin, "Kitabi-Dədə Qorqud" şeirinin üslub və ahəngini qorumağa çalışır və onu müasir modern poeziya ilə birləşdirməyə cəhd edir. Elçinin "Qürbət hücrəsində" (2013) şeirlər və poemalar kitabına daxil olan bəyəndiyim onlarla şeirinin birindən ("Məmləkət") kiçik bir misal çəkirəm:

*Savaş günü atları yəhərləyib*
*Qibləsinə vardığımız*
*Məmləkətdir, məmləkət.*
*Durna telli igidləri*
*dəliqanlı, havalı.*
*Gəlinləri, qızları*
*bənövşətək həyalı*
*Məmləkətdir, məmləkət.*
*Qarşı yatan sıra dağlar*
*ulusumun cənnəti.*
*Könüllərin yarasında*
*ayrılığın həsrəti.*

Bu misraları baxışları atlı türkün nəzərləri kimi səhra ilə üfüq arasındakı əbədiyyətə zillənən türkçü, Şuşa-Qarabağ həsrətini milli faciə kimi yaşayan Azərbaycan şairi yaza bilər. Misal verdiyim misralar Elçin İsgəndərzadənin "525-ci qəzet"də çap olunmuş "Şahmar şikəstəsi" poemasını yadıma saldı. Q.Mehdi doğru olaraq onu "Muğam-rekviyem" adlandırır. Şair yazır:

*Bu nə bəxtdi, düşüb bir nəhs ələ ki,*
*Taleyimiz ömrümüzə tələ ki,*
*Baş qarışıb, məshəb itib hələ ki*
*Qarabağa bizsiz gəlir bu yaz da...*

Belə bir ovqatla da Elçin İsgəndərzadə ən sanballı şeir kitablarından birini "Bir ümid Xarıbülbül" (2008) adlandırıb. Kitaba yığcam, fəqət məzmunlu ön söz yazmış görkəmli alim Nizami Cəfərov deyir: "Elçinin şeiri adamın ürəyini, hissini, əzmir, sıxmır, emosiyanı təlatümə gətirmir, ürəyə,



hissə olduqca sakit, rəvan, harmonik bir axınla dolur... Qarabağ şikəstəsi kimi!.. Elçin hisslərin filosofudur". Mən hesab edirəm ki, Elçin İsgəndərzadənin "İkiliklər"i ən yaxşı fəlsəfi-intellektual şeir beytləridir:

*Mənim könlüm sənsiz qaldı,*
*Uçan durnam qatar saldı.*

*İçərişəhərdə sərsəri külək*
*Veyillənir sərxoş rəssam tək.*

*Divarda akvarellə çəkilmiş rəsm*
*Rəsmdəki dağlardan gəlir səsim.*

Dünyanın məşhur təlimlərindən olan vəhdəti-vücuda görə qum dənəsi dünyanın modelidir. "Zərrə mənəm, günəş mənəm. // Cahr ilə pəncü-şeş mənəm"- deyirdi böyük hürufi şair Nəsimi.

Beləliklə, dənizin suyunun şor olduğunu bilmək üçün dənizi bütöv içmək lazım deyil, bircə damla kifayətdir. Eləcə də görkəmli alim, texnika elmləri doktoru, professor Elçin İsgəndərzadənin səmimi bir türkçü, türk dünyasının sevimlisi, türk ruhunun poetik tərcümanı, istedadlı şair olmasını bir daha təsdiq və təqdim etmək üçün onun zəngin və çoxcəhətli yaradıcılığını başdan ayağa şərh etmək lazım deyil. Bu gələcək tədqiqatçıların işidir.

Elçin İsgəndərzadə 50 yaşın aşırımına zəngin bir elmi-nəzəri, bədii-fəlsəfi, mənəvi-əxlaqi arsenalla gəlib, özü ilə böyük nüfuz və bütöv şəxsiyyət gətirib.

*10 avqust 2014*

## <u>VAQİF NƏSİB</u>

*şair*

## QUZEYDƏN GÜNEYƏ GÖYQURŞAĞI SƏYAHƏT

Həmin yolçuluq şair dostlarımdan birinin şeirlərini oxuduqdan sonra baş tutmuşdu. Quzeyimdən güneyimə səyahətim damlaları güllərin, otların rənginə boyanmış yağışlarla müşayiət olunmuşdu.

*İydə yarpaqlarından süzülən,*
*İnci kimi saçlara düzülən.*
*Yağmur damlaları,-*

sanki varlığımın ehtiyacından doğulmuşdu. Ona görə də ətrafımdakı ağacları başıma çətir kimi tutub, heç ondan daldalanmaq da istəməmişdim. Yalın ayaqlarımı torpaqdan çəkməyib belə bir yağışlı gündə özüm ağac kimi bitməyə çalışmışdım. Havanın qaraldığından da darılmamışdım. Üst-başıma istəmişdim ki, nəhəng işıq böcəkləri də yağa:

*Qoy ulduzlar tökülsün,*
*Gecənin ətəyindən...*

Əsl sənət əsərləri istedad sahiblərinin ömür-gün yağmurlarından yaranır. İçinə ömürlərin poetik anları sığışdırılmış həmin damlalara düşmək, onlarla görüşmək



həmişə xoş olur. Eyni yolun yolçuları belə yağışlarda əllərini, ürəklərini qızdıra bilir. Həmin damlalar buxarlandıqda belə xatirələrin yaz dumanına çevrilib onlara ömürlərinin–günlərinin acılı-şirinli anlarını yada sala bilir. Onların möcüzəsi ilə ötən günlər və itən dostlar qara durnalar kimi səf çəkib qayıdır.

Dağların quzey və güney tərəfləri olurmuş...

Adamların uğurlu və bəduğur ulduzlar altda doğulanları olduqları kimi.

Birincilər dağların günaşağısına düşüb, işıqlı arzularına çatır, o birilər çiskinində, dumanında itib batırmış.

Quzeydəkilər dumandan, yağışdan təngə gələndə daşlı-kəsəkli cığırlarla üzlərini güneyə tutur. Varlıqlarını şəfəqlərdən islaq paltar kimi asıb qurutmağa çalışırdı.

Güneydəkilərin gözləri günəş şüalarından qamaşanda, varlıqları dəmyə torpaqları kimi cadarlaşanda özlərini quzeyə vermək istəyir, dumana cuna kimi bürünməyə, leysanları paltar kimi geyinməyə çalışırdı.

Şeirləri ilə tanışlığıma qədər həmin qələm yoldaşımı güney səmtinin adamı sayır, həyatın çiskininə yağışına düşmədiyini hesab edirdim. Doğrudan da yaradıcı şəxsiyyətləri üz-gözlərindən çox vaxt olduqları kimi görmək müşkülləşir. Onları əsərlərinin prizmasından necə var elə müşahidə eləmək mümkün olur. Cildini şeir dünyasının alaqapıları kimi açıb poetik aləminə qədəm basmağa başladığım şair dostum həmin gerçəkliyə məni bir daha inandırdı. Ordan tamamilə başqa bir adam boylanırdı. Həm də bütün çalarları, nişanələri ilə, əsrlər boyu xələfləri üçün sənət örnəyinə çevrilmiş ustadlarımızın, onlara bənzər bir övladı görünürdü. Misralarla çəkilmiş, naxışlanmış, cilalanmış həmin portretdə Nəsimi həqqi, Füzuli yanğısı,

Vaqif gözəlləməsi müasir, bənzərsiz bir şəkildə öz vəhdətini təşkil edirdi.

Sonradan öyrəndim ki, qələm yoldaşım özünə dərkini çox erkən başlatmışdı. Özünün istinad nöqtəsini tapıb, ordan doğulduğu dünyaya, ana vətəninə baxmağa çalışmışdı.

...Ağdamdan Şuşaya gedən avtobusda oturmuş 13-14 yaşlarındakı oğlanı heç kəs görmürdü. Heç o özü də kimsəni narahat etmək istəmirdi. Axı sakitcə əyləşib gözlərini yola zilləyirdi. Həmin zamanlar, ətrafdakı adamlar bu yeniyetmənin yolunu Cıdır Düzünə salmaq istədiyindən xəbərsiz idilər. Onu da bilmirdilər ki, həmin səfərlər həmin uşağın az qala vərdişinə çevriləcək.

Uşaqlığını Şuşada, Malıbəyli kəndində keçirmişdi. Qarabağın şah misrasına bənzəyən, Şuşanın yollarının izinə uşaqlıq dünyasına səyahət etmək üçün düşmüşdü. Dünyaya səyahətini başlatma üçün meydan axtarışına çıxıb Cıdır Düzünü seçmişdi.

Burdan onun gözünə, qəlbinə yığmaq istədiyi cümlə-cahan görünə bilirdi. Təbiət şah əsərlərindən ibarət sərgisini həmin yerlərdə açmışdı. Həmin yerlərin ağacları, çayları, qayaları, əsrarəngiz nəyi varsa nəğmə üstə köklənmişdi. Təbiət bu yerdə həm gözəlliyi ilə cilvələnir, həm də çalıb çağırırdı.

Həmin zamanlar Cıdır Düzündə bir yeniyetmə dünyaya baxa-baxa özünün arzu heykəlinə çevrilmişdi. *(Bəlkə də həmin şeiri, həmin dövrünə boylandığı zaman yaranmışdı):*

*Gözlərimin yaşında,*
*Ürəyimin başında*
*Bir bulud hüzn,*
*Bir yarpaq niskil,-*
*Xəyalımda xarıbülbül,-*



*İlk sevdamdı elə bil.*
*Ömür qaralı-ağlı,*
*Bütün yollarım bağlı*
*Bu gün mənim misralarım*
*Ormanda azmış cığır...*

Həmin cığır başlamağına həmin yerlərdən başladı. Amma nə düyənsiz dağ çaylarında axıb getdi, nə dağların kor dumanında itib batdı, nə ormanların zümrüd qaranlığında lövbər atdı. O dünya çətinliklərini yara-yara elmin, sənətin böyük yoluna çatdı. Çünki, bu səfər Cıdır Düzündən başlayırdı. Oranı gözlərindən ağıl və nağıl yağan bir yeniyetmə dünya oynatmaq üçün özünə istinadgah nöqtəsi seçmişdi. Zirvələrin qaşında özünün arzu heykəlinə dönüb məslək andını içmişdi:

- Ehey dünya, eşidirsənmi Qarabağ atlarının kişnərtisini... Görürsənmi onların birinin yalmanındakı Qarabağın bir yeniyetmə balasını. Bu yerin adamları andlarına sadiq olur. Arzusuna yetənə kimi, lap saqqalı yerə dəysə də bu Qarabağlı balası, həmin Qarabağ atının yalmanından düşməyəcək...

...Həmin gün bir dostun bir şeir kitabı bələdçiyə çevrilib məni ömrümün quzeyinə bir səyahətə çıxardı. Və ömrümün quzeyinə düşmüş unudulmaz dostlarımla görüşdürdü.

Doğrudan da əsl sənət nümunələri də qranitləşə, qayalaşa bilir. Və onlar da sədalara əks-sədalarını ərmağan edir. Həmin gün həmin səfərimdə dostlarım oxuduğum şeirlərin əks-sədaları ilə görüşümə gəldi:

*Mikayıl Müşfiqin*
*Cavanlıq şəkli baxır divardan,*
*Baxır, gülümsəyir elə bil,*
*Elə bil heç otuz yeddidə*

*İyirmi doqquz yaşında*
*Güllələnən şair deyil...*

Bu nakam şairin həmin ağısı, nədənsə Əli Kərimi xatırlatdı. Yaddaş səmasında onun gülümsəyən şəklini gördüm. Onu deyim ki, rəhmətlik Əliyə ilahidən saf, uşaq təbəssümü bəxş olunmuşdu.İInanırdım ki, həmin məsumluq zamanın ən cansız adamını da insafa gətirə bilərdi. Amma xeyirxahı Mehdi Hüseynin ölümündən sonra ədəbi yetimə çevrilmiş Əli Kərimin həmin təbəssümü bəzi ədəbi "çekistləri" rəhmə gətirə bilmədi. Poeziyamızın ritorikadan xilasında az qala körpüyə çevrilmiş o boyda şairi yaşarı şeirlərinə, körpə təbəssümünə əhəmiyyət vermədən kiçicik qulluğundan, - ədəbi işçiliyindən – uzaqlaşdırdılar. Necə deyərlər onu küçələrə saldılar.

Şirin çaxıra qurşanan şairin acı günləri bax beləcə başladı. Əli Kərimi də bax beləcə öz əlləri ilə güllələdilər. Özünə vurduğu güllələrdən boş şüşələr ətrafında gilizlər kimi qaldı.

Həmin zamanlar Əlini şəhər küçələrində görən zaman ürəyimdən qara qanlar axırdı. Amma bunların poetik donunu biçə bilmirdim. Qələm dostumun aşağıdakı misraları gec də olsa dadıma çatdı:

*Bu boyda dünyada... (Əli Kərim təbiri ilə: Şərq boyda xarabada),*

*Təkcə bir allahı var,*
*Həmin allahın*
*Həmin bəndəsinə*
*Verə biləcəyi*
*Bircə qəpik pulu yox.*



...Əvvəlcə Əli Kərim, özüvari kövrək bulud şəklində quzeyinə yetişib böyrümdə əyləşdi. *(Onsuz da sağlığında da qaradinməz idi. Yaxınlarının istədiklərini gözlərindən oxumasını arzulayırdı.)*

İkinci şeir rəhmətlik Sərdar Əsədi də yada saldı. *(Şairlər çox vaxt haqlarını ala bilmir. Ehtiyac onları divara dirəyir. Dünya divarlarına diqqətlə baxılsa divara dirənmiş nə qədər sənət adamını barelyef şəklində görmək olar).*

Bir dəfə Sərdarla rastlaşmışdıq. Maaşdan-maaşa azmaz tüklənən gözəl şairin cibi boş, üzü tüklü idi. Elə bil allahının bir qəpik vermədiyi bəndəsinə rəhmi gəldi. Bir hallı-varlı yerlisini qənşərinə çıxardı. O da cibinə bir onluq basdı. Onun yeməkxanaya yox, dəlləkxanaya üz tutduğunu görüb təəccübləndim. Sözləri heyrətimi yuyub apardı:

- Əvvəl üzümdəki pislikləri qırxdırım, sonra vuraq...

*Gözümü açandan, ağlım kəsəndən*
*Aynalı tüfəng görmüşəm mən.*
*Aynalı tüfəng vardı*
*Qarabağdakı evimizdə.*
*Aynalı tüfəng namusdu bizdə*
*Əski əlifbayla bir misra yazılmışdı*
*Tüfəngin qundağında.*
*Bəzən tüfəng elə bil*
*Səsləyib çağırırdı məni,*
*Gün batanda, axşamçağında.*
*Qırx beş yaşında*
*Eşidirəm o aynalı tüfəngin*
*Babamınkına oxşar səsini.*
*Qarabağdakı evimizdəki*
*Aynalı tüfəngin qundağındakı yazıdan*
*Öyrəndim nəslimin şəcərəsini...*

Rəhmətlik Sərdarın da ov tüfəngi var idi. Şəhər mühiti əyninə dar paltar kimi gəlib sıxanda özünü ova verirdi. *(Bu sahədə şairlərə örnəyi bəlkə də mühitin ən çox sıxdığı Səməd Vurğun vermişdi).*

Sərdar Əsəd ölüncəyə qədər itirmədiyi ağayana tərzi ilə özünü yetirib Əlinin böyründə əyləşdi. Bu iki istedad sahibinin hər ikisi məndən beşbetər bəduğur ulduz altda doğulmuşdu. Odur ki, heç vaxt başlarını və ya əllərini qaldırıb göylərdən kömək istəmirdilər. Amma günlərin bir günü Sərdar Əsədin səbr kasasının dolacağına, boş cibinə, boş kasasına üsyan edəcəyinə inanırdım. İnanırdım ki, ovçu Sərdar bütün bunların səbəbkarı kimi altında doğulduğu ulduza güllə atacaq. *(Amma həmin gülləni təəssüf ki, özünə "atdı". Həmin sahədə dünya üzrə birinci örnək məncə özünəqəsdçilərin öncülü sayıla biləcək, həm də məşhur ovçu Heminqueyə aiddir: özünü ov tüfəngi ilə vurmamışdan öncə deyibmiş: nəhayət özümə layiq şikarı ovlayıram.*

*S.Əsəd Əlikərimin ad günündə onun saf təbəssümlü şəkli önündə intihar etmişdi).*

İnsana, göy qübbəsi altda özünütəsdiqi üçün elə az möhlət verilib ki, ölümlərin hamısına vaxtsız demək mümkünləşir. Rəssam Aydın Mirseyidoğlununkundan tutmuş Vidadi Məmmədlərin, Adil Rəsulların, Elçin Səlcuqların... cümlə itirdiklərimizin:

*Sən yadıma düşürsən*
*Bakıya yağış yağanda...*
*Yağışlı bir gündə*
*Rəsmimi çəkirdin*
*Əlində sehirli fırça*
*...Sən rus arağını, ispan nəğmələrini,*



*Lorkanın şeirlərini*
*....sevərdin.*
*Çəkdiyin portretdən indi baxıram özümə*
*Həmdə Xarıbülbülü çəkmişdin*
*O rəsmdə*
*Həmin Xarıbülbül nazlı-nazlı*
*Gülümsəyir üzümə.*
*Sən yoxsan artıq bu gözəlim dünyada*
*Dərdlərini özünlə qəbir evinə apardın*
*Təbəssümünü, rəsmlərini*
*Yadigar qoydun bizə.*
*...Bu axşam, şəhər qələbəliyində*
*Səni arayıb, axtarıb, bulmaq istəyirəm.*
*Fırçandan doğulmuş portretdəki*
*xoşbəxt şair olmaq istəyirəm...*

İstedad insanlara Tanrı tərəfindən bəlkə də ilahi ərinti *(bir növ xammal)* kimi verilir. Onlardan istifadə həmin seçilmişlərin öhdəsinə buraxılır. Həmin ərinti onlar tərəfindən həyat kredolarına uyğun şeirə, rəsmə, heykələ çevrilir. Bundan sərfəli istifadə etməyənlər, ömrünü nakam başa vuranlar da olar. Macal tapıb əlindəki istedad ərintisini kətana köçürə bilmiş, ürəyincə və ürəklərcə portretlər yarada bilmiş rəssam mənə neçə əvəzsiz dostumun faciəsini yaşatdı. Üstündə durduğum torpağı *(və dünyanın bütün torpaqlarını)* dəfn etdiyimiz təbəssümlərin gor yeri sandım. Müqəddəs sükutumla ehtiramımı bildirdim.

Sonra da bütün bunları şeiriylə mənə yaşadan müəlliflə rəmzi bir müsahibə keçirdim:

- Vidadi Məmmədi tanıyırdınmı?
- *Bir-iki hekayəsini oxuyub təsirlənmiş, az yazdığına görə oxucu ərkyanalığı ilə təqsirləndirmişdim.*

- Onun təbəssümünü görə bilmişdinmi?
- *Aramızdakı zaman məsafəsi buna imkan verməmişdi.*

Təəssüf ki, bu nadir mənzərəni rassamlardan da görən, kətana çevirən olmamışdı. Özünə, sözünə səhlənkarlığını hiss elədiyi anlarda sifətindəki xəcaləti öz qrub rənglərinə batmış təbəssümü ilə ört-basdır etmək istəyirdi.

Vidadini həm də ömürlüyü ilə yaxından bələd olduğum müəlliflə arzularının uyğunluğu yada salmışdı. Hər ikisi eyni yaşda eyni arzuları yaşasa da həyat taxtası üzərindəkilərin yollarını başqa-başqa səmtlərə salmışdı.

Şeirlərin müəllifi dünya səfərini Cıdır Düzündən başlamaq istəmiş, həmin ucalıqdan dünyaya boylanmağa macal da tapmışdı.

Belə bir zirvədən insanlara baxmaq istəyən Vidadinin yolunu ehtiyac Qarabağ bazarlarının birinə salmışdı. Uşaq yaşlarından çörəyini, suyunu, boyunu özü qazanmağa başlamışdı. Gündəlik qəpik-quruşuyla bərabər çoxlu insan tanımağı da ilkin qazanclarından olmuşdu.

Kitab müəllifi də, Vidadi də şəklinin oxuduğu məktəbin şərəf lövhəsinə düşməsini, ilk məhəbbətlərinə çevrilə biləcək bir qızın sevgisini qazanmasını istəmişdi.

Vidadi də, aşağıdakı misraların müəllifi də,-

*Allah, ölümdən betərdi-*
*Savaşmadan məğlub olmaq dərdi,-*

günlərin bir günü qalib kimi, bir ağ atlı oğlana dönüb əvvəl oxuduğu məktəbin önündən, sonra doğma şəhərinin küçələrindən keçmək istəmişdi. Vidadini murazının dəli köhləni üstündən salmış, elə ona görə də başqa nakam dostları kimi murazı gözündə qalmış, üzü qüruba çəkilmişdi.



*(Onun həyat faciəsini dostlarından biri elegiyalaşdırmağa çalışmışdı:*

*Vəbə tək bu ömrü tapmağa nə var,*
*Kimlərsə, kimlərə yoğurur, yapır...*
*Bu yorğa həyatı çapmağa nə var,-*
*Səni çapa-çapa altında çapır,*
*Hamı öz evini, qəbrini tapır.*
*Qəlbini yazdıran vaxt tap bir görüm,*
*Ömrünü qızdıran, baxt tap bir görüm,*
*Muraz köhlənini seçə bil görüm,*
*Çapıb baş küçədən keçə bil görüm).*

Amma əlimdəki kitabın müəllifinin Cıdır Düzündən başlayan səfəri bir dünya turuna döndü. Ölkələrin ali kürsülərində məğrur səsi ucaldı. Təbəssümü dəfn olunmuş dostların üstündə ağı deyə bildi. Ona bir misra Füzuli Sevdası arzulayan Adil Mirseyid də, yerlisinə ürək sözlərini deyə bilməmiş Pərviz də, - ədəbiyyatımızın bütün nakamları həmin ağıdan bir də boy göstərə bildi.

Onun, Vaqif Səmədoğluya həsr etdiyi şeir məni gənclik illərimin ən unudulmaz dostlarından biriylə görüşdürdü. Şeirimizin əsrlərcə axa biləcək bir nəhrinə dönmüş Məmməd Arazla. Axırıncı dəfə Şüvəlandakı yaradıcılıq evində qarşılaşmışdıq. Baş-başa verib kədərlənmiş, sözün yerini qəmə-qüssəyə, onlardan doğulan göz yaşına vermişdik.

*Və gün gəldi tikanlı məftilləri qırıb*
*Keçdik Arazı, keçdik o taya,-*
*Qara çarşaba bürünmüşdü Təbriz.*
*Bundan öncə Təbrizi xalça ilmələrində*
*Və miniatürlərdə görmüşdük biz.*

*“Təbrizin yolları dolambadolam,*
*Və pəncərələrində yüz əlli illik ayrılıq kədəri.*
*Ərk qalası daşlarında*
*şəhidlərin qan izi,*
*Təbriz əzan səsiylə*
*qarşılayırdı bizi.*
*Arazı keçdik şair,*
*Arazı keçdik.*
*Təbrizin suyunu içdik şair,*
*Təbrizin suyunu içdik.*
*Amma Təbriz torpağında*
*Bir çinar əkə bilmədik,*
*Üzü gündoğana baxan*
*Bir ev tikə bilmədik.*

Elə bil həmin şeir V.Səmədoğludan çox, Araz şairimizə həsr olunmuşdu. Elə ona görə də Məmməd Arazı quzeyimizə, köhnə dostlarının yanına gətirə bildi. Həmin an bir səfə düzülmüş nakam şairlərimiz fani dünyanın ən qəmli misrasına bənzəyirdi. Həm də onların sükutundan kürreyi-ərzlərinin ən qəmli ağısı səslənirdi.

*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin.*

Amma nə yaxşı ki, bu misilsiz dərdin qarasını yumaq üçün göy gurultularının müşayiəti ilə təbiət dəli bir leysan başlatdı. Şimşəklərin işığında XX əsrin mavi gözlü şeir devi Nazim Hikmətin sifəti də canlandı. Göy gurultusuvari avazı da eşidildi:



*Yəni bu göy qübbəsi altda*
*Səsimizin qalacağına*
*Zərrəcə ümid yoxmu?*

Onun cavabını sanki, həmin leysanı başlatmış təbiət özü verməyə çalışdı. Buludları dağıdıb günəşin yolunu açdı. Şəfəqlər süzülüb damlalara qondu, ümid zərrəcikləri parıldamağa başladı.

Sonra da göy qurşağı doğuldu.

Bu dəfə dünyanın bəlkə də ən nəhəng qövsü-quzeyi.

Həmin göyqurşağı nəhəng bir dağın quzeyiylə güneyini birləşdirə bildi.

Həm də quzeydən güneyə uzanan əsrarəngiz rənglərlə cilalanmış bir yola çevrildi.

Təpədən dırnağa islanmış, təpədən dırnağa söz sərrafları həmin yola düzüldü. Yollarını günaşağıya salıb həm qurumağa, həm də öz şeirləriylə bir leysana çevrilmiş şair dostlarını təbrikə tələsdilər...

**S.Q.:** (Yəni sözə qüvvə)

Mərhum Tofiq Bayram kimi, şeirlərini ürəkdən, göy gurultusuvari səsləndirə bilən ikinci şair bəlkə də tapılmazdı. Onun “Azərbaycan deyəndə” şeirinin sədaları məni bəlkə də ömrüm boyu müşayiət edəcək. Doğma yurdumuza, insanına həsr olunmuş həmin şeiri dinlədikdə, ana bətnində dünyaya yol gələn bəbələrimizin Azərbaycan deyiləndə pələngləşdiyinə, şirləşdiyinə inanırsan. Azərbaycan deyilən şeir incilərimizdən ibarət bir atəşfəşanlıq gəlir hər dəfə gözüm önünə. Həm də dünyanın hər yerindən görünə bilən inci atəşfəşanlığı.

Şeirlərindən söz açdığım Elçin İsgəndərzadə həm də dünyaca tanınmış alimimizdi.

Azərbaycan deyəndə dünyanın ən mötəbər kürsülərində onu da görür fərəhdən qanad taxıram.

Doğrudan da Azərbaycan deyəndə, yeni-yeni Elçinlərimiz dünya çıdırını başladıb, alimləşir, şairləşir. Tofiq demiş pələngləşir, alimləşir, şirləşir.

**Elçin İsgəndərzadəyə**

Heyf bu gün
Şuşa buludlarına
Dəyə bilməyir başın,
Və Cıdır Düzünə bir avtobus küncündə
Çata bilməyir əlli yaşın.
Heyf bu gün
Şuşa yetimlərindən biri kimi
Özün boyda buluda dönürsən,
Qarabağ şikəstəsi ötməyə
Tara, kamana, uda dönürsən.
Avropa gözünü yumub qoymur,
Canımız, gözümüz o yeri alaq.
Əziz xələflərinə bağışladığımız
Qarabağ atlarını bəlkə geri alaq.
Heyif əlli yaşında
Torpağımız yara-yara,
Sevincimiz yarı-yarı,
Ötməyə də yarı bülbülük.
Gəlinimiz Sarı, Sarı,
İş-peşəmiz yara sarı,
Üzümüz Şuşaya sarı,-
Hamımız Xarıbülbülük...



Amma qardaşım səni,
Cıdır Düzündəki,
Ümüdü gözündəki
Yeniyetmənin yanında görürəm,
Və Qarabağa qayıdan dəstədə
Bir Qarabağ atının
Yalmanında görürəm.

*15.07.2014; Dünya...*

## ÜMBÜLBANU

*Azərbaycan Yazıçılar və Azərbaycan*
*Jurnalistlər Birliyinin üzvü,*
*Yazıçı-publisist*

## XOŞBƏXT YOLÇULUQ...

Eləlləri var ki, sən istəsən də, istəməsən də, xatirələrdən, yaddan-yaddaşdan, haqqında deyilənlərdən insanın beyninə, ürəyinə, duyğularına daxil olaraq özünə müəyyən yer nizamlayır. Bir də onda görürsən ki, ürəyinin bir küncündə bir işıq zolağı yaranıb. Bəzən cəmiyyətdəki çoxüzlülükdən, paxıllıqdan, saxtakarlıqdan, bütün pislərdən və pisliklərdən qaçaraq öz dünyana pənah aparırsan. Nə xoş ki, o zaman oradan işıqlı, nurlu xatirələr baş qaldıraraq: – yaxşılar və yaxşılıqlar, təmizlik, xeyirxahlıq – İnsanlıq hələ yaşayır, hələ var – deyərək öz işığı ilə ürəklərə nur çiləyə.

Elçin İsgəndərzadə! Bu adı Gəncə ədəbi mühitində çox eşitmişdim. Ancaq şəxsən tanış deyildik. Onun görkəmli yazıçımız Qərib Mehdinin rəhbərlik etdiyi «İlham» ədəbi birliyinin məzunu olduğunu da bilirdim. Qərib müəllimin «Əlim çatan, ünüm yetən sənətçilər» kitabında həm Elçin İsgəndərzadənin, həm də mənim ilk kitabıma yazdığı ön sözü – xeyir-duası vardı. Həmin kitabda ilk dəfə onun şəklini gördüm və yaradıcılığından bəhs edən yazı ilə tanış oldum.

İllər keçdi. Tale elə gətirdi ki, mən 2011-ci ildə Gəncə Dövlət Universitetində Qərib Mehdinin redaktoru olduğu



«Yüksəliş» qəzetində işə düzəldim. Redaksiyada tez-tez Elçin müəllim haqqında söhbətlərimiz olurdu. Şagirdinin gördüyü işlərdən ürək dolusu, qürurla danışan müəllimi, onun bir insan kimi də dəyərli xüsusiyyətlərini yada salırdı. Bir gün Elçin müəllim redaksiyamızın qonağı oldu. Qısa müddət ərzində bu böyük ürək sahibinin – Turan ellərini gəzib-dolaşan, ayrı düşmüş qan qardaşlarımızı yenidən bir araya gətirməyə çalışan, Şuşa nisgilinin, Şuşa yanğısının əlindən tutub dünyanı dörd dolanan ləyaqətli Vətəndaşı, gözəl şairi, 200-dən çox elmi əsərin, 48 ixtiranın, 14 elmi monoqrafiya və dərs vəsaitinin, 85 bədii kitabın, 125 çevirmə kitabının müəllifi, professor Elçin İsgəndərzadənin bir insan kimi olduqca səmimi, təvazökar olduğunu gördüm. Tanrının xoş saatında dünyaya gələn bu alicənab insanın daxili aləmi ilə zahiri görünüşünü birləşdirən, ətrafına təmizlik, saflıq nuru çiləyən baxışlarıyla hər kəslə olduqca həssas davranan Elçin müəllimi mən elə o gün kəşf etdim. Fikirləşdim ki, onun haqqında indiyə qədər eşitdiyim xoş sözlər belə bu insandakı nəcibliyin, billur təmizliyin qarşısında çox azdır.

Ətrafımızın çox zaman çirkab, məddahlıq, rəzillik içində boğulduğu, məhv olub getdiyi bir zamanda haradansa duruluğu, şəffaflığı ilə gözlərimizi qamaşdıracaq bir işıq zolağı bizi bütün pislərdən və pisliklərdən uzaqlaşdırmaq gücünə malikdir.

Həyatımız, dünyamız Tanrının möcüzələri ilə zənginləşir. Belə möcüzələrdən biri də daim ürəyindəki sönməyən işıqla – müqəddəs amalıyla Turan ellərinin çoxəsrlik yaralarına məlhəm çəkən Elçin İsgəndərzadədir. Elçin müəllimə ömür ekvatorunun ikinci yarısında da xoşbəxt yolçuluq arzulayıram!

**САОДАТ МУХАМЕДОВА**

*Доктор филологических наук, профессор,*
*зав.кафедрой Общего языкозания Ташкентского*
*государственного педагогического*
*университета имени Низами*

## АЛМАЗНЫЕ ГРАНИ ТВОРЧЕСТВА ЭЛЬЧИНА ИСКАНДАРЗАДА

Ученому мирового масштаба, профессору, общественному деятелю, обладателю многих международных премий и награждений, великому поэту Эльчину Искандарзаде исполняется 50 лет. Этот возраст для мужчины – пора самая ответственная и итоговая. Мужчина именно в этом возрасте оглядывается назад и задумывается о достигнутом в жизни - о успехов, о потериях, о планах на будущее… Уважаемый Эльчин Искандарзаде наверное тоже об этом задумывается. Подытожив все свои труды, он осознаёт, что сделал очень многое во имя процветания своего народа, своей страны, вообще для всего человечества. Ведь его труды и творения, его добрые дела и старания носят общечеловеческий характер. В том числе в братской республике Азербайджану в Узбекистане, много почитателей таланта Эльчина Искандарзада.

Творчество Эльчина Искандарзада хорошо знакомо узбекскому читателю по его книге «Дунёнинг эшиги» (Фергана, 2007) и «XX аср Озарбайжон шеърияти антологияси» («Антология поэзии Азербайджана XX века», Ташкент, 2013). Переведя его стихи, узбекские переводчики смогли сохранить всю красоту и всё



великолепие стихов Эльчин Искандарзада. Стихи Эльчина Искандарзада «Ёмғир қўшиғи» (Песня дождя) , «Ёлғизлик қўшиғи» (Песня одиночества), «Ёлғон» («Обман»), “Ғурбатда баҳор” (Весна в горести), «Шоирлар» («Поэты»), «Озодлик» («Свобода»), “Сўнгги шеър” («Последний стих»), “Капалак умри” («Жизнь бабочки») богаты прозрачными чувствами. Читая эти стихи, вошедшие в «Антологию поэзии Азербайджана XX века» мы окунулись в мир настоящей поэзии, восхитились разнообразием тем, широтой мысли и чувств, оказались в объятиях прозрачных и чистосердечных эмоций.

Эльчин Искандарзада своими стихами смог создать настоящее чудесное царство художественного слова. В его стихах собрано всё словесное богатство азербайджанского языка. Читая его произведения, мы встречаем оригинальные слова, словосочетания, метафоры, сочетания, которые присущее только творчеству Эльчин Искандарзада (в языкознании они называются авторскими неологизмами или окказиологизмами). Например, в стихотворении «Ёмғир қўшиғи» («Песня дождя») он употребляет сочетание *яна илиқ ёмғирлар ҳаётимга ёғмоқда*. Очень своеобразная метафора - *ёмғирлар ҳаётимга ёғмоқда.* Или же в этом стихе употребляется

*Қўй, тўкилсин юлдузлар*
*Пари тун этагидан*

Очень оригинальное уподобление! Звёзды сыпятся из объятий феи-ночи. Так, Эльчин Искандарзада показывает своеобразие прелестей ночи, который могут

чувствовать и видеть только поэт, только ему суждено увидеть глаза феи любви. Художественное воображение Эльчин Искандарзада видет и слышет песню дождя, он боготворит звук дождя и с его помощью рисует неповторымый образ – состояние души человеской…сына азерсбайджанского народа.

Дождь в стихах Эльчина Искандарзада приобретает своебразную символичность. Очень своеобразный образ дождя и в стихах «Ёлғизлик қўшиғи» (“Песня одиночества”). Герою кажется, что дождь лета стучится в его окно и напоминает ему о том лете, когда возлбюленная была рядом ... Летний дождь словно огонь входить в жила героя, он опять и опять готов простить свою любовь, рисуя боль и разлуку в своих строках…

*Яна сени авф этдим,*
*Кирдинг оқ хотирамга.*
*Ёздим қайғуларимни,*
*Шеъримда ҳар сатримга.*

Он не однократно смотрит на белый телефон, но он молчит…И здесь очень красивое признание:

*Жимдир оппоқ телефон,*
*Юлдуз фоли ёлғондир.*
*У ёзнинг ёмғиридан*
*Бир хотира қолгандир...*

Звезды предсказали герою, что его любимая вернется, но он знает, что эта ложь и признаёт свое горькое одиночество. В стихах так грустно чувствуется



образ и дух одиночества. Но так красиво выразить своё одиночество! Хочется читать и перечитывать этот стих.

Очень неординарные философические заключения мы наблюдаем в стихах “«Ёлғон» («Обман») – герой с одной стороны грешен, с другой не переставая молится Богу. Утверждается, что плохое есть нечто хорошее и каждая правда беременна одной ложью, и каждая ложь душит одну правду:

*Яхши ёмондан, ёмон яхшидан туғилар,*
*Ҳар бир чин бир ёлғонга ҳомиладор*
*Ҳар ёлғонда бир ҳақиқат бўғилар*

Читая эти строки, приходишь к мысли о том, что в этом мире всё ложь кроме смерти и вспоминается знаменитая фраза – «Дунёда ўлимдан бошқаси ёлғон”. Но это пессимистичное заключение в строках Эльчина Искандарзаде приобретает совсем иной ракурс – нужно жить и творить во имя доброты и правды!

Величественное описание жизни поэтов, их внутреннего мира мы наблюдаем в стихах «Шоирлар» («Поэты»). Читая эти стихи мы попадем в иной мир – в полетах птицы – есть жизнь поэта, в красоте деревьев и растений - есть жизнь поэта, в сверканиях звезд – есть жизнь поэта. Это самый романтичный стих о поэтах – поэты плетут корону из звезд своим любимым женщинам (это наверное словно сладкий яд), поэты могут видеть сны летающей птицы, раскрывающегося бутона и даже деревьев (эта уже горькая правда):

*Ҳамда юлдузларнинг боғида*
*Шоир умри, дунёси бор*

*Озод бахтиёр.*
*Шоирлар севган аёлларига*
*Юлдузлардан тож ясайди.*
*Шоирлар парвозлаган қушнинг,*
*чечак очган дарахтнинг тушларини кўради*

Символичны стихи «Озодлик» («Свобода»). Душа поэта приобрела свободу и он готов жить и творить ради неё. Образ птицы, бабочки, утренней звезды и русалочки придают величественный дух. Каждый читая эти строки, чувствует и себя таким же свободным и его душа наполняется приятным позитивным. Ведь настоящая поэзия должна выполнят именно такую функцию – озарят души людей светом позитива и доброты, пробудить в них веру и надежду… быть свободным словно птица, бабочка, звезда или как дочка моря:

*Чиқ тўлқинлар қўйнидан*
*Чиққин денгизнинг қизи*
*Бугун мен ҳам озоддирман сен каби*

Стихи Эльчина Искандарзада “Сўнгги шеър” («Последний стих») это гимн всех поэтов мира! Поэт, даже зная, что умирает, написал бы о красоте ночей, дней, деревьев, морей…об участи людей написал бы только доброе, хорошее и светлое. Этот стих и есть душа Эльчина Искандарзада. У узбеков есть такое изречение: «Умримнинг охирги кунида ҳам яхшилик қилгум». Это изречение созвучно с данными стихами . Или же вспомним великого Беруний. Когда он умирал и прекрасно знал, что он умирает, спросил у своего



ученика о результатах исселодавания, ученик удивился и сказал: «Учитель, зачем это вам? Не мучайте себя такими формулами и уровнениями…». А Беруний сказал: «Эти результаты нужны науке, людям, для будущего… а я даже после смерти буду в науке». Вот так и душа поэта – она даже и в последний день будет воспевать свою Родину, свой народ, свою любовь к ним.

*Мендан сўнг дунёнинг*
*кечаларини,*
*кундузларини,*
*дарахтларини,*
*денгизларини, инсонлар қисматини*
*Яна яхшиликка этардим таъбир.*
*Ва сўнгги бор кўнгил очардим торли бир соз*
*сасига...*

В стихах Эльчина Искандарзада слова будто оживают… Они сочетаются со словами, с которыми никогда не смогли бы сочетаться в «реальной жизни». В стихах «Капалак умри» («Жизнь бабочки») есть такое сочетание так “*тупроғинг қонини сўриб*”, также в его стихах встречаются оригинальные и неординарные сочетания как *кўзгуда мум ёруғи, жилвали саси, кўнглимнинг синиқ шишаси, ҳақиқатла хаёлнинг қоришуви и др.*

Поэт подчеркивая краткосрочность жизни, сравнивает жизнь человека с жизнью бабочки… Его стихи - это маленькие осколки души, где разбросаны крупинки боли и страдания души:

*Ўзлари шеърларидан олдин*
*Машҳур бўлган шоирларнинг*
*Қора малаклари кулмоқда-*
*Шеърлари ўзларидан олдин ўлмоқда*

Структура стихов поэта очень разнообразная. Они имеют общность и с творчеством узбекских поэтов тоже. В творчестве узбекских поэтов Сирожиддина Сайида, Фариды Афруз, Махмуда Тоира часто встречается троестишье, четверостишье. Структуру таких стихов мы наблюдаем и в стихах Эльчина Искандарзада. Следующее шестистишье невозможно читать без слез:

*Аҳмаднинг юрти бор,*
*Сунанинг уйи,*
*Наташанинг Москваси!*
*Хўш, менинг Шушам қайда?*
*Сен Шушани кўрсат менга,*
*Ватианимни кўрсат, ота...*

Эльчин Искандарзаде родился в Шуше, в городе, который оккупирован армянскими оккупантами несколько лет тому назад. И его боль и тоска по своей Родине - эта боль и тоска всего азербайджанского народа. Ведь они потеряли 20% своих земель…Именно в этих шести строках выражены все страдания и мечты азербайджанского народа. В Азербайджане нет поэта, который бы не писал о Карабахе, о Шуше, об Агдаме. И слово Эльчина Искандарзада среди всех поэтов, оно своеобразное, более чувственное и пронзительное, так как он сам из Шушы.



Невозможно в одной статье описать всю красоту, неповторимость, оригинальность, всю обаяние и величие поэзии Эльчина Искандарзады. Мы прочитав его книгу «Букет Харыбюльбюль» восхитились мыслями о его поэзии таких великих людей как Чингиза Айтматова, У.А.Джолдасбекова, Мамед Араз, Мустафа Крымоглу, Бахтияр Вагабзаде, Мухтар Шаханов, Низами Джаъфаров... И пришли к мнению, что о достижениях Эльчина Искандрзаде как поэта, мыслителя, знатока классической литературы, знаменитого математика можно и нужно писать множество научных трудов, докторских диссертаций.

Уважаемый Эльчинбей! От имени всех ваших читателей и почитателей вашего таланта в Узбекистане, разрешите поздравить вас с юбилеем. Эти стихи вам:

*Ваш возраст никто угадать не сумеет,*
*Вы молоды внешне, душою прекрасны,*
*И переживать вам не стоит напрасно –*
*Кто молод душой – и лицом молодеет!*

*Десятков всего-то вам пять и не более,*
*И если подумать – отличная дата,*
*К ней длинной казалась дорога когда-то…*
*Примите от нас поздравленья сегодня.*

*Всегда оставайтесь в душе молодою,*
*Умеющей жизни мгновенья ценить,*
*Чтоб было желание писать и любить,*
*Ведь повод у вас есть гордиться собою!*






Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında
50 illik yubiley tədbirindən. 28 noyabr 2014-cü il





Həyat ideallarından biri, əziz müəllimi
Xalıq Yahudovla



Universitet Elmi Şurasında
dekanlar Fariz Əmirov və Ərəstun Məmmədovla



Atatürk Mərkəzində Türkiyədə çap olunan kitablarının təqdimatı



Əziz dostu Adil Mirseyidin fərdi sərgisində







Gənc yazarların dostu



Əziz dostu hakim Ənvər Seyidovla



Akademik Xoşbəxt Yusifzadənin 85 yaşının təbriki





Doğma ev



Doğma kollektiv



KKTC prezidenti Rauf Denktaşla



Türkiyə Cümhuriyyətinin prezidenti Abdulla Güllə







Çingiz Aytmatov əfsanəsi



Azərbaycanın Əməkdar müəllimi, İqtisad Universitetinin
dosenti Müzəffər Məmmədovun
yubiley təbriki




Elçin İsgəndərzadə və Rasim Gənzəli



## İTTİFAQ MİRZƏBƏYLİ

*əməkdar jurnalist*

## ƏLLİ İLDƏ YÜZ İLİN ÇALIŞMALARINA VƏSİQƏ VERMİŞ ZİYALIMIZ

Onun haqqında çox oxumuşdum, çox eşitmişdim. Həm elmi, həm də bədii yaradıcılığı barədə əhatəli məlumatım var idi. Amma, nədənsə elə bil onun haqqında deyilənlər mənə inandırıcı gəlmirdi. Düşünürdüm – necə ola bilər ki, gənc bir alim bu qədər yerli və xarici miqyaslı uğurlara imza atsın və həmin uğurların hamısı beynəlxalq aləmdə yüksək səviyyədə qəbul edilsin? Üstəlik beynəlxalq elm ictimaiyyəti onun uğurlarını təkcə qəbul və təqdir etmir, həm də dövri olaraq yüksək mükaftlara layiq görür. Bu, necə ola bilər? – deyə düşündüyüm 2008-ci ildə – bir elmi məclisdə şəxsi tanışlığımıza imkan yarandı. Mən həmin tanışlıqdan sonrakı illər ərzində - bir çox tədbirlərdə birgə iştirakımızdan, birgə xarici səfərimizdən, toy-bayramlarda, müxtəlif tədbirlərdə ünsiyyətimizdən sonra təkcə onun uğurlarını təqdir etmədim, həm də həyatda yorulmaz, elmdə təşəbbüskar, bədii yaradıcılıqda isə incə zövqlü, qaynar ilhamlı, eyni zamanda prinsipial xarakterli olan bu soydaşımızla fəxr etməyə başladım.

Söhbət professor Elçin İsgəndərzadədən gedir. Mən onu hörmətli oxuculara sadəcə professor kimi təqdim etdim. Bu qənaətim təkcə ona görə deyil ki, professor titulunu digər

titullardan daha üstün tuturam. Yox. Sadəcə, onun digər titullarını qeyd eləmək imkanımız yoxdur. Həm yazının həcmi baxımından, həm də vaxt etibarilə. Onun haqqında olan "Vikipediya" materialını oxumaq kifayətdir ki, oxucu mənim bu fikrimlə razılaşsın. Hər halda, aşağıda bu barədə bəzi məqamlardan söz açmağa çalışacağıq. İndi isə bu sətirləri qələmə almaqda bizə kömək olmuş bir neçə fraqmentə diqqət yetirək.

2008-ci ilin mart ayı. Bakıda "Bakıxanovların ekran təcəssümü" adlı kitabın təqdimat mərasimi keçirilir. Çoxsaylı çıxışlardan sonra SSRİ xalq artisti, akademik Arif Məlikov Bakıxanovlar nəslinin görkəmli simaları haqqında olan nəşr materiallarının beynəlxalq aləmə çıxarılması zərurətini vurğulayır və təklif edir ki, bu məsələ konkret olaraq bir şəxsə həvalə edilsin. İndi digər bir görkəmli ziyalının - akademik Bəkir Nəbiyevin dediklərinə fikir verin: - Fikrimcə, bu işi lazımınca yerinə yetirə biləcək alimimiz Elçin İsgəndərzadədir. Bu ətraf ölkələrdə elə bir qəzet-jurnal redaksiyası, yaradıcı birlik yoxdur ki, orada Elçin İsgəndərzadənin dostu, tanışı olmasın. Hamımızdan gənc olsa da, xaricdə Azərbaycan elmini, ədəbiyyatını tanıtmaq üçün kifayət qədər səy göstərib. İnanıram ki, bu sahədə də səyləri müsbət nəticələr verəcəkdir.

2012-ci ilin iyun ayı. İstanbulun və bütövlükdə Türkiyənin "ən böyük konsert və konqre sarayı" kimi tanınan Lütvi Kirdar sarayı. Peyğəmbər (salavatullah) nəslindən olan böyük şair, filosof, görkəmli xeyriyyəçi və din xadimi Əs-Seyyid Osman Hülusi Darendevi mövzusunda beynəlxalq simpoziuma toplaşmışıq. Tədbirdə Avropanın və Asiyanın əksər ölkələrini təmsil edən onlarla görkəmli alim iştirak edir. Simpoziumun başlanmasından əvvəl alimlər bir-biri ilə tanış olmağa çalışır, gələcək əməkdaşlıq barədə söhbət



edirlər. Türkiyədən, İraqdan, Pakistandan, Makedoniyadan, Şimali Kiprdən olan alimlər isə yaxınlaşaraq Azərbaycan nümayəndə heyətinin üzvü Elçin İsgəndərzadə ilə qardaş kimi görüşür, dostcasına qucaqlaşır və səmimi söhbət edirlər. Bu iftixargətirən məqam mənim nəzərimdən yayınmır və şahidi olduğum faktların təəssüratını köhnə dostumuz, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası Ankara bürosunun sədri , professor Hayretdin İvginlə bölüşürəm. Professor çox maraqlı cavab verir: - Elçin bəy bütün şərq xalqlarının elm ictimaiyyəti arasında tanınmış alimdir. Qardaş azərilər Qarabağı təmsil etmək üçün beynəlxalq aləmə "Qarabağ" futbol komandasını, Şuşanı təmsil etmək üçün isə Elçin İsgəndərzadəni göndərsələr, kifayətdir. Onun Azərbaycanı təmsil etdiyi ünvanların siyahısında Avropanın və Asiyanın 50-dən çox ölkəsi var. Odur ki, xarici alimlərin Elçin bəyin başına toplaşmasını tam təbii qarşılayın.

2013-cü ilin dekabr ayı. Səudiyyə Ərəbistanının Ər-Riyad şəhəri. "Səudiyyə Ərəbistanı, Azərbaycan və Orta Asiya ölkələri arasında iqtisadi əməkdaşlığın perspektivləri" adlı konfransa toplaşmışıq. Orta Asiya ölkələrini təmsil edən həmkarlarımızla söhbət zamanı mən Maqsud Şeyxzadədən söz açdım. Özbəkistan Xarici İşlər Nazirliyinin internet xəbərlər buraxılışının baş redaktoru olan bir həmkarımız mənim azərbaycanlı olduğumu biləndə professor Elçin İsgəndərzadəyə salamlar söyləməyimi xahiş etdi və vurğuladı ki, Elçin bəy türk xalqları arasında ədəbi əlaqələrin möhkəmləndirilməsinə xüsusi töhfələr verən, qeyri-adi enerjiyə malik bir ziyalıdır.

Bu üç faktdan sonra, lap elə əvvəl də, eşitdiyim və şahidi olduğum bir çox məqamlara görə əvvəllər Elçin haqqında eşitdiklərimə inanmadığıma görə sadəcə özüm

özümü qınadım. Həmişə belə olub. Biz kiminsə alimini, yazıçısını, şairini tərifləyə-tərifləyə göylərə qaldırmışıq. Sonra məlum olub ki, tərifədiyimiz adam onun Azərbaycandakı həmkarlarının yanında qat-qat kiçik görünür. Qərəz…

Bəs əcnəbilər nə üçün Elçin İsgəndərzadənin elmi və ədəbi yaradıcılığını yüksək qiymətləndirirlər? Yaxud, onun bu qədər uğurlar qazanmasının təməlində nə dayanır? Bu suallara cavab tapmaq üçün əlimizdə olan materiallara müraciət etdik.

Öyrəndik ki, qəhrəmanımız 1964-cü ildə Azərbaycanın dilbər guşələrindən olan Şuşa şəhərində anadan olub və orta məktəbi Ağdam şəhərində Qızıl medalla bitirib. Adlı təqaüdçü kimi təhsil aldığı Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsini də fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində Azərbaycan Ali məktəb tələbələrinin Ümumrespublika Elmi Konfranslarında beş dəfə Birinci dərəcəli diploma layiq görülüb. 1982-ci ildə Omsk şəhərində keçirilən Ali riyaziyyat fənni üzrə Ümumittifaq olimpiadasının diplomantı olub. 1983-cü ildə M.Bauman adına Moskva Ali Texniki Məktəbdə keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomantı olub. 1984 -cü ildə "Ən yaxşı tələbə elmi işi üçün" medalı ilə təltif olunub. Sank-Peterburq Texniki Universitetində Maşınqayırmanın Texnologiyası fənni üzrə keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomantı olub.1985-ci ildə A.Sneckaus adına Vilnüs Politexnik İnstitutunda keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomantı olub və elmi əsəri kitabda çap olunub.Tallin Politexnik İnstitutunda keçirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomantı olub və elmi əsəri kitabda çap olunub. Yəqin, hörmətli oxucu indi bildi ki, mən nə üçün



yazının əvvəlində sadəcə professor Elçin İsgəndərzadə yazmaqla kifayətləndim. Bu adamın hələ tələbəlik illərində qazandığı nailiyyətlər bütöv bir abzas oldu.

Elçin İsgəndərzadə böyük ədəbiyyata Xalq şairi Məmməd Arazın xeyir-duası ilə gəlmiş və sonrakı illərdə yenilik ruhlu ədəbi üslubuna sadiq qalaraq, son illər ədəbiyyatımızın Dünya təmsilçilərindən birinə çevrilmişdir.

O, tələbə kimi öz üzərində çalışmaqla yanaşı elmi ixtiraları ilə də yadda qalıb. 1986 -cı ildə Moskva şəhərində Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Qızıl medalına layiq görülüb. İlk elmi ixtirası Bakı Məişət Kondisionerləri zavodunda istehsalata tətbiq olunub və ildə 1,2 milyon rubl iqtisadi səmərə verib. Minsk Politexnik İnstitutunda (Belorusiya) kecirilən Ümumittifaq Tələbə Elmi Konfransının diplomantı olub. 1989-cu ildə "Maşın və mexanizmlər nəzəriyyəsi" ixtisası üzrə Azərbaycan Texniki Universitetinin aspiranturasına qəbul olunub. 1989-2014-cü illərdə dünyanın müxtəlif ölkələrində kecirilmiş 100-dək beynəlxalq, regional və respublika miqyaslı elmi qurultay, konqres, simpozium və konfransların iştirakçısı olub. 1991-ci ildə Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən "Dəyişən quruluşlu mexanizmlər texnikada" Beynəlxalq elmi konfransında Azərbaycanı təmsil edib. 1993 –cü ildə namizədlik dissertasiyası müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi alıb. Uyğun ixtisas üzrə keçmiş İttifaqın və Azərbaycanın ən gənc alimi olub. 1997-ci ildə "Akademik Yusif Məmmədəliyev" mükafatına və medalına layiq görülüb. Fikrimizcə, bütün bunlar Elçin İsgəndərzadənin dünyada tanınmasına səbəb olan təməllər idi.

İndi isə Elçini beynəlxalq aləmdə daha çox tanıdan illərin başlanğıcı barədə. Gənc alim 1994 –cü ildə

"VEKTOR" Beynəlxalq Elm Mərkəzini təsis edib. 2000-ci ildə "Qızıl Qələm" mükafatına layiq görülüb. "VEKTOR" Beynəlxalq Elm Mərkəzi tərəfindən Xudu Məmmədov adına Beynəlxalq Elm mükafatı və Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatı təsis edib. 2012-ci ildə texnika elmləri doktoru, professor elmi adına layiq görülüb. O, eyni zamanda filologiya elmləri doktorudur. Nyu-York Elmlər Akademiyasının, «Qafqaz Xalqları» Beynəlxalq Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının, Beynəlxalq Kadr Akademiyasının, Təbriz Dil və Kültür Akademiyasının, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Gürcüstan Milli Akademiyasının, İtaliya Beynəlxalq Elmlər Akademiyasının, Vatikan Bonefisiana Akademiyasının, Avropa Mədəniyyət Akademiyasının həqiqi (akademik) üzvü seçilib. "BAYATI" Beynəlxalq ədəbi-sənət jurnalını təsis edib və baş redaktoru seçilib."VEKTOR" Beynəlxalq elm jurnalını təsis edib və baş redaktoru seçilib. "VEKTOR" Nəşrlər Evini təsis edib. Uluslararası "Nizamidən Yunus Əmrəyə-Atatürkdən Heydər Əliyevə uzanan sevgi yolu" Beynəlxalq simpoziumunun təşkilat komitəsinin düz 10 ildir ki, həmsədridir.

Azərbaycan yazıçılarının X, XI və XII qurultaylarının nümayəndəsi olub. 2010-cu ildə Dünya Böyük Şeir Mükafatı (The World Grand Prize for Poetry) ilə təltif edilib.

Kitabları dünyanın 20-dən çox ölkəsində (Almaniya, İran, Türkiyə, Quzey Kıbrıs, Ukrayna, Qırğızıstan, Qazağıstan, Rusiya, Suriya, Bolqarıstan, Rumıniya, Makedoniya, Gürcüstan, Albaniya və s.) yerli xalqların dillərinə cevrilərək çap olunub. 2006-cı ildə müqəddəs həcc ziyarətində olub. Avropanın fəxri alimi və mədəniyyət



səfiridir. Azərbaycan, Rusiya, Türkiyə, Makedoniya, Qırğızıstan, Kosova, Bolqarıstan və digər ölkələrin Yazarlar Birliyinin üzvüdür.

200-dən cox elmi əsərin, 47 ixtiranın, 14 monoqrafiya və dərs vəsaitinin, 85 bədii və elmi kitabın, 130 çevirmə kitabının müəllifidir. 300-dək bədii və elmi kitabların elmi redaktoru olub. "Ədəbiyyat" qəzetinin (Azərbaycan), "Mars" (Azərbaycan), "Alov" (Azərbaycan), "Kümbət" (Türkiyə), "Turnalar" (Quzey Kıbrıs), "Kaynak" (Bolqarıstan), "Türkçem" (Kosova), "Jalın" (Kazaxıstan), "Yeni nəşrlər" (Azərbaycan), "Yazıçı" (Azərbaycan), "Kərkük" (İraq), "Sürməli" (Türkiyə), "İhlamur" (Türkiyə), və digər jurnalların və nəşrlərin redaksiya heyətinin üzvüdür. Avrasiyanın bir çox ölkələrində yaradıcı birliklərin üzvü olsa da, ən çox Azərbaycan Yazıçılar Birliyinin üzvü olduğuna görə fəxr edir.

İndi isə işdəki kitab şkafımızdakı bəzi kitab və jurnallara ötəri də olsa nəzər salaq. Ötən il mərhum yazar Arif Əmrahoğlunun redaktorluğu və ön sözü ilə "Vektor" nəşrlər evində ərsəyə gəlmiş və elə həmin il də Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Qızıl Kəlmə" ədəbiyyat üzrə Dövlət mükafatına layiq görülmüş "Qürbət hücrəsində" adlı kitabın Elçinin neçənci çap əsəri olduğunu bilmirəm. Amma, şeirlər və poemalardan ibarət olan bu kitabın 27-ci səhifəsindəki "Alça çiçəkli gecə" adlı şeirin həm bütün ümidsizlərə ümid vermək baxımından, həm də poeziya nümunəsi kimi kifayət qədər original olduğunu çox yaxşı bilirəm. Tanınmış yazıçı, əməkdar juurnalist Qərib Mehdinin (o da doğulduğu kəndin adını təxəllüs götürsəydi, Qərib Mirzəbəyli olacaqdı, çünki bizim kənddə doğulub-böyümüş ziyalılardandır) bu il eyni nəşrlər evində işıq üzü görmüş, ədəbi fraqmentlərdən ibarət "Elçin –

el üçün” kitabını oxuyanda Elçin İsgəndərzadənin internet saytlarından birində gördüyüm şəkli yadıma düşdü. Həmin şəkildə professor kostyumda idi və pencəyinin hər iki yaxasında orden-medallardan barmaq basmağa yer görünmürdü. Qərib müəllimin toplayıb ərsəyə gətirdiyi sənədlər və bədii-publisistik materiallar Elçin İsgəndərzadənin bütöv portretini yaratmaq baxımdan əvəzsiz sənət nümunəsidir. Kitabda qarşıya qoyulan məqsədə yüksək səviyyədə nail olunub. Orada professorun həyatının və yaradıcılığının ən incə məqamlarına elə toxunulub ki, adam istər-istəməz sonrakı səhifələri mütləq oxumaq istəyir.

İzmirli professor Fəyyaz Sağlamın 2012-ci ildə öz şəhərində, “KIBATEK Yayınları”nın xəttiylə (Kıbrıs-Balkanlar –Türkiyə Ədəbiyyat Kurumu) ərsəyə gətirdiyi “Lalələr, lalələr, lalələr” (Güldəstə) kitabının elə üz qabığındaca belə bir qeyd var: (Professor Elçin İsgəndərzadəyə ərməğan). Fəyyaz Sağlamın Elçin İsgəndərzadəyə həsr olunmuş “Bir tar səsi gəlir uzaqdan…” adlı şeirindən bir bəndə nəzər salaq: “Bir tar səsi gəlir uzaqlardan, çalan bizdən, dinləyən biz. Kıyısında bir iç dəniz, adı Hazar, halkı biziz…”

Tanınmış şair Osman Başın “Xarı bulbul” şeirlər kitabı da Elçin İsgəndərzadəyə ithaf olunub. Osman bəyin kitabda verilmiş “Bir neçə söz” adlı yazısında Elçinin həsrəti Anadolu türkünün qələmiylə bu şəkildə ifadə olunur: “ Şimdi ( məqalə aprelin 30-da qələmə alınıb) Şuşada – Cıdır Ovasında Harı Bülbül də ermənilərin işğalı altındadır. Öz sahiplerine hasretdir”. Şairin kitabın sonunda verilmiş “Bizi kimsə bölməz”şeiri isə istənilən işğalı və münaqişəni rədd edə biləcəyimizə işarədir.

Bundan başqa, Ankarada çıxan “İhlamur” adlı mədəniyyət, incəsənət və ədəbiyyat jurnalının “Elçin



İsgəndərzadə” xüsusi buraxılışı olan 18-ci nömrəsində professor Elçin İsgəndərzadəyə həsr olunmuş əhatəli materiallar verilmişdir. Burada soydaşımızın türk dünyasının elminə və ədəbiyyatına verdiyi töhfələr sadalanmış, bu geniş məkanın ən ünlü sənətçiləri ilə birlikdə keçirilən tədbirlərdə çəkilmiş xeyli şəkillər verilmişdir. Yeri gəlmişkən, Elçin İsgəndərzadə də türkiyəli dostlarımıza qətiyyən “borclu qalmır”. Onun redaktorluğu ilə , “Türk birliyi!!!” şüarıyla nəşr olunub yayılan “Bayatı” Beynəlxalq sənət jurnalının bütün nömrələrində türk dünyasının ən müxtəlif qütblərini təmsil edən görkəmli insanların yazıları və ya onlar haqqında məqalələr verilir.

Elçin İsgəndərzadə elmi və ədəbi uğurlarına görə Avropa Şərəf Ordeni (Cenevrə), V.V.Mayakovski ordeni (Rusiya), «Elm və Təhsilin inkişafındakı xidmətlərinə görə» Böyük Qızıl Ordeni (Ukrayna), A.P.Çexov medalı (Rusiya), A.S.Puşkin medalı (Rusiya), Leonardo Da Vinçi medalı (İtaliya), İ.V.Göte medalı (Almaniya), S.Yesenin Qızıl medalı (Rusiya), «Roma şəhərinin fəxri alimi» medalı (İtaliya) və digər orden və medallarla təltif олунub.

Hal-hazırda Azərbaycan Texniki Universitetinin tədris işləri üzrə prorektorunun müşaviri və “Metrologiya və standartlaşdırma” kafedrasının professoru vəzifəsində çalışan Elçin İsgəndərzadə eyni zamanda Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü kimi də səmərəli fəaliyyət göstərir. O. bu ilin may ayında Azərbaycan Respublikası Prezidentinin 06 avqust 2007-ci il tarixli 612 saylı Fərmanına əsasən Prezident Mükafatına layiq görülüb.

Özbəkistanlı dostumuzun dediyi kimi Elçin İsgəndərzadə sözün həqiqi mənasında türk dünyasının elminə və ədəbiyyatına, ədəbi-mədəni əlaqələrinin daha da

genişlənməsinə xüsusi töhfələr vermiş ziyalı soydaşımızdır. Elə sərlövhədə də qeyd etdiyimiz kimi o, ömrünün geridə qalan əlli ilində bir ziyalının təxminən yüz ildə görə biləcəyi işləri reallaşdırıb. Alim və şair dostumuza uğurlar arzulayırıq.



**<u>RUSLAN DOST ƏLİ</u>**

*şair, Əhməd Yəsəvi adına Universitetin tələbəsi*

## MAYAK ADAM!

*(Professor Elçin İsgəndərzadənin 50 yaşına 4 fraqment)*

### - I -

Bir neçə ay öncə ilk dəfə AYB-nin Natəvan klubunda çıxışı zamanı gördüyüm bu şəxs BÖYÜK İNSAN imiş ...

Hər zaman barəsində xoş sözlər, yüksək fikirlər eşitdim. Hələ ki, şəxsi tanışlığım olmasa da, içimdə bir saygı, rəğbət yarandı. Sevindim ki, nə yaxşı həyatda hələ də belə insanlar var olmaqdadı. Hələ yaşamağa dəyər bir az da ...

Bəli, haqqında söz açdığım bu şəxs, bir neçə həftə bundan qabaq kütləvi şəhid verdiyimiz bir vaxtda şəhidlik mövzusunda yazdığım şeirə görə (əyani tanışlığımız olmadığı halda) kitabımın yayımını öz boynuna götürən Prof. Dr. Elçin İsgəndərzadədir!

Elçin müəllim, haçansa müəllifi olacağım ilk kitabımın sevincini yaşamağa sizin bir cümləniz bəs elədi ... MİNNƏTDARAM! Mən elə bilirəm ki, artıq o kitab çıxıb. Bilin ki, bir azərbaycan gənci olaraq SİZİNLƏ FƏXR EDİRƏM!!!

Yaşamaqda olduğunuz şərəfli ömürdən dolayı aldığınız qiymət = 5, İçinizin təmizliyindən, saflığından, dürüstlüyünüzdən, səmimiliyinizdən dolayı kin-küdurətiniz = 0. Budur, iki rəqəmin yan-yana duruşu və adı = 50. Əlliyə qədərki ömrünüz bəlli ...

Gözəl şairimiz Z. Yaqub yaxşı deyib:

*Qırx körpü var, qırx keçid var, qırx ada,*
*Salam verdim otuza da, qırxa da,*
*Bir də gördüm əlli qalıb arxada,*
*Baş götürüb əlli beşə gedirəm ...*

Gedin, Elçin müəllim, gedin. Gedin ki, biz də gələ bilək..

*25.08.2014*

## - II -

Bir neçə həftədən sonra Elçin müəllimlə Bakıda görüşümüz baş tutdu.

Zəlimxan Yaqub yaxşı deyib:

*Ürəkdən verilən xoş bir salamla,*
*Əli əl isidər, qanı qan çəkər.*

Elə ilk andan Elçin müəllimin əli əlimi isitdi, qanı qanımı çəkdi. Əvvəl şeirlərimdən oxuyub, bir-bir təhlil etdi, çatışan və çatışmayan tərəflərini dedi. Sonra uğurlar arzuladı. Elçin müəllimin elmi təfəkkürü, dərin düçüncəsi də nəzərimdən yayınmadı. O deyəndə ki, "MƏN GERÇƏK İSTEDADLI GƏNCLƏRİMİZİ DOĞULDUĞUM ŞUŞAM



KİMİ, VƏTƏN KİMİ SEVİRƏM!" o dəqiqə Valteri xatırladım: "İstedad nəcabətdən üstündür..."

Görüşümüzün sonunda dəyərli kitablarından mənə də hədiyyə etdi.

O kitabları təhlil etmək, Elçin İsgəndərzadə yaradıcılığı haqqında söz demək fikrindən çok-çox uzaq olsam da, o kitablarla bağlı təəssüratlarımı paylaşacaq qədər varam.

Şeirlərdən və poemalardan ibarət olan "Qürbət Hücrəsində" adlı kitabda elə adından da göründüyü kimi müəllifin əsasən qürbətdə qələmə aldığı şeirlər yer almışdır. Mən həmişə demişəm ki, şeir səni səndən alıb, uzaqlara, heç vaxt vara bilməyəcəyin yerə aparmadısa, o şeir deyil. Az öncə qeyd etdiyim kitab elə ilk misralarından məni məndən alıb aparmağa başladı.

*Əlil arabalarında iyirmi yaşlı qazilər*
*ağrı acılarını təbəssümlərində gizlədər.*
*Qanadlanıb uçmaq arzuları*
*əlil arabalarının təkər izlərinə qədər.*
*O sınırı aşa bilmir*
*İyirmi yaşlı qazilərin gözlərinə hopmuş kədər...*
*Bir şair ürəyində Xarıbülbül uyuyur,*
*İyirmi yaşlı qazilərin təbəssümləri*
*bəzən biganəlikdən solur, soyuyur...*

Şair təkcə öz ağrı-acılarını deyil, həm də dünyəvi, bəşəri ağrı-acıları yazmalı və yanmalıdır, Elçin İsgəndərzadə kimi!

Volter deyir ki:

Yaxşı kitabı ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq köhnə dostu yenidən görməkdir.

Mən də bu kitabları vərəqlədikcə Elçin İsgəndərzadəni görürəm sanki. O harda olursa olsun!

*Ağlamağa nə var ki,*
*gülməyə nə var, dostum.*
*Bu fani dünyadan, küsüb*
*ölməyə nə var, dostum.*
*Oğul odu Qarabağlı ola,*
*özü də qərib şair,*
*sinəsi dağlı ola.*
*Və günlərin bir günü*
*Gedib çıxa Dördyola.*
*Qabaq Ağdam,*
*Qənşər Şuşa,*
*Ürək qanlı bir çiçək,*
*Könül sınıq bir şüşə.*

Hörmətli professor, tənqidçi Nizami Cəfərov – “Elçin bu günkü poeziyamızın Qarabağ şikəstəsidir” – deyir. Nədənsə mən də, artıq Elçin İsgəndərzadəni görəndə Şuşa, Şuşa deyiləndə Elçin İsgəndərzadə yadıma düşür. Elə aramızda körpü salan şeirimdə də təpədən-dırnağa Elçin İsgəndərzadəni gördüm. Buna görə də həmən şeiri Şuşa Tanrının şüşəsidir deyən Elçin İsgəndərzadə adına yazdım, ona həsr elədim.



## ELÇİN İSGƏNDƏRZADƏYƏ!

***

Yoxdu, xeyr, yoxdu,
Kim deyir var? – Xeyir!
Yoxdu.
Təzə şeir yoxdu,
Təzə qan var!

Kim gəlir buraxın gəlsin,
Qoşun gəlsin, axın gəlsin,
Kim istəyir yaxın gəlsin,
Təzə qan var!

Öpüş, görüş: Ağrı, Acı ...
Ağrı zəhər, ağrı acı.
Köhnə-kürüş ağrı-acı,
Təzə qan var!

Götür qanlı köynəyini belinə sarı,
dəsmalını əlinə sarı,
kəmərini qoluna sarı,
gecə-gündüz boylan elə yoluna sarı,
amandır ha, o paltarı
qurumağa atma, atma ip üstünə,
Şəhid yarı, səp üstünə,
Təzə qan var!

Bir uşaq da küncdə durub,
İçin-için səs eyləyər,
o da belə qan eyləyər,
bizi pərişan eyləyər.
ay adamlar,

elə billəm hamımıza bəs eyləyər,
Təzə qan var!

Şəhidlər həm də rəssamdı,
Gül rəssamı, lap Qızılgül rəssamı.
Qanları torpaqda gül kimidi.
təzə yolunmuş gül kimi.
Özləri də gül kimiydi, gül kimi ...
Amma Vətənin gülüdü.
Bu da Vətənin bir günüdü, köhnə günü.
Təzə qan var!

Bayraq Vətənin alın yazısıdı,
onda da qan rəngi var.
Qan bu Vətənin alnına yazılıb.
Dirəyini də rəngləyin,
Təzə qan var!

Cəngi səsi getmiş hara?
Durun bürünün odlara,
Rəngi bəyaz, rəngi qara,
Xəbər verin boz qurdlara,
Təzə qan var!
Təzə qan var!

**- III -**

"EŞQ" kitabını necə başladım, necə bitirdim heç özüm də bilmədim.

*Dağlar alatoranda –*
*tül kimi ağ dumanda,*



*Xarıbülbülün ləçəklərində*
*nazlanır şeh damlaları,*
*səhər alatoranı bir röya kimidir yenə.*
*Hələ bir quş səsi qonmayıb*
*təzəcə şeh düşmüş ləçəklərə.*
*Xarıbülbül gülümsəyir*
*Arzulara, ümidlərə, diləklərə,*
*bu anda*
*bir şeir yazmaq istədim,*
*bir şeir sənə...*

Oskar Uayld deyirdi ki: Bu dünyanı alman fəlsəfəsi yox, sevgi izah edir. Elçin İsgəndərzadənin içindəki eşq tonqalını, sevda alovunu görməmək, onun isitisində qızınmamaq mümkün deyil.

Sevda – nəfəsin bitincəyə qədərdi – deyirdi, Nazim Hikmət. Yunus İmrə yolunun yolçusudur Elçin İsgəndərzadə.

Artıq haqq dünyasına qovuşmuş şairimiz Adil Mirseyid Elçin İsgəndərzadə haqqında yazarkən başlığı belə qoymuşdu – HARDAN BAXSAN GÖRÜNƏN ADAM! Elçin İsgəndərzadənin bədii obrazları, poetik ifadələri, metoforaları, müşahidələri, bir sözlə özünəməxsus bənzərsiz poeziyası da elə özü kimi görünəndir.

*İydə yarpaqlarından süzülən,*
*inci kimi saçlarına düzlən*
*yağmur damlaları*
*səsinin titrəyişində*
*ilişib qalmışdı*
*sevgisiz bir gecədə...*
*Sən sevgisiz gecələrin qızısan,*
*sən sevgisiz gecələrin dan ulduzusan.*
*Sevgisiz gecələrdə gözlərin*

*səssiz-səssiz hıçqırır,*
*saçların yarpaqlayır.*
*Gözlərini sevirəm sənin,*
*Gözlərin sirrimizi saxlayır...*
*Sevgisiz gecələrdən həsrət qorxusu gəlir,*
*saçlarından gözəlim, iydə qoxusu gəlir...*

Seneca yazırdı ki: Hər kitabxana bir həpsxananı bağlayar. Elçin müəllimə arzum, istəyim odur ki, yeni-yeni kitablar yazsın, yeni kitablar çap etsin ki, ölkəmizdə kitabxanaların sayı ildən-ilə artsın, çoxalsın...

Dənizdə gəmilər mayakı tutub getdiyi kimi, həyatda da insan öz mayakını seçməlidir. Bu mənada mən vətənpərvərliyin, insanlığın, şəxsiyyətin əsl nümunəsi, nümayəndəsi Elçin İsgəndərzadəni mayak olaraq görürəm. Hər zaman yerinizdə olmağınızı arzulayıram. Yerinizdə olun ki, sizə tərəf istiqamət götürən gəmilər ünvanına çata bilsin, Mayak Adam!..

*09.08.2014*

## - IV -

Dünəndən gözləyirəm ki, hamı təbrikini yazsın, mən lap axırda yazım. Çünki, məncə təbrik edənlərin ən kiçiyi ya da ən kiçiklərindən biri mənəm və növbəmi gözləməliyəm... *(təbrik etməyin sırası, növbəsi olmasa belə)* Bütün təbrikləri oxudum. Məncə təbrikin pisi olmur...

Onun kitablarında torpaq qoxusu, dağ havası var. Ona həsr olunan şeirlərə də elə bil Şuşa ətri səpilib...

*Mən onu görəndə elə bilirəm*
*Çiynində Şuşanın əl yeri qalıb...*



*Onun yaddaşında*
*təkcə Şuşadakı evləri yox,*
*Şuşanın hər yeri qalıb...*

Söhbət hamımızın doğması, əzizi, istedadlı gənclərimizlə qürur duyan, hər zaman könlünün qapısı üzümüzə açıq olan, dayağımız, fəxr yerimiz professor Elçin İsgəndərzadədən gedir!!!

Elçin müəllim, MÜBARƏKSİZ!

Mən sizi əlimdən gələn qədər deyil, ürəyimdən gələn qədər təbrik etməyə çalışdım...

***

## ELÇİN İSGƏNDƏRZADƏYƏ

Bilirəm, hər gecə şair xəyalın,
Gedib yurd yerinə baş çəkib gəlir.
Bu qəm kotanı da xatirələrin,
Sinəsi üstünə xış çəkib gəlir...

Tərgitmək olmur ki, belə vərdişi:
Hey gəlir qaralar, ağlar ağlına.
O Dağlar nə bilir vaxtın gərdişi,
İndi nə dağ çəkir dağlar oğluna...

Yazıb, yaratdığın canlı şeir də,
Hələ də bir qara don içindədir!
Qələmə aldığın "Qanlı şeir"də,
Təpədən-dırnağa qan içindədir...

O gənc qazilərə yozulmuş şeir,
Bizim üzümüzə dəyən şillədi!
"Tüfəng qundağına yazılmış şeir",
Qəfildən açılmış paslı gülədi...

Sıxıb yumruğunu bu yer üzündə,
Ürəyi bir qırıq şüşə boyda san...
Şuşa sən boydadı mənim gözümdə,
Elə sən özün də Şuşa boydasan!!!

*17.09.2014.*



## KİTABDAKILAR:

Ön söz yerinə, yaxud, təqdimat çətinliyi................................4
Uşaqlığın altı ili.......................................................................6
Məktəb illərinin xatirələri.......................................................13
Yeni yolun cığırları..................................................................22
Tələbəlik illəri və yaxud İsgəndərov düsturu.......................28
Əhəd babanın mərdliyi...........................................................35
Poetik dünyanın işığı..............................................................40
Gəncədən gəlirəm, yüküm... kitabdı....................................53
Bir gecənin tarixçəsi..............................................................59
Tanrının  yar bəxşişi...............................................................65
Arzuların "Vektor"u...............................................................71
Ayşən, Aydan və... Əli.........................................................75
"İlham"dan gələn ilham........................................................82
Arazların Araz boyda dərdi var............................................88
Türk dünyasının Denktaşı.....................................................98
Ömrə bərabər görüş...........................................................112
Dünyaya baxanlar və görənlər.............................................120
Elmi yaradıcılığına bir nəzər...............................................124
Poetik dünyasına nasir baxışı..............................................131
Poeziya çinarından yeddi yarpaq.........................................140
Son söz yerinə və yaxud bənzəri olmayan insan................147
Müzəffər Məmmədov "Türk dünyasının fəxri"................150
Nəriman Həsənzadə "Elçin İsgəndərzadə yaradıcılığı"....159
Zəlimxan Yaqub "Ümidin qanadlarında"..........................170
Nizaməddin Şəmsizadə "İdrakın bədii şöləsi"..................176

Vaqif Nəsib "Quzeydən Güneyə göyqurşağı səyahət".....185
Ümbülbanu "Xoşbəxt yolçuluq"......................................198
Саодат Мухамедова " Алмазные грани творчества Эльчина Искандарзада"..................................................201
İttifaq Mirzəbəyli "Əlli ildə yüz ilin çalışmalarına vəsiqə vermiş ziyalımız".................................................................218
Ruslan Dost Əli "Mayak adam!"........................................228



**Rasim GƏNZƏLİ**

**QIZIL TÜRKLƏRDƏN BİRİ**

Çapa imzalanmış: 16.04.2015

Kağız formatı: 60x84 1/16

Həcmi: 14 ç.v.; Sifariş: 613; Sayı: 1000

«VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ

«VEKTOR» NƏŞRLƏR EVİ

Ünvan: AZ1018. Bakı şəh, Zığ yolu, 20 q

tel: (+99470) 3007000; (+99412) 4471404

faks: (+99412) 3796003

e-mail: isgenderzadeh@rambler.ru

www.vektor.az